# Xalq qəzeti

Xalqın qəzeti!

№ 97 (31066) 5 iyun 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Qarabağ Zəfəri və Böyük Qayıdış məcburi köçkünlüyü tarixə qovuşdurdu



**Bizim Qələbə elə mütləq qələbə idi ki, burada artıq şəkk-şübhə qalmadı. Bayrağımız da Şuşada, ondan sonra Xankəndidə qaldırıldı və düşmən torpaqlarımızdan qovuldu. Ermənistan ordusu tamamilə darmadağın edildi.**

**Bu gün biz rahat yaşayırıq – qalib xalq kimi və qalib dövlət kimi. Bu, böyük qürur mənbəyidir. Qısa müddət ərzində belə bərpa-quruculuq işləri aparmaq, bu da xalq üçündür. Yəni insanlar tez qayıtsınlar, rahat yaşasınlar, qurub-yaratsınlar və həyatdan zövq alsınlar.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Rusiya Prezidenti Azərbaycanla münasibətləri yüksək dəyərləndirib



**“Bizim Azərbaycanla həm iqtisadiyyatda, həm də siyasətdə həmişə çox yaxşı və səmimi münasibətlərimiz olub və bu davam edir”.**

Bu barədə Rusiya Prezidenti Vladimir Putin 29-cu Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsində beynəlxalq xəbər agentliklərinin nümayəndələri ilə görüşündə AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyevin sualına cavabında bildirib.

Bir neçə il əvvəl iki ölkə arasında Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamənin imzalandığını xatırladan Rusiya dövlətinin başçısı qeyd edib: “Prezident İlham Əliyev bu müqaviləni konkret məzmunla zənginləşdirmək üçün xeyli səy göstərir. Bu öz əksini əməkdaşlığımızın konkret istiqamətlərində tapır”.

Azərbaycan iqtisadiyyatına qoyulan Rusiya investisiyalarının həcminin 10 milyard dolları keçdiyini vurğulayan Vladimir Putin deyib: “Rusiya kapitalı ilə çoxlu sayda müəssisə fəaliyyət göstərir. Humanitar məsələlərdə sıx qarşılıqlı fəaliyyətimiz var”. O, iki ölkənin logistika sahəsində qarşılıqlı maraq doğuran bir çox məsələsinin olduğunu bildirib. Rusiya Prezidenti buna nümunə olaraq “Şimal–Cənub” nəqliyyat dəhlizini göstərib.

Rusiya rəhbəri İrana humanitar yardımın çatdırılmasında köməyə görə Prezident İlham Əliyevə minnətdarlığını da bildirib: “İrana humanitar yardım göndərməyimizə kömək etdiyinə görə Prezident İlham Əliyevə çox minnətdarıq. Azərbaycan tərəfi bu məsələdə çox və səmərəli işləyib, bütün xahişlərimizə dərhal reaksiya verib və bu, həmin sahədə də vəziyyətin yumşaldılması üçün çox vacibdir”.

Rusiya və Azərbaycanın bir sıra konkret istiqamətlərdə, o cümlədən energetika sahəsində danışıqlar apardığını xatırladan qonşu ölkə başçısı deyib: “Biz bir sıra konkret istiqamətlər üzrə danışıqlar aparırıq. Bu barədə danışmaq hələ tezdir. Bu, ilk növbədə, energetikaya aiddir. Biz Prezident İlham Əliyevlə görüşəcəyik və bütün bunlar haqqında mütləq danışacağıq”.

***AZƏRTAC***

## Qafqaz və Anadoludan keçən Avrasiya marşrutu

Səhifə ⇧ 4

## Azərbaycanın daha bir ilki




Səhifə ⇨ 7

## COP29-dan WUF13-ə gələn “yaşıl” yol



Səhifə ⇨ 8

## Rusiyasız Ermənistan: siyasi şantajın miskinlik payı



Səhifə ⇨ 5

## Amritsar hadisələri və transmilli qırğınlar



Səhifə ⇨ 3

## Anklavlar ətrafında yeni oyun



Səhifə ⇨ 3

## Əfsanə və gerçəklik arasında...

*Ermənistan 2 gün sonra belə bir seçim etməlidir*



**Ermənistanda keçirilməsinə sayılı günlərin qaldığı parlament seçkiləri öncəsi gərginlik durmadan artır. Vəziyyəti şərtləndirən məqamlar isə məlumdur. Bunlar barədə söz açmaq və detallar üzərində dayanmaq mümkündür. Ancaq bir məqam var. Söhbət ideoloji mahiyyət daşıyan məqamdan gedir.**

Qeyd edək ki, seçkiqabağı təbliğat kampaniyası başlamazdan əvvəl Baş nazir Nikol Paşinyan və ətrafı parlament seçkilərinin ölkənin sülh və müharibə arasında seçim olduğunu vurğulamışdı. İlk baxışdan siyasi şüar təsiri bağışlayan bu yanaşma sonrakı hadisələrin fonunda daha aydın görünməyə başladı. Hazırda Ermənistanın siyasi gündəliyində müzakirə olunan əsas mövzu məhz regionda münasibətlərin normallaşdırılması və ya keçmiş qarşıdurma siyasətinin davam etdirilməsi məsələsidir.

*(ardı 3-cü səhifədə)*

## WUF13: şəhərsalma və memarlıq ənənəsi kontekstində




Səhifə ⇨ 6

## Qasım xanlığı–Rusiya daxilində 229 il davam etmiş türk dövlətçiliyi



Qasım şəhəri-xan Sarayı

Səhifə ⇨ 9

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Dost ölkənizin Müstəqillik Günü münasibətilə Qətər Dövlətinin xalqı adından və şəxsən öz adımdan Sizə və Azərbaycan xalqına ən səmimi salamlarımı, xoş arzularla dolu təbriklərimi çatdırıram.

Sizə möhkəm cansağlığı, qardaş ölkənizə davamlı tərəqqi və firavanlıq, eyni zamanda, ölkələrimiz arasında qarşılıqlı əlaqələrin daha da inkişaf etməsini və möhkəmlənməsini arzu edirəm.

**Ən yüksək hörmət və ehtiramla,**

***Şeyx Təmim bin Həməd Al TANİ,***
***Qətər Dövlətinin Əmiri***

*

**Zati-aliləri cənab Prezident!**

Dost Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Zati-alinizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzu edirəm.

**Ən yüksək hörmət və ehtiramla,**

***Şeyx Abdullah bin Həməd Al TANİ,***
***Qətər Dövləti Əmirinin müavini***

*

**Allahın salamı, rəhməti və bərəkəti üzərinizdə olsun!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunam.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

Zati-alinizə ən yüksək ehtiramımı bildirirəm.

**Hörmətlə,**

***Salman bin Həməd Al XƏLİFƏ,***
***Bəhreyn Krallığının vəliəhdi və Baş naziri***

*

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu!**

Dost Azərbaycan Respublikasının Müstəqillik Gününün növbəti ildönümü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək Sizə uzun ömür, cansağlığı, müvəffəqiyyətlər, Azərbaycan Respublikasına və onun dost xalqına davamlı tərəqqi və firavanlıq arzulayıram.

**Dərin hörmətlə,**

***Şeyx Sabah Xalid əl-Həmad əl-Mübarək əl-SABAH,***
***Küveyt Dövlətinin Vəliəhdi***

*

**Hörmətli İlham Heydər oğlu!**

Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Mən Azərbaycana - bu mübarək torpağa dəfələrlə səfər etmişəm. Cəsur xalqının müstəqillik uğrunda mübarizə qəhrəmanları haqqında həqiqi dostum, atanız unudulmaz Heydər Əliyevdən eşitmişəm. Buna görə də Azərbaycanın müstəqilliyi mənim üçün sadəcə söz deyil. Mən bilirəm ki, Ukrayna xalqı da Azərbaycanı yalnız dost kimi deyil, həm də itirilmiş əraziləri geri qaytarmağa və ərazi bütövlüyünü bərpa etməyə imkan verən milli iradənin nümunəsi kimi qəbul edir. Siz buna nail oldunuz, bizdə isə bu, hələ qarşıdadır. Bu, xalqlarımız arasında xüsusi tarixi bağ yaradır.

Ümid edirəm ki, Azərbaycan xalqı da bunu hiss edir və onun həqiqi dostunun kim olduğunu başa düşür.

Gözəl Vətəninizə inkişaf və firavanlıqla bağlı ən səmimi arzularımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Leonid KUÇMA,***
***Ukraynanın sabiq Prezidenti***

*

**Zati-aliləri cənab Prezident!**

Dost Azərbaycan Respublikasının Müstəqillik Gününün ildönümü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimizi çatdırmaqdan sevinc duyuruq.

Fürsətdən istifadə edərək ölkələrimizi və xalqlarımızı birləşdirən möhkəm dostluq əlaqələrini alqışlamaqdan məmnunluğumuzu ifadə edir, bu əlaqələrin birgə maraqlar naminə daha da gücləndirilməsi niyyətində olduğumuzu vurğulayırıq.

Zati-aliləri, Sizə uzun ömür, cansağlığı, dost xalqınıza davamlı inkişaf və rifah diləyirik.

**Ən xoş arzularla,**

***Şeyx Əhməd Abdullah əl-Əhməd əl-SABAH,***
***Küveyt Dövlətinin Baş naziri***

*

**Hörmətli cənab Prezident!**

Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransı və Amerika yəhudi icması adından 28 May – Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimizi çatdırırıq.

Azərbaycan Xalq Cümhuriyyətinin 108-ci ildönümünün qeyd edildiyi bir vaxtda bu tarixi mərhələnin əhəmiyyətini və onun yaratdığı parlamentli idarəetmənin, hüquq bərabərliyinin və inklüzivliyin davamlı irsini dəyərləndiririk. Xüsusilə 1918-ci ildə respublikanın ilk parlamentində yəhudi nümayəndəsinin də yer alması Azərbaycanda uzunmüddətli birgəyaşayış və qarşılıqlı hörmət ənənəsinin sübutudur.

Amerikalı yəhudi liderlərindən ibarət nümayəndə heyətimiz bu ilin fevralında Azərbaycana səfər etmək şərəfinə nail oldu və biz ölkənizi fərqləndirən şəffaflıq, plüralizm və qarşılıqlı hörmət dəyərlərinin şahidi olduq. Azərbaycandan ölkənin uzunmüddətli dini tolerantlıq ənənəsinin, qədim tarixinin və zəngin mədəni irsinin, səfərimiz boyunca gördüyümüz mehribanlığın və qonaqpərvərliyin bizdə yaratdığı dərin təəssüratla qayıtdıq.

Cənab Prezident, bu əlamətdar milli bayram münasibətilə Azərbaycan Respublikasının və onun xalqının davamlı firavanlığı, təhlükəsizliyi və uğurları ilə bağlı ən səmimi arzularımızı qəbul etməyinizi xahiş edirik. Gələcəkdə icmalarımız arasında qarşılıqlı anlaşmanı, dostluq və əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirməyi səbirsizliklə gözləyirik.

**Hörmətlə,**

***Betsi Berns KORN,***
***ABŞ-nin Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının sədri,***

***Uilyam DAROF,***
***Konfransın baş icraçı direktoru***

# Baş nazirin TDT-yə üzv ölkələrin mərkəzi banklarının təmsilçiləri ilə görüşü



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 4-də Bakıda keçirilən Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin mərkəzi bankları Şurasının iclasının iştirakçıları ilə görüşüb.**

Nazirlər Kabinetindən görüşdə Şuranın iclasının əhəmiyyəti vurğulanıb, tədbirin TDT-yə üzv ölkələrin maliyyə sektorları arasında əməkdaşlığın gücləndirilməsinə, bu prosesdə mərkəzi bankların rolunun artırılmasına töhfə verəcəyinə əminlik ifadə olunub.

TDT-yə üzv dövlətlər arasında qarşılıqlı etimada və ortaq maraqlara əsaslanan əməkdaşlığın müxtəlif istiqamətlər üzrə uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub. Cari ildə Azərbaycanın TDT-yə sədrliyi çərçivəsində iqtisadi, ticarət, investisiya, nəqliyyat, enerji, maliyyə, humanitar və digər sahələrdə əlaqələrin daha da genişləndirilməsinə xüsusi diqqət yetirildiyi vurğulanıb.

Azərbaycanda maliyyə-bank sektorunun modernləşdirilməsi məqsədilə həyata keçirilən ardıcıl islahatlar, maliyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması və bank sisteminin sabitliyinin gücləndirilməsi sahəsində əldə olunan nəticələr barədə söhbət açılıb.

Görüşdə, həmçinin TDT çərçivəsində maliyyə-bank sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

**XQ**

# Daxili işlər nazirinin Qazaxda vətəndaş qəbulu, Ağstafada sıra baxışı



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələr üzrə vətəndaş qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 3-də və 4-də Qazax rayonunda növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Qazax rayonunda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Daha sonra Polis Şöbəsinin inzibati binasında Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 211 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov DİN DQ-nin Ağstafa rayonunda yerləşən hərbi hissəsində polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 238 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**XQ**



# XİN xəbər verir




**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İranın xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığı olub.**

Telefon danışığı zamanı Azərbaycan-İran ikitərəfli münasibətlərinin cari vəziyyəti və əməkdaşlıq perspektivləri, habelə regionda mövcud vəziyyət və təhlükəsizlik məsələləri müzakirə olunub.

Nazir Seyid Abbas Əraqçi İran ətrafında aparılan danışıqlar prosesi və son vəziyyətlə bağlı ətraflı məlumat verib.

Nazir Ceyhun Bayramov regional sabitliyin qorunması baxımından diplomatik səylərin əhəmiyyətini vurğulayıb.

Tərəflər, həmçinin ikitərəfli və regional gündəlikdə duran digər məsələlər və son proseslər ətrafında müzakirələr aparıblar.

*

**Həmin gün Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Braziliyanın ölkəmizə yeni təyin olunmuş səfiri Bernard Klinqli ilə görüşüb.**

Görüş zamanı səfir Bernard Klinql etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir səfiri təyinatı münasibətilə təbrik edib, ona Azərbaycandakı diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Tərəflər Azərbaycan ilə Braziliya arasında mövcud dostluq münasibətlərinin və əməkdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər. Siyasi dialoqun intensivləşdirilməsinin, qarşılıqlı səfərlərin və məsləhətləşmələrin ikitərəfli əlaqələrin daha da genişlənməsinə töhfə verdiyi vurğulanıb.

Görüşdə ticarət, investisiya, enerji, kənd təsərrüfatı, turizm, aviasiya, təhsil, mədəniyyət, idman, yüksək texnologiyalar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları nəzərdən keçirilib. Azərbaycan və Braziliya arasında Ticarət və İnvestisiya Əməkdaşlığı üzrə Birgə İşçi Qrupunun fəaliyyəti, iqtisadi əlaqələrin inkişaf etdirilməsi üzrə əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. İki ölkə arasında qanunvericilik bazasının daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

**XQ**

# Azərbaycan heyəti Beynəlxalq Əmək Təşkilatında



**Beynəlxalq Əmək Təşkilatına (BƏT) üzv ölkələrin hökumət nümayəndələri və sosial tərəfdaşların iştirakı ilə Cenevrədə Beynəlxalq Əmək Konfransının 114-cü sessiyası keçirilib.**

Sessiyada çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri, əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev rəqəmsal həllərin genişləndirilməsi, süni intellektdən səmərəli istifadənin ölkəmizin əsas prioritetlərindən olduğunu, bu istiqamətdə görülən işləri qeyd edib. O, Prezident cənab İlham Əliyevin təşəbbüsü əsasında son illər Azərbaycanda həyata keçirilən sosial islahatların uğurlarını, sosial ödənişlərdə, əmək müqavilələrinin sayında ciddi artımları diqqətə çatdırıb. Bildirib ki, ölkəmizdə əmək, məşğulluq və sosial müdafiə sahəsində 150 xidmətin 90 faizdən çoxu rəqəmsallaşdırılıb, 50-dən çoxu proaktiv şəkildə təqdim olunur. "Əmək və Məşğulluq" altsistemi əmək münasibətlərinin vahid rəqəmsal platformasıdır və əmək qanunvericiliyinə əməl olunmasının elektron auditinə də imkan verir. Aktiv əmək müqavilələrinin 97 faizi bu e-sistem üzərində elektron şəkildə bağlanıb.

Nazir DOST konsepsiyasının üstünlükləri və uğurlarını da qeyd edib. O, Azərbaycanın BƏT-in artıq 60 Konvensiyasına qoşulduğunu, Təşkilatın daha 4 Konvensiyasının ölkəmiz tərəfindən ratifikasiya imkanlarının nəzərdən keçirildiyini bildirib. Azərbaycan və BƏT arasında iki Layiqli Əmək Ölkə Proqramı uğurla həyata keçirildiyini deyən Anar Əliyev ötən ilin sonunda növbəti, 2025–2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramının imzalandığını bildirib. O, işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı yenidənqurma və inkişaf işlərini, doğma yurdlarına köçürülən sakinlərin layiqli məskunlaşma, məşğulluq və iqtisadi fəallığının təmin edildiyini vurğulayıb.



Sessiya çərçivəsində nazir BƏT-in Baş direktoru Jilber Hunqbo ilə görüşüb. Görüşdə BƏT ilə Azərbaycan arasında səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulanıb. Anar Əliyev ölkəmizin BƏT-in daha bir Konvensiyasına qoşulmasına dair bildirişi Jilber Hunqboya təqdim edib. Sessiya çərçivəsində nazir Anar Əliyev Türkiyənin əmək və sosial müdafiə naziri Vedat Işıkhanla görüşündə ölkələrimiz arasında münasibətlərin qardaşlıq və strateji müttəfiqlik səviyyəsində olduğu vurğulanıb. Litvanın sosial təminat və əmək naziri Yurate Zaylskyene ilə görüşən nazir ölkələrimiz arasında sosial sahədə əlaqələrin daha da gücləndirilməsi üçün geniş imkanlar olduğunu qeyd edib.

BƏT-in Baş direktorunun köməkçisi və kabinetinin rəhbəri Beate Andres və BƏT-in Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Peter van Roy ilə görüşlərdə ölkəmizin BƏT-lə əməkdaşlığının yeni istiqamətlər üzrə genişləndirilməsi imkanları müzakirə olunub.

**XQ**

# Amritsar hadisələri və transmilli qırğınlar

*Bu, BTQ-nin keçirdiyi beynəlxalq konfransın əsas müzakirə mövzusu idi*




**Bakıda Hindistan hökumətinin etnik azlıqlara qarşı repressiv siyasətinə həsr olunan "İyun 1984, Amritsar hadisələri: Hindistanın etnik azlıqlara qarşı transmilli repressiyaları soyqırımı kontekstində" adlı beynəlxalq konfrans keçirilib.**

Bakı Təşəbbüs Qrupu (BTQ) tərəfindən təşkil edilən tədbirdə Siqh icmasının Kanada, Böyük Britaniya, Niderland, Almaniya, İsveçrə, Avstraliya və ABŞ-də fəaliyyət göstərən nüfuzlu nümayəndələri, eləcə də müxtəlif beyin mərkəzlərinin rəhbərləri, insan hüquqları və etnik azlıqlar üzrə ekspertlər, Hindistan hökumətinin təqib siyasətindən zərər görmüş şəxslər iştirak ediblər. Tədbir çərçivəsində Hindistanın etnik və dini azlıqlara, xüsusilə Siqh və Dalit icmalarına qarşı həyata keçirdiyi transmilli repressiya və sistemli təqib siyasətinin beynəlxalq gündəmdə saxlanılması məsələləri müzakirə olunub. Eyni zamanda, diaspor təşkilatları arasında əməkdaşlığın gücləndirilməsi, transmilli təqiblərə qarşı birgə hüquqi müdafiə mexanizmlərinin formalaşdırılması və beynəlxalq platformalarda koordinasiyalı fəaliyyət istiqamətləri barədə fikir mübadiləsi aparıldı.

BTQ-nin icraçı direktoru Abbas Abbasov bildirib ki, Qrup və Beynəlxalq Siqh Federasiyası son aylarda etnik azlıqların hüquqlarının müdafiəsi, Hindistan hökumətinin transmilli repressiyalarına qarşı mübarizə və beynəlxalq platformalarda hüquq müdafiəsi gündəliyinin təşviqi məsələləri üzrə əməkdaşlığı aktivləşdiriblər: "Birgə iş çərçivəsində Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasının 61-ci sessiyasında məruzə təqdim edilib. Mən əminəm ki, Beynəlxalq Siqh Federasiyası ilə əməkdaşlığımız etnik azlıqların hüquqlarının və bütövlükdə insan hüquqlarının müdafiəsinə mühüm töhfə verəcək".

Kanada Siqh Federasiyasının hüquq məsləhətçisi Virrinq Prabcot Siqh isə 1984-cü ilin iyun və noyabr hadisələrinin təsadüfi olmadığını qeyd edib. Hüquq məsləhətçisinin fikrincə, hadisələri anlamaq üçün Pəncabın 1849-cu ildə Britaniya imperiyasının nəzarəti altına keçməsindən sonrakı dövrə nəzər salmaq vacibdir.

Beynəlxalq Siqh Federasiyasının sədri Moninder Siqh Azərbaycanla beynəlxalq ictimaiyyət üçün əhəmiyyət kəsb edən geniş spektrli məsələlər üzrə əməkdaşlığa hazır olduğunu bildirib: "Biz bu ölkənin xalqı ilə bu gün dünyanı dəyişdirən mühüm qlobal məsələlər üzrə əməkdaşlıq imkanını alqışlayırıq. Dünya sürətlə dəyişir, geosiyasi əlaqələr transformasiya olunur".

Daha sonra Bakı Təşəbbüs Qrupu ilə Beynəlxalq Siqh Federasiyası arasında Anlaşma Memorandumu imzalanıb. Əsas məqsəd tərəflər arasında akademik, tarixi və mədəni tədqiqatlar sahəsində, xüsusilə də tarixi təmaslar və mədəni qarşılıqlı əlaqələr kontekstində əməkdaşlıq platformasının qurulmasıdır. İmzalanan sənəd çərçivəsində regionda, o cümlədən Bakıda və Atəşgah məbədində siqh səyyahlarının, tacirlərinin və dini xadimlərinin mövcudluğuna dair tarixi mənbələrin, elmi materialların və mədəni sübutların birgə araşdırılması nəzərdə tutulur. Razılaşmaya əsasən, hər iki təşkilat Azərbaycanda və xaricdə fəaliyyət göstərən universitetlər, tədqiqat mərkəzləri, arxivlər, muzeylər və mədəniyyət müəssisələri ilə sıx tərəfdaşlıq edəcək. Prosesə tanınmış tədqiqatçılar, tarixçilər, mədəniyyət ekspertləri və akademiklər cəlb olunacaq.

Ümumən, son illər ölkəmiz beynəlxalq münasibətlərdə humanitar diplomatiyanın imkanlarından fəal şəkildə istifadə edir. Mədəniyyətlərarası dialoq, dini tolerantlıq, multikulturalizm və sivilizasiyalararası əməkdaşlıq ölkəmizin beynəlxalq təşəbbüslərinin əsas istiqamətlərindən birinə çevrilib. Sözügedən istiqamətdə təşkil olunan müxtəlif beynəlxalq humanitar tədbirlər və qlobal konfranslar Azərbaycanın bu sahədə qazandığı nüfuzu nümayiş etdirir. BTQ ilə Beynəlxalq Siqh Federasiyası arasında əməkdaşlıq da həmin siyasətin məntiqi davamı kimi qiymətləndirilə bilər. İrəli sürülən təşəbbüslər müxtəlif coğrafiyalarda yaşayan xalqlar arasında ortaq tarixi bağların araşdırılmasına, mədəni yaxınlaşmanın təşviqinə xidmət edir.

Şübhəsiz, humanitar diplomatiyanın əsas məqsədlərindən biri siyasi fikir ayrılıqlarından kənarda insanlar arasında qarşılıqlı anlaşmanı gücləndirməkdir. Tarix və mədəniyyət üzərində qurulan əməkdaşlıq bu məqsədə çatmaq üçün ən təsirli vasitələrdən hesab olunur. Memorandum çərçivəsində həyata keçiriləcək layihələrin Azərbaycanın humanitar diplomatiya sahəsində fəaliyyətinə yeni məzmun qazandıracağı real görünür. Onun nəticələri uzunmüddətli perspektivdə özünü göstərə bilər. Ən vacib məqamlardan biri isə odur ki, təşəbbüs tarixdən istifadə etməklə gələcək əməkdaşlıq üçün yeni imkanlar yaradır.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Anklavlar ətrafında yeni oyun

*İrəvanın Bakının tələbləri qarşısında variant axtarmasının məqsədi nədir?*

**Ermənistanın məzuniyyətdə olan baş naziri, "Mülki müqavilə" partiyasının idarə heyətinin sədri Nikol Paşinyan seçkiqabağı təbliğat-təşviqat kampaniyası çərçivəsində ermənilərin Geqarkunik vilayəti adlandırdıqları Göyçə mahalında çıxışı zamanı Azərbaycanla delimitasiya-demarkasiya prosesi barədə danışıb. "Armenpress"in məlumatına görə, o, xüsusilə Gədəbəy rayonunun inzibati-ərazi bölgüsünə daxil olan Başkənd (ermənilər onu "Artsvaşen" adlandırırlar) kəndi ilə bağlı məsələdən bəhs edib. Deyib ki, bu məsələnin həlli variantlarından biri ərazi mübadiləsi ola bilər.**

Onun sözlərinə görə, Ermənistan tərəfi üçün bu mövzu artıq gərginlik mənbəyi deyil: "Məsələnin həlli yollarından biri mübadilə ola bilər. Prinsip bundan ibarətdir: Ermənistan və Azərbaycan delimitasiya prosesindən bir-birinə zərbə vurmaq üçün istifadə etmək istəyirlər, yoxsa məsələləri elə həll etmək niyyətindədirlər ki, nə bizim, nə də onların övladları gələcəkdə bu problemlərlə üzləşsinlər? Bizim borcumuz övladlarımıza artıq mövcud olan və kadastr sənədi ilə təsdiqlənmiş bir ölkə miras qoymaqdır. Qalır həmin kadastr sənədindəki xəritə və sərhəd cizgilərini yekunlaşdırmaq və bu sənədlə təsbit edilmiş dövləti nəsildən-nəslə ötürmək".



Qeyd edək ki, Paşinyan bununla son vaxtlarda ikinci dəfə Başkənd məsələsinə toxunub. Aprelin 30-da hökumətin iclasından sonra keçirilən ənənəvi brifinq zamanı jurnalistlərin suallarını cavablandırarkən Xankəndidə işğal dövründə qanunsuz inşa edilmiş kafedral kilsənin sökülməsi məsələsinə toxunarkən belə bir uğursuz müqayisə aparmışdı: "Artsvaşen Ermənistan Respublikasının suveren (?) ərazisidir. Gəlin, bu vəziyyəti təsəvvür edək: Artsvaşen delimitasiya nəticəsində Ermənistanın nəzarətinə qaytarılanda, biz gəlib görürük ki, 2016-cı ildə orada məscid tikilib. Bizim reaksiyamız necə olacaq? Biz nə etməliyik? Məsələn, bu əraziyə mülkiyyət sənədlərini təqdim edən və onun öz ərazisi olduğunu iddia edən Ermənistan Respublikasının vətəndaşları var".

Paşinyanın məlum açıqlamasından bir gün öncə – aprelin 29-da Ağverəndə Ermənistan və Azərbaycanın delimitasiya və demarkasiya komissiyalarının görüşü keçirilmişdi. Baş nazirin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Ermənistana getmiş və tərəflər sərhəd məsələlərini müzakirə etmişdilər. Bu, bir neçə ay əvvəl Ermənistan komissiyasının Qəbələyə səfərindən sonra keçirilən cavab görüşü idi.

*

Paşinyanın digər fikirləri kimi bu açıqlaması da erməni cəmiyyətindəki radkial-revanşist tör-töküntülərin narazılığına səbəb olub. Siyasi şərhçi Akop Badalyan yazır ki, Başkənd nümunəsinin daha dərin konteksti də var. O, Ermənistan–Azərbaycan görüşündən dərhal sonra səsləndirilib: "Başkəndin qaytarılması Ermənistanın Azərbaycana məxsus və rəsmi bəyanatlardan göründüyü kimi, İrəvanın artıq Bakının müəyyən hüquqlarını faktiki olaraq tanıdığı anklavları (erməni ekspert hazırda işğal altında olan Azərbaycana məxsus 4 kəndin – Qazaxın Sofulu, Barxudarlı, Yuxarı Əskipara və Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Kərki kəndini nəzərdə tutur–S.H.) qaytarmasını nəzərdə tutur. Başkəndin Ermənistana qaytarılması yalnız həmin Azərbaycan anklavlarının verilməsi müqabilində mümkündür. Məhz burada bu nümunənin gizli mənası üzə çıxır; cəmiyyətin bu mövzuya hazırlanması cəhdi kimi. Əslində, söhbət delimitasiya və demarkasiya gündəmində anklavlar məsələsinin dayanmasından gedir. Bu isə o deməkdir ki, Azərbaycan öz şərtlərinə nail olub 4 anklavı əldə edərsə, Ermənistanın bütün kommunikasiya sisteminə strateji üstünlük qazana bilər. Başkəndlə müqayisədə həmin ərazilərin strateji əhəmiyyəti müqayisəolunmaz dərəcədə böyükdür. Məsələ yalnız coğrafiyada deyil, həm də infrastruktur və qüvvələr balansına potensial təsirdədir".

A.Badalyan qeyd edib ki, Azərbaycan 4 anklavı əldə edərsə, ciddi strateji üstünlük qazanacaq: "Bu baxımdan Paşinyanın Ağverən görüşündən sonra Başkənd nümunəsinə müraciət etməsi təsadüfi görünmür. Bir neçə gün əvvəl də belə fikir səsləndirilmişdi ki, delimitasiya və demarkasiya prosesi razılaşdırılmış prinsiplər məntiqindən kənarda inkişaf edir və seçkiqabağı dövrdə hakimiyyət üçün ciddi siyasi itkilərə səbəb ola biləcəyi üçün, faktiki olaraq, təxirə salınıb. Buna görə də Başkəndin xatırladılması ictimaiyyət üçün gündəmdə hansı mövzuların olduğunu göstərən siqnal kimi qəbul edilməlidir. Azərbaycan bu məsələlərdə maraqlı olduğunu dəfələrlə bəyan edib və bunun səbəbi aydındır – söhbət Ermənistanın bütün infrastrukturuna, o cümlədən demoqrafik müstəvidə ciddi strateji üstünlük əldə etməkdən gedir".

Göründüyü kimi, Paşinyanın son vaxtlarda ikinci dəfə anklavlar məsələsini yenidən gündəmə gətirməsi Ermənistanda ciddi müzakirələrə səbəb olub. Onun səsləndirdiyi ərazi mübadiləsi ideyasının erməni siyasi dairələrinin bir hissəsidə narahatlıqla qarşılanması isə səbəbsiz deyil. Ermənistan cəmiyyətində artıq yaxşı başa düşülür ki, sərhədlərin hüquqi əsaslarla müəyyənləşdirilməsi prosesi gec-tez bütün mübahisəli məsələlərin həllini tələb edəcək. Badalyan kimi ekspertlərin narahatlığı da məhz buradan qaynaqlanır. O hesab edir ki, Azərbaycanın işğal altında qalan anklav kəndlərinin qaytarılması Ermənistana qarşı strateji üstünlük yaradacaq. Lakin burada diqqətdən kənarda qalan mühüm bir məqam var. Söhbət hər hansı yeni ərazi əldə etməkdən və ya əlavə üstünlük qazanmaqdan deyil, beynəlxalq hüquq baxımından Azərbaycana məxsus olan ərazilərin geri qaytarılmasından gedir. Azərbaycanın mövqeyi də məhz buna əsaslanır.

Erməni ekspertlərin tez-tez vurğuladıqları strateji üstünlük arqumenti, əslində, məsələnin mahiyyətini dəyişmir. Əgər hansısa ərazi Azərbaycana məxsusdursa, onun geri qaytarılması gələcəkdə hansı nəticələr doğura biləcəyindən asılı olmayaraq hüquqi baxımdan müzakirə mövzusu olmamalıdır. Əks yanaşma ortaya qoymaq o deməkdir ki, sərhədlər hüquqa görə deyil, tərəflərdən hansının daha çox üstünlük əldə etməsi prinsipi ilə müəyyənləşdirilməlidir. Paşinyanın Başkəndlə bağlı mübadilə təklifini yenidən gündəmə gətirməsinin səbəblərindən biri də məhz bu reallıqla bağlıdır. Ermənistan rəhbərliyi anlayır ki, Kərki və Qazaxın işğal altında qalan kəndləri sadəcə xəritə üzərindəki, necə deyərlər, nöqtələr deyil. Onların yerləşdiyi coğrafi mövqe nəqliyyat yolları, kommunikasiya xətləri və regional əlaqələr baxımından xüsusi əhəmiyyət daşıyır. Buna görə də İrəvan həmin mövzunu birbaşa qaydada deyil, müxtəlif variantlar və mübadilə təklifləri ilə gündəmdə saxlamağa çalışır.

Diqqətçəkən başqa məqam isə Başkənd məsələsinin son vaxtlar daha tez-tez səsləndirilməsidir. Azərbaycan uzun müddətdir ki, anklavların qaytarılması məsələsini delimitasiya prosesinin tərkib hissəsi kimi dəyərləndirir və onu, necə deyərlər, siyasi sövdələşmə predmetinə çevirmir. Əslində, məsələ kifayət qədər sadədir. Sərhədlərin müəyyənləşdirilməsi prosesi tarixi sənədlər, hüquqi əsaslar və qarşılıqlı razılaşmalar üzərində qurulmalıdır. Burada emosional yanaşmaların və ya gələcəkdə yarana biləcək üstünlüklərlə bağlı qorxuların həlledici rol oynaması mümkün deyil. Bu baxımdan Paşinyanın mübadilə ideyası daha çox Ermənistanın öz maraqlarını qorumaq cəhdi kimi görünür. Çünki belə bir yanaşma İrəvana strateji əhəmiyyət daşıyan bəzi mövqeləri əlində saxlamaq imkanı verə bilər. Lakin bu, Azərbaycanın hüquqi baxımdan əsaslandırdığı mövqeyi dəyişmir. Azərbaycan üçün əsas məsələ işğal altında qalmış ərazilərin qaytarılması və sərhəd məsələlərinin beynəlxalq hüququn tələblərinə uyğun şəkildə həll edilməsidir.

***Səxavət HƏMİD***
***XQ***

# Əfsanə və gerçəklik arasında…

*(əvvəli 1-ci səhifədə)*

Baxın, Ermənistan Parlamentinin spikeri Alen Simonyan bir neçə gün əvvəl ölkə mediasına geniş müsahibəsində orta əsrlərin Avropa tarixindən maraqlı misal gətirmişdi. O demişdi ki, ingilislər və fransızlar əsrlərlə düşmən olublar, çoxsaylı müharibələr aparıblar, amma bu gün onlar iş ortağıdırlar, müttəfiqdirlər və sair. Realllıq budur ki, indi hansısa fransızın Britaniyaya, yaxud hansısa ingilisin Fransaya gedib çətinliklərlə üzləşəcəyini düşünmək mümkün deyil. Yəni vaxtilə qanlı qarşıdurmalar yaşamış iki xalqın bu gün Avropanın siyasi və iqtisadi inteqrasiyasının aparıcı qüvvələri sırasında yer almaları tarixi transformasiyanın mümkünlüyünü göstərən mühüm nümunədir.

A.Simonyan yuxarıda diqqətə çatdırdığımız fikri jurnalistin, bir növ, təxribatçı mahiyyət daşıyan sualını cavablandırarkən dilə gətirmişdi. Hesab edirik ki, Ermənistanda parlament seçkiləri ilə bağlı ən vacib nüans elə budur: Ermənilər düşmənçilik səhifəsini bağlasınlar, ya açıq saxlasınlar, yaxud düşmənçiliyi davam etdirsinlər?

A.Simonyanın müqayisəsi təsadüfi deyil. O, Ermənistan cəmiyyətinə mesaj verməyə çalışır: tarixdə uzunmüddətli düşmənçiliklərin əməkdaşlıq münasibətlərinə çevrilməsi mümkündür və bunun üçün siyasi iradə tələb olunur. Məhz buna görə də qarşıdan gələn seçkilərin mahiyyəti təkcə hakimiyyət dəyişikliyi və ya parlamentdə yerlərin bölgüsü ilə məhdudlaşmır. Əsas məsələ Ermənistanın gələcəkdə hansı siyasi və ideoloji xətti seçəcəyidir.

Bəli, erməni iqtidarının təmsilçiləri sülhlə bağlı arqumentlərini sıralayırlar. Onlara əks-qüvvələr isə, faktiki olaraq, düşmənçilik və nifaqın davam etdirilməsinin "zəruriliyini" ortaya qoyurlar. Başqa heç bir ciddi məqam yoxdur. Yəni hansısa digər məsələyə münasibətdəki fərqlilik ya istisnadır, ya da məhz vurğuladığımız motivdən qaynaqlanır. Seçki debatlarının məzmununa diqqət yetirdikdə bu mənzərə aydın görünür. Hakimiyyət nümayəndələri sülhün, regional kommunikasiyaların açılmasının və qonşularla münasibətlərin normallaşdırılmasının vacibliyini vurğulayırlar. Müxalif qüvvələri isə daha sərt yanaşmanı müdafiə edir, təhlükəsizlik məsələlərini ön plana çəkərək kompromislərə ehtiyatla yanaşdıqlarını göstərirlər. Beləliklə, siyasi mübarizənin əsas xətti keçmişin düşmənçilik mirası ilə gələcəyin əməkdaşlıq perspektivi arasında formalaşır.



Hər bir seçkidə iqtisadiyyat, sosial siyasət, idarəetmə və digər məsələlər də mühüm rol oynayır. Lakin Ermənistanın hazırkı siyasi reallığında bu mövzuların böyük hissəsi yenə də ölkənin regional siyasətdə tutacağı mövqe ilə sıx bağlıdır. Buna görə də seçkilərin əsas ideoloji məzmununu, əvvəldə də vurğuladığımız kimi, sülh və qarşıdurma arasında seçim kimi qiymətləndirmək mümkündür.

Nəticə etibarilə, Ermənistanda keçiriləcək parlament seçkiləri təkcə yeni siyasi qüvvələrin formalaşması deyil, həm də ölkənin gələcək strateji istiqamətinin müəyyənləşdirilməsi baxımından əhəmiyyət daşıyır. Seçicilər, faktiki olaraq, bir suala cavab verməli olacaqlar: Ermənistan keçmiş qarşıdurmaların təsiri altında qalacaq, yoxsa regionda yeni əməkdaşlıq və sülh mərhələsinə keçid etməyə çalışacaq? Bu sualın cavabı yalnız ölkənin daxili siyasi həyatını deyil, bütövlükdə, Cənubi Qafqazın gələcəyini müəyyənləşdirə bilər. Ən əsası isə sualın cavabı Ermənistanın bir dövlət kimi Cənubi Qafqaz coğrafiyasında mövculuğu ilə birbaşa əlaqəlidir. Prezident İlham Əliyev, ümumən, Azərbaycan rəsmiləri 2020-ci ilin 44 günlük müharibəsindən və 2023-cü ilin lokal xarakterli antiterror tədbirlərindən sonra bildirmişdilər ki, regionda tamamilə yeni mərhələ açılıb. Bu, heç də adi deyim deyildi.

Əslində, regionda yeni mərhələ 1994-cü ildə başlanmışdı. Həmin ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın timsalında Cənubi Qafqaz dünyaya böyük açılım etmişdi. Beynəlxalq aləm məhz ölkəmizin sayəsində regiona qədəm qoymuşdu. Ermənistan uzun illər işğalçı siyasət yürütməklə, düşmənçilik fazasını qorumaqla, özünü inkişafdan təcrid duruma salmış, eyni zamanda, Cənubi Qafqazın tam tərəqqisini əngəlləmişdi. Ona görə əngəlləmişdi ki, ölkənin başında dayanan qüvvələr mahiyyət etibarilə xəyanət yolunu seçmişdilər.

Xəyanət həm də xaricdəki havadarların, özlərini ermənilərə şirin satanların buyruq quluna çevrilmək idi. 2020-ci ilin 44 günlük müharibəsi də, 2023-cü ilin lokal xarakterli antiterror tədbirləri də göstərdi ki, həmin havadarların heç bir gerçək mahiyyət daşımayan təəssübkeşlik amplualarıı çürüyüb. Hər iki hadisə onu da göstərdi ki, havadarların ermənilər üçün uydurduqları yaşam hekayə və mifdən başqa bir şey deyil.

Bəli, 2 gün sonra Ermənistan və erməni xalqı mif və reallıq arasında seçim edəcək. Reallıq tərəfdarı Baş nazir Nikol Paşinyan iqtidarı, mif və hekayə carçıları isə hakim komandaya qarşı çıxan müxalif kəsimdir. O kəsim ki, ölkəni yenidən keçmişə qaytarmaqda israrlıdır. O keçmişə ki, onda, obrazlı desək, hərəkətdə olan qatarın çarxına çomaq salmaq mahiyyəti dayanır. O keçmiş ki, onun ən böyük tapıntısı vəlvələdən, yaxud zəlzələdən Ermənistan adlı dövlətdir. O dövlət ki, onun regionda ixtilaflar yaratmaq üçün formalaşdırıldığı məlumdur.

Ötən 6 ildə yaşananlar, ən başlıcası, Azərbaycan dövlətinin qətiyyəti göstərdi ki, "erməni kartı" ilə regionda oyunlar qurmaq, siyasi mövcudluq saxlamaq cəhdləri mənasız və puçdur. Hazırda Ermənistan və erməni xalqı məhz bunu görməlidir. Görməlidir ki, onun əyninə biçilmiş düşmən ampluası zərər, acı və məhrumiyyətlər gətirdi. Erməni xalqı bir az da düşünüb bu ampluanın 6 il əvvəl olduğu kimi, yenə də məhvə aparacağını duymağı bacarmalıdır. Bacarmalı və seçkidə düzgün seçim etməlidir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Qafqaz və Anadoludan keçən Avrasiya marşrutu

## *Bakı–Tbilisi–Qars dəmir yolu 3 ölkənin dostluq və inkişaf arteriyası olacaq*






**Azərbaycan, Gürcüstan və Türkiyə arasında uzun illər formalaşmış üçtərəfli əməkdaşlıq Şərq və Qərbin qlobal geoiqtisadi platformasına çevrilib. Son 30 ildə bu 3 qonşu ölkə arasında ən yüksək səviyyədə qurulan siyasi və iqtisadi koordinasiya, nümayiş etdirilən iradə nəticəsində həyata keçirilən irimiqyaslı enerji və nəqliyyat layihələri, bütövlükdə Avrasiya qitəsinin logistika xəritəsinin yenidən formalaşdırıb. Bu çoxşaxəli əməkdaşlığın reallığa çevirdiyi ən mühüm və qlobal xarakterli nümunələrindən biri, şübhəsiz, Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu xəttidir.**

BTQ hazırda sadəcə texniki və ya iqtisadi infrastruktur layihəsi olmayıb, həm də regionda uzunmüddətli siyasi sabitliyin, təhlükəsizliyin və qarşılıqlı etimadın rəmzidir. Eyni zamanda, bu nəqliyyat arteriyası Asiya və Avropa qitələri arasında iqtisadi inteqrasiyanın dərinləşməsinə, qitələrarası ticarət xərclərinin əhəmiyyətli dərəcədə azalmasına və tədarük zəncirində marşrutların diversifikasiyasına birbaşa xidmət edir. Layihənin inkişafında və logistik imkanlarının genişləndirilməsində ən mühüm tarixi mərhələlərdən biri isə Gürcüstan ərazisində yerləşən Marabda–Kartsaxi marşrutunun və xüsusilə Axalkalaki stansiyasının genişmiqyaslı yenidənqurma işlərindən sonra modernləşdirilmiş hissəsinin rəsmi istifadəyə verilməsidir.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze bu infrastruktur layihəsinin rəsmi açılış mərasimindəki çıxışında bu addımın ölkəsi üçün daşıdığı həyati strateji əhəmiyyəti xüsusi vurğulayıb. Bildirib ki, rəsmi Tbilisi özünün tranzit potensialını maksimum dərəcədə artırmaq və regional bağlantıları inkişaf etdirmək siyasətini bundan sonra da qətiyyətlə davam etdirəcək. Onun qənaətinə görə, Azərbaycan və Türkiyə ilə qurulan çoxşaxəli əməkdaşlıq əlaqələri Gürcüstanın milli iqtisadi inkişaf strategiyasının əsas sütunlarından biridir.

Baş nazir İrakli Kobaxidzenin rəsmi mövqeyinə və hadisələrə geosiyasi baxışına görə, Bakı–Tbilisi–Qars dəmir yolu təkcə üç qonşu ölkə arasında mövcud olan iqtisadi-ticari əlaqələri gücləndirmir, eləcə də Avropa və Asiya arasında ən qısa və etibarlı quru körpü rolunu oynayaraq regionun transmilli sistemində mövqeyini və diplomatik çəkisini strateji səviyyəyə qaldırır. Xüsusilə müasir dövrdə Orta Dəhlizin qlobal logistikada getdikcə daha çox önəm qazandığı və aparıcı qüvvəyə çevrildiyi bir şəraitdə, bu dəmir yolu xəttinin modernləşdirilməsi və ötürücülük qabiliyyətinin illik 5 milyon tona çatdırılmasını vurğulayıb. Qeyd edib ki, BTQ Avrasiya məkanında yükdaşımaların daha sürətli, təhlükəsiz və səmərəli təşkilinə misilsiz imkanlar yaradır. Bu reallıq isə tərəfdaş region ölkələrinin tranzit gəlirlərini bir neçə dəfə artırmaqla yanaşı, onların daxili iqtisadi dayanıqlılığını və qlobal təsirlərə qarşı müqavimətini əhəmiyyətli dərəcədə möhkəmləndirir.

Şübhəsiz ki, BTQ dəmir yolunun geosiyasi əhəmiyyəti qlobal ticarət sistemində və təhlükəsizlik arxitekturasında baş verən köklü dəyişikliklər fonunda özünü daha qabarıq şəkildə büruzə verir. Müasir dövrün reallıqları sübut edir ki, irimiqyaslı nəqliyyat marşrutları artıq, sadəcə kommersiya xarakteri daşımır, onlar dövlətlərin milli və strateji təhlükəsizlik konsepsiyalarının ayrılmaz, fundamental hissəsinə çevrilib. Dünyada cərəyan edən geosiyasi böhranlar şəraitində alternativ, təhlükəsiz və funksional logistik xətlərə malik olan və bu xətlərə nəzarət edən ölkələr beynəlxalq iqtisadi-siyasi proseslərdə hər zaman daha dayanıqlı, müstəqil və təsirli mövqe qazanırlar. Bakı–Tbilisi–Qars layihəsi bu baxımdan Azərbaycan, Gürcüstan və Türkiyənin regional güc mərkəzinə çevrilməsini, onların qlobal qərarların qəbulundakı iştirak payını sürətləndirən ən əsas hərəkətverici infrastruktur layihələrindən biridir.

*

Hazırda Bakı–Tbilisi–Qars dəmir yolu Xəzər dənizindən Qara dənizə, oradan isə birbaşa Avropanın mərkəzi bazarlarına uzanan fasiləsiz, multimodal nəqliyyat zəncirinin ən etibarlı və strateji halqasını təşkil edir. Bu nəqliyyat xətti yalnız ticari malların və konteynerlərin mənzil başına çatdırılmasını təmin etmir, eyni zamanda, region ölkələri arasında iqtisadi-ticari inteqrasiyanın dərinləşməsinə, birgə biznes platformalarının yaradılmasına, iri investisiya qoyuluşlarına və xalqlar arasında humanitar-mədəni əlaqələrin yeni müstəviyə keçməsinə əlverişli şərait yaradır. Orta Dəhlizin ana komponentlərindən və əvəzedilməz sütunlarından biri kimi BTQ Avrasiya qitəsində yeni bir iqtisadi əməkdaşlıq və regional tərəqqi modelinin formalaşmasında mühüm missiya yerinə yetirir.

Beynəlxalq ekspert dairələrinin və strateji araşdırma mərkəzlərinin yekdil rəyinə görə, bu meqalayihənin qazandığı böyük uğuru yalnız quru statistik göstəricilərlə və ya daşınan yüklərin tonajı ilə qiymətləndirmək tam mənzərəni ifadə etmir. Bu layihənin əsl uğuru onun regionda və beynəlxalq arenada yaratdığı uzunmüddətli siyasi-iqtisadi etimad mühitidir.

Məsələyə daha geniş geostrateji prizmadan yanaşan Türkiyənin Qaziantep Universitetinin professoru Ali Fuat Gökçe Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin modernləşdirilərək yenidən tam gücü ilə istifadəyə verilməsini Azərbaycanın uzaqgörənliklə həyata keçirdiyi nəqliyyat, logistika və xarici siyasət strategiyasının böyük uğurlarından biri kimi dəyərləndirir.

Professorun sözlərinə görə, Çin ilə Avropa arasında qitələrarası yükdaşımalarının həcminin durmadan artması, qlobal logistika marşrutlarının təhlükəsizlik baxımından şaxələndirilməsi zərurəti və ənənəvi su yollarında geosiyasi risklərin yüksəlməsi fonunda Orta Dəhlizə tələbat artıb. Bu çərçivədə, Ümid burnu üzərindən həyata keçirilən dəniz daşımalarının uzun zaman aparması və yüksək maliyyə xərcləri tələb etməsi fonunda, BTQ qlobal ticarət və böyük korporasiyalar üçün daha sürətli, təhlükəsiz, iqtisadi baxımdan effektiv və rəqabətqabiliyyətli alternativ kimi ön plana çıxır.

Mövzu ilə bağlı **politoloq Rizvan Hü-**



**seynov** bildirib ki, qlobal ticarət və logistika sistemində baş verən dəyişikliklər Orta Dəhlizin əhəmiyyətini artırır:

"Mövcud geosiyasi şəraitdə Rusiya üzərindən Çindən və Türküstandan Avropaya daşınan yüklər ciddi məhdudiyyətlərlə üzləşir. Bunun əsas səbəbi Rusiyaya qarşı tətbiq olunan sanksiyalardır. Digər tərəfdən, İran da sanksiyalar altındadır və bölgədə davam edən gərginlik nəqliyyat marşrutlarının sabitliyinə mənfi təsir göstərir. Alternativ marşrut kimi Orta Dəhliz ən etibarlı və perspektivli quru nəqliyyat marşrutlarından birinə çevrilir".

Beləliklə, Bakı–Tbilisi–Qars dəmir yolu xətti bu gün Azərbaycan, Gürcüstan və Türkiyə arasında strateji tərəfdaşlığın, sağlam qonşuluq münasibətlərinin və ortaq inkişaf modelinin ən uğurlu nümunəsidir. Layihə sübut edir ki, qarşılıqlı hörmətə, etimada əsaslanan əməkdaşlıq yalnız region dövlətlərinə deyil, bütövlükdə, Avrasiya məkanına fayda verə bilər.

BTQ-nin uğuru bir daha göstərir ki, Azərbaycan, Gürcüstan və Türkiyənin yaratdığı əməkdaşlıq modeli gələcəkdə də yeni layihələrin, yeni iqtisadi imkanların və yeni strateji təşəbbüslərin əsasını təşkil edəcək. Bu gün BTQ ilə hərəkət edən qatarlar təkcə yük daşımır, onlar üç ölkənin dostluq, tərəfdaşlıq və birgə inkişaf iradəsini də daşıyaraq Avrasiyanın gələcəyinə doğru yol alırlar.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycanın rəqəmsal suverenlik strategiyası

## *Kiberhücumların qarşısının alınması milli sabitliyin tələbidir*

**İyunun 4-də Bakı şəhərində Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası tərəfindən və Dövlət Təhlükəsizliyi Xidmətinin Milli Kibertəhlükəsizlik Mərkəzinin əsas tərəfdaşlığı çərçivəsində 4-cü Milli Kibertəhlükəsizlik Forumu öz işinə başlayıb. Forumun məqsədi respublikada milli kibertəhlükəsizlik ekosisteminin inkişafına töhfə vermək, dövlət aparatının aidiyyəti qurumları ilə qeyri-dövlət sektoru arasında tərəfdaşlığı möhkəmləndirmək, habelə qlobal miqyasda qəbul edilən qabaqcıl idarəetmə təcrübələrinin, innovativ yanaşmaların paylaşılmasını təşviq etməkdir. Rəqəmsal müstəvidə yaranan təhdidlərin dövlətlərin suverenliyinə göstərdiyi təsir prizmasından yanaşdıqda, mövcud tədbirin siyasi analizi milli təhlükəsizlik doktrinasının ayrılmaz tərkib hissəsini təşkil edir.**




Kiberhücumlar informasiya manipulyasiyaları və rəqəmsal kəşfiyyat əməliyyatları asimmetrik müharibənin təməl alətləri hesab edilir. Qlobal güc mərkəzləri arasındakı qarşıdurmalar mütəmadi olaraq kritik infrastrukturların rəqəmsal idarəetmə mərkəzlərinə yönəlir. Həmin reallıq fonunda Azərbaycanın milli informasiya infrastrukturunun kənar təsirlərdən mühafizə olunması və beynəlxalq standartlara cavab verən ekosistemin qurulması strateji zərurət qismində çıxış edir. Forum çərçivəsində kibertəhlükəsizlik sahəsində tanınmış beynəlxalq ekspertlərin, qlobal informasiya texnologiyaları korporasiyalarının rəhbər nümayəndələrinin iştirakı ölkənin qlobal rəqəmsal siyasət arxitekturasındakı yerini möhkəmləndirmək niyyətini nümayiş etdirir.

Süni intellekt mexanizmlərinin dövlət idarəçiliyinə inteqrasiyası ənənəvi siyasi qərarların qəbulu prinsiplərini əsaslı şəkildə dəyişdirib. Avtomatlaşdırılmış kiberhücumlar vasitəsilə ictimai rəyin manipulyasiya edilməsi, seçki proseslərinə müdaxilə cəhdləri, eləcə də dövlət sirlərinin ələ keçirilməsi riskləri müasir siyasi elmlərin əsas tədqiqat obyektlərindəndir. Tədbirdə regional əməkdaşlıq imkanlarının və kibermüdafiə sahəsindəki müasir yanaşmaların müzakirəyə çıxarılması rəsmi Bakının beynəlxalq təhlükəsizliyin qorunması prosesinə rəqəmsal müstəvidə də aktiv şəkildə qoşulduğunu təsdiqləyir.

"Milli Kibertəhlükəsizlik Ekosistemi" mövzusunda təşkil olunacaq sessiya çərçivəsində ölkənin əsas kibertəhlükəsizlik altqurumlarının rəhbər şəxslərinin çıxışları proqrama daxil edilib. Ekosistemin formalaşdırılması anlayışı siyasi leksikonda çoxsaylı subyektlərin – dövlət strukturlarının, tədqiqat mərkəzlərinin, müstəqil analitik institutların və texnoloji korporasiyaların vahid ideologiya ətrafında cəmləşməsini ehtiva edir. Qurumlararası koordinasiya milli qüdrətin təzahürü sayılmaqla bərabər, böhran vəziyyətlərində idarəetmənin iflic olmasının qarşısını alır.

Sessiyada beynəlxalq vendorlarla əlaqələrin rəsmiləşdirilməsi istiqamətində növbəti addımların atılması, habelə qlobal miqyasda böyük nüfuza malik "Huawei" şirkətinin nümayəndəsinə Məşvərət Şurasının sertifikatının təqdim edilməsi diplomatiyanın rəqəmsal qolunun inkişafını nümayiş etdirir. Beynəlxalq texnoloji nəhənglərlə əməkdaşlıq yalnız avadanlıq təminatı ilə bitmir, həm də dövlətlərarası etimadın, strateji tərəfdaşlığın səviyyəsini səciyyələndirir. Qərb və Şərq mənşəli texnologiya şirkətləri ilə bərabərhüquqlu işgüzar münasibətlərin qurulması tərəflərin maraqlar balansını qorumağa kömək edir.

Forum iştirakçılarının xüsusi sərgi zonası vasitəsilə yeni texnoloji avadanlıqlarla tanışlıq imkanı qazanması müstəsna əhəmiyyətə malikdir. Sərgidə yerli və beynəlxalq şirkətlərin innovativ məhsullarının nümayiş etdirilməsi milli kiber potensialın gücləndirilməsi siyasətinin məntiqi davamıdır. Asılılıq dərəcəsini azaltmaq istəyən hər dövlət, ilk növbədə, kadr potensialına diqqət ayırmalıdır. Təqdim olunan startap həlləri milli təhlükəsizliyə xidmət edən strateji alətlərdir. Texnoloji yeniliklərin mənimsənilməsi kəşfiyyat və əks-kəşfiyyat əməliyyatlarında məlumatların analiz sürətini artırır, qərarların qəbulunda obyektivliyi təmin edir. Daxili mənbələrə əsaslanan texnoloji bazanın yaradılması milli müstəqilliyin zəmanəti qismində dəyərləndirilir. Beləliklə, innovasiya amili qlobal arenada dövlətin rəqabət qabiliyyətini və siyasi çəkisini artıran vacib komponentə çevrilir.

*

Müasir dünya nizamında informasiya müharibəsi anlayışı ənənəvi hərbi doktrinaları üstələməyə başlayıb. İnformasiya məkanında aparılan mübarizələr, kütləvi şüurun manipulyasiyası, dövlət institutlarına olan etimadın azaldılması kimi hədəflərə xidmət edir. Bu səbəbdən kibertəhlükəsizlik platformasında aparılan müzakirələr aktuallıq kəsb edir. Rəqəmsal müstəvidə fəaliyyət göstərən düşmən qüvvələrin əsas məqsədi vətəndaşların siyasi iradəsini idarə etmək, daxili vəziyyəti sabitsizləşdirməkdir. Məsələnin analizi göstərir ki, mühafizə olunmayan rəqəmsal ekosistem istənilən an kənar qüvvələrin alətinə çevrilmək təhlükəsi yaşayır. Mövcud vəziyyət fonunda dövlət qurumları ilə qeyri-dövlət strukturunun sıx əməkdaşlığı önəm daşıyır. Milli maraqların müdafiəsi yalnız sərhədlərdə dayanmır, həm də optik-lifli kabellərin, peyk rabitə şəbəkələrinin və verilənlər bazalarının tam təhlükəsizliyini tələb edir.

Strateji hədəflərin ancaq elmi, texnoloji, institusional resursların səfərbərliyi ilə həyata keçdiyi inkarolunmaz həqiqətdir. Beynəlxalq təcrübələrin və uğurlu praktiki nümunələrin paylaşılması bilavasitə kiber-diplomatiyanın aktivləşdirilməsi deməkdir. Mütəxəssislərin regional əməkdaşlıq çərçivəsində müştərək toplanması ümumi məqsədlərə xidmət edən hibrid müdafiə zolaqlarının yaranmasına töhfə verir. Hökumətlərarası rabitə kanallarının kiber cinayətkarlardan qorunması məqsədilə xüsusi protokol mexanizmlərinin tətbiqi, dövlət sirlərinin sarsılmazlığını qarantiyaya alır. Forumda alınan hər qərar, yaranan hər yeni tərəfdaşlıq gələcək onilliklərin siyasi arxitekturasında güclü mövqe tutmaq istəyini təcəssüm etdirir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

### *Ekspert rəyi*

**Li VEY,**
**kibertəhlükəsizlik, rəqəmsal transformasiya və süni intellekt sahələri üzrə ekspert**

Son illər Azərbaycan rəqəmsal transformasiya, elektron hökumət xidmətləri və informasiya texnologiyalarının tətbiqi istiqamətində əhəmiyyətli nailiyyətlər əldə edib. Bu inkişaf ölkənin iqtisadi potensialını gücləndirməklə yanaşı, yeni kibertəhlükəsizlik çağırışlarını da gündəmə gətirir. Müasir dünyada kibertəhlükəsizlik artıq yalnız İT mütəxəssislərinin məsuliyyət sahəsi deyil. Enerji infrastrukturu, bank sektoru, nəqliyyat sistemləri, dövlət qurumları və vətəndaşların şəxsi məlumatları kiberhücumların əsas hədəflərinə çevrilib. Rəqəmsallaşma səviyyəsi yüksəldikcə, məlumatların qorunması, kritik infrastrukturun müdafiəsi və kibercinayətkarlığa qarşı mübarizə daha da vacib olur.

Azərbaycanın bu istiqamətdə beynəlxalq əməkdaşlığa xüsusi diqqət ayırması təqdirəlayiqdir. Çin və Azərbaycan arasında texnologiya, innovasiya və rəqəmsal inkişaf sahələrində əməkdaşlıq üçün geniş imkanlar mövcuddur. Süni intellekt, bulud texnologiyaları, böyük verilənlərin idarə olunması və kibermüdafiə sistemləri gələcək əməkdaşlığın əsas istiqamətlərindən biri ola bilər.

Bu forumun ən böyük üstünlüyü dövlət qurumlarını, özəl sektoru və beynəlxalq ekspertləri vahid platformada bir araya gətirməsidir. Hesab edirəm ki, Azərbaycanın kibertəhlükəsizlik sahəsində həyata keçirdiyi təşəbbüslər region üçün nümunə ola bilər. Milli Kibertəhlükəsizlik Forumu isə bilik mübadiləsinin genişlənməsinə, yeni tərəfdaşlıqların qurulmasına və daha təhlükəsiz rəqəmsal gələcəyin formalaşdırılmasına mühüm töhfə verəcək.

# Rusiyasız Ermənistan: siyasi şantajın miskinlik payı

## *Niyə belə olmamalı idi?..*

**Rusiyada anti-Ermənistan isterikası davam edir. Əslində, buna isterika da demək olmur. Sanki, ölkənin ictimai rəyi Ermənistan uğrunda savaşa çıxıb. Kreml təmsilçilərinin bəyanatları isə savaş od-alovunu daha da körükləyir. Aydın duyulan bir məqam var. Bu məqamı sonda diqqətə çatdıracağıq.**

Bəli, Ermənistan uzun illər Rusiyanın Cənubi Qafqazdakı forpostu olub. Erməni liderləri Moskvanın xeyir-duası ilə hakimiyyətə gəliblər. Təxminən, 30 ilə yaxın müddətdə həmin liderlər, az qala, ayaqyoluna gedəndə də Rusiyadan icazə alıblar. Görünür, bu durum ikinciyə çox ləzzət edib, həzz yaşadıb.

Ermənistan Rusiyanın Cənubi Qafqazdakı ənənəvi jandarm ampluasının qorunmasını təmin edib. O amplua ki, rus ictimai rəyi ölkənin regiona bağlılığını göstərmək üçün bundan yaxşı heç nə düşünə bilməyib. Düşüncəsizlik şəraiti arxayınlıq yaradıb. O qədər arxayınlıq yaradıb ki, Rusiyada qərbpərəst Nikol Paşinyanın 2018-ci ildə hakimiyyətə necə yiyələndiyinin fərqinə varan, prosesin qarşısını almağa çalışan tapılmayıb...

Hətta Paşinyan hakimiyyətə gəldikdən sonra Rusiyada elə hesab ediblər ki, Ermənistanda kimin iqtidara gəlməsindən asılı olmayaraq, necə deyərlər, bütün yollar Moskvaya aparacaq. Ola bilər, Nikol və tərəfdarları da nə zamansa buna ümid bəsləyib və düşünüblər ki, hər cür oyunbazlıq çıxarsalar da, sonda Rusiya onlara dəstəyini əsirgəməyəcək, daha doğrusu, "boğulmağa" qoymayacaq.

Dəstəkdən söz düşmüşkən, Rusiya 2019-cu ildə Paşinyanın "Qarabağ Ermənistandır nöqtə" bəyanatına susmuşdu. Yəni ölkədə kimsə deməmişdi ki, bu cür fikirlər həmin vaxtadək aparılan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlar prosesinə ziddir. Yəqin Moskvada düşünmüşdülər ki, Nikol istədiyini edə bilər. Tam mümkündür.

Ermənistan 2020-ci ildə 44 günlük müharibədə acınacaqlı məğlubiyyətə uğradı. Rəsmi İrəvan bu məğlubiyyətə görə Rusiyanı qınadı. Qınaq tərəfinin cavabı isə bu oldu: savaşda Ermənistana hər cür dəstək göstərildi, ancaq hərbi əməliyyatların gedişi ölkəni məğlub hala saldı. Təxminən belə: biz sizin üçün hər şeyi etdik, bacarmadınız. Hətta Rusiyada "gəlib sizin yerinizə döyüşməli deyildik" kimi fikirlər də səsləndi.

2023-cü ilin lokal xarakterli antiterror tədbirləri ilə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra Ermənistanda növbəti anti-Rusiya ittihamları baş qaldırdı. Rəsmi İrəvan təmsilçiləri Qarabağ itkisinə görə Moskvanı qınadılar. Moskvanın cavabı isə bu oldu: siz Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımışdınız, bizdən nə istəyirdiniz?

Belə çıxdı ki, Paşinyanın 2019-cu ildə Xankəndidə "Qarabağ Ermənistandır nöqtə" bəyanatından sonra Rusiyanın susmasında məntiq var imiş. Deməli, məntiq həm də rəsmi Moskvanın 44 günlük müharibədə Ermənistana hər cür dəstəyin göstərildiyini etiraf etməsinə, qüvvələr nisbətinin bərabərliyini bildirməsinə görə var. Yəni bütün daşlar yerinə oturur. Sadaladıqlarımız isə Rusiyanın Cənubi Qafqaz



barəsində söz açdığımız ənənəvi jandarm missiyasının uğursuzluğunun göstəricisidir. Axı güc özündən kortəbii istifadəni sevmir. Güc rasional düşüncəyə əsaslandıqda keçərlidir. Hesab edirik ki, hazırkı erməni iqtidarı durumun fərqindədir. Həm də ona görə fərqindədir ki, ötən müddətdə Azərbaycan oyun qaydalarına sadiqlik nümayiş etdirdi.

İndi Ermənistan rəhbərliyi Azərbaycan dövlətinin səmimiyyətinə inanır və ona görə tam şəkildə ölkənin təhlükəsizliyinə heç bir təhdidin olmadığını vurğulayıb əminlik yaradır. Ermənistanda hakimiyyətə gəlməyə çalışan qüvvələr isə əksini söyləyirlər. Onlar Rusiyanı nicat yolu kimi görürlər. Məgər, Paşinyan iqtidarı əvvəl belə düşünməmişdi? Düşünmüşdü, amma vurğuladıq ki, bir qədər fərqli.

Əlqərəz, Rusiya–Ermənistan münasibətləri baxımından yuxarıda diqqətə çatdırdığımız qarşılıqlı ittihamların artıq əhəmiyyəti yoxdur. Bu ittihamlar, bir növ, tarixə çevrilib. Rusiyadakı anti-Ermənistan isterikasının əsas mövzusuna gəlincə, bu, Ermənistanın Moskvanın patronajlığı altında olan Avrasiya İqtisadi İttifaqında (AİI) qala-qala Avropa İttifaqına (Aİ) üzvlüyünün mümkünsüzlüyü ilə bağlıdır.

Başlıca məqam Ermənistandakı parlament seçkilərinə sayılı günlərin qaldığı bir vaxtda məhz bu isterikanın güclənməsidir. Sanki Rusiyada kimlərsə Rusiyasız Ermənistanın mövcudsuzluğu ritorikasının təbliği ilə erməni seçicilərinə təsir göstərməyə çalışır. Savaş od-alovunu körükləmək elə budur.

Əlbəttə, institutsional baxımdan Aİ və AİI bir-birindən fərqlidir. Ancaq erməni hakim komandası vurğulayır ki, ölkə ikincidə qala-qala birinciyə üzvlüyə can ata bilər, seçim anı yetişəndə müvafiq qərar veriləcək. Loru dildə desək, Rusiyanın çörəyini yeyə-yeyə Avropaya üz tutulacaq. Kremlin və ona yaxın dairələrin səbir kasasını daşıran da bu yanaşmadır. Axı belə bir dünya yoxdur.

Bəli, belə bir dünya yoxdur. Ancaq Rusiyanın 30 ilə yaxın Ermənistanı buxovladığı, haqqında söz açdığımız forpost duruma saldığı dünya da olmamalıdır. Ancaq ümumən, həmin dünyaya qayıdış cəhdlərinin elementlərini görürük. Paşinyan iqtidarına qarşı çıxan və parlament seçkilərində hakim komandanı siyasi səhnədən uzaqlaşdıracağını bəyan edən qüvvələr məhz həmin elementlərdir. O elementlər ki, ortaya mənfur "Qarabağ kartı" və "Artsax" bağırtısı ilə atılıblar.

Deməli, parlament seçkilərinə hazırlaşan Ermənistanın daxilində "Qarabağ kartı" və "Artsax" bağırtısı ucalıq, ölkə xaricində isə Rusiyasız Ermənistanın mövcudluğunu qeyri-mümkünlüyü rəyi formalaşdırılır. Tam aydındır ki, Moskvada anti-Ermənistan isterikasındakı şantaj motivi bağırtı qoparanlara dəstəkdir. Yəni yenə də dəstək.

Əslində, Rusiyanın iki – 2020 və 2023-cü illərdəki "dəstəyinin" səmərəsizliyini əvvəldə vurğuladıq. O "dəstəklər" ki, mahiyyətcə, Cənubi Qafqazda münaqişə məntiqinin saxlanılmasına xidmət edirdi. O məntiq ki, Rusiyanın regional siyasət baxımından hansısa proqressiv siyasət xətt yürütmək imkanının məhdudluğunu göstərir. Halbuki belə olmamalı idi. O boyda Rusiyanın ictimai rəyinin təmsilçilərinin əl boyda Ermənistanı şantaj üçün, bir növ, növbəyə düzülmələri də həmçinin. Çünki ortada miskin mənzərə var. Miskinlik isə hər gün daha tünd çalarlar əldə edir. Bizə isə təəssüflənmək qalır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Keniyalı qonaqlar Konstitusiya Məhkəməsində



**Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev ölkəmizdə səfərdə olan Keniya Ali Məhkəməsinin sədri Marta Koomenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Fərhad Abdullayev Azərbaycan və Keniya arasında əlaqələrin son illər dinamik şəkildə inkişafının məmnunluq doğurduğunu bildirib. Sədr may ayında Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin Keniya Prezidenti Uillyam Samoei Ruto ilə görüşünün ölkələrimiz arasında bir sıra sahələrdə əməkdaşlığın inkişafı və qarşılıqlı etimadın göstəricisi olduğunu xüsusilə vurğulayıb. Daha sonra o, Konstitusiya Məhkəməsinin fəaliyyəti və qərar qəbuletmə proseduru, həmçinin məhkəmənin bir sıra hüquqi mövqeləri barədə ətraflı məlumat verib.

Marta Koome qeyd edib ki, məhkəmə-hüquq sahəsində təcrübə mübadiləsinin aparılması, xüsusilə Azərbaycanın məhkəmə proseslərinin rəqəmsallaşdırılması prosesi ilə tanışlıq maraqlıdır.

Görüş zamanı məhkəmə-hüquq sahəsində ikitərəfli əlaqələrin inkişaf perspektivləri müzakirə edilib.

***XQ***

# AHİK rəhbərliyi BƏT konfransında



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov Beynəlxalq Əmək Konfransının 114-cü sessiyasında çıxış edib.**

O bildirib ki, əmək hüquqlarının qorunması, əməyin mühafizəsi və layiqli əmək şəraitinin təmin edilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas prioritet istiqamətlərindəndir.

Konfederasiya sədri qeyd edib ki, sözügedən prioritetlər həmkarlar ittifaqlarının fəaliyyət istiqamətləri ilə tam uzlaşır. O, AHİK-in əmək münasibətlərinin tənzimlənməsi, işçilərin sosial-iqtisadi hüquqlarının müdafiəsi və sosial tərəfdaşlığın inkişafı sahəsində həyata keçirdiyi fəaliyyət barədə iştirakçılara ətraflı məlumat verib.

Sahib Məmmədov qeyd edib ki, Konfederasiya Azərbaycan ilə BƏT arasında imzalanmış "2025–2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı"nın icrasında fəal iştirak edir və əmək hüquqlarının müdafiəsi, sosial dialoqun inkişafı və layiqli əməyin təşviqi istiqamətində həyata keçirilən tədbirlərə töhfə verir.

O, sosial dialoqun inkişafı, Sosial-İqtisadi Məsələlər üzrə Milli Üçtərəfli Komissiya çərçivəsində əməkdaşlığın genişləndirilməsi, BƏT-in 187 saylı Konvensiyasının ratifikasiyası, eləcə də əmək qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində görülən işlər barədə də məlumat verib.

***Q.YUSİFOĞLU***
***XQ***

# Dünya ermənilərin mina terroruna göz yummasaydı...

## *5 il bundan əvvəl 2 həmkarımız "yeraltı qatil"in qurbanı oldu*

**XXI əsrdə mina terroru ilə məşğul olan ölkələrə qarşı ciddi siyasi təzyiqlərin olmaması narahatlıq doğurur. İkinci Qarabağ müharibəsindən 6 ilə yaxın vaxt keçməsinə baxmayaraq, Azərbaycan işğalçı Ermənistanın mina terrorunun – məkrli "hərbi taktika"sının altını çəkir. Ötən müddətdə Qarabağda, Şərqi Zəngəzurda 400-dən çox mülki vətəndaşımız yeraltı müharibənin qurbanı olub. Dünyada ərazisi minalarla ən çox çirkləndirilmiş ölkələrdən biri sayılan Azərbaycan işqaldan azad etdiyi torpaqların hər qarışının "yeraltı qatillərdən" təmizlənməsinə böyük vəsait xərcləyir. Amma təəssüf ki, minalar can almaqda davam edir.**



Ermənilərin mina terrorunun qurbanlarından ikisi bizim həmkarımızdır. 5 il bundan əvvəl işqaldan azad edilmiş ərazimizdə peşə borcunu yerinə yetirərkən AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov, AZTV-nin operatoru Sirac Abışov "yeraltı qatilin" qurbanı oldular. Vətən müharibəsi başa çatdıqdan sonra işğaldan azad olunmuş ərazilərdə çəkiliş həyata keçirən jurnalistləri aparan avtobus 2021-ci il iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində tank əleyhinə minaya düşdü. Məhərrəm və Siracdan başqa, Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati dairəsi üzrə nümayəndəsinin müavini Arif Ağalar oğlu Əliyev də həlak oldu, dörd nəfər isə yaralandı.

Bu, Məhərrəmin düşmən işğalından azad edilmiş, zəfər bayrağının dalğalandığı torpaqlarımıza birinci xidməti səfəri deyildi. O, hərbi reportyor kimi Qarabağ və Şərqi Zəngəzurun əksər bölgələrini kənd-kənd, küçə-küçə gəzərək, həmin ərazilərdə erməni vandallarının törətdikləri vəhşilikləri əks etdirən sənədli reportajlar hazırlayırdı. Məhərrəm kimi, Vətənə sevgisi ilə seçilən Sirac da doğma Qubadlı rayonundan dəfələrlə aktual çəkilişlər aparmış, efirə yaddaqalan süjetlər təqdim etmişdi. Birinci Qarabağ müharibəsində ailəsi ilə birlikdə Qubadlıdan ayrı düşən, məcburi köçkünlük taleyini yaşayan Siracı hərbi operator olmağa sövq edən onun içində gəzdirdiyi məhz yurd həsrəti olub.

Təəssüf ki, bu gün də erməni nasistlərinin torpaqlarımızın altına düzdüyü minalardan zərər çəkənlər var. Yəni "görünməyən düşmən" xaincəsinə can almaqda davam edir. Bunun əsas səbəbi vaxtilə dünyanın, beynəlxalq təşkilatların işğalçı Ermənistanın, hətta müharibə qanunları ilə bir araya sığmayan əməllərinə göz yummasıdır. Əgər Ermənistanın qarşısında 1997-ci ildə yaradılmış BMT-nin Ottava Konvensiyasının tələblərinə riayət olunması şərti qoyulsaydı, Azərbaycan müharibədən sonrakı mərhələdə bu qədər itkilərə məruz qalmazdı. Nə yazıq ki, özlərini "böyük güclər" adlandıran ölkələrin heç biri hələ də bu konvensiyaya qoşulmayıb.

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 4-də işğaldan azad olunan ərazilərdə vəzifə borcunu yerinə yetirmiş Abışov Sirac Abış oğlu, Əliyev Arif Ağalar oğlu və İbrahimov Məhərrəm Əli oğlunu "3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edib.

Bu gün həmkarlarımızın tarixə çevrilən videosüjetlərinə baxanlar, eləcə də gələcək nəsil necə bir məkrli düşmənlə üz-üzə gəldiyimizi əyani şəkildə görəcək və heç vaxt unutmayacaqlar. Erməni vandalizminin qurbanı olmuş həmkarlarımızın xatirəsini dərin ehtiramla yad edir, onlara Tanrıdan rəhmət diləyirik.

***XQ***

# IV Milli Kibertəhlükəsizlik Forumu




**Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) təşkilatçılığı və Dövlət Təhlükəsizliyi Xidmətinin Milli Kibertəhlükəsizlik Mərkəzinin əsas tərəfdaşlığı ilə iyunun 4-də Bakıda IV Milli Kibertəhlükəsizlik Forumu uğurla keçirilib.**

Açılış mərasimində Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının icraçı direktoru Rauf Cabarov çıxış edərək, ölkədə kibertəhlükəsizlik ekosisteminin inkişafı, dövlət və özəl sektor arasında əməkdaşlığın genişləndirilməsi, insan kapitalının formalaşdırılması və beynəlxalq tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən fəaliyyətlər barədə məlumat verib. Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Saməddin Əsədov, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisinin müavini Allahverən İsmayılov, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiyaya qarşı mübarizə komitəsinin sədri Arzu Nağıyev və Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti Rasim Əliquliyev kibertəhlükəsizliyin milli təhlükəsizliyin mühüm tərkib hissəsi kimi strateji əhəmiyyətini vurğulayıblar.

"Milli Kibertəhlükəsizlik Ekosistemi" adlı ilk sessiyada Dövlət Təhlükəsizliyi Xidmətinin Milli Kibertəhlükəsizlik Mərkəzinin rəisi Davud Rüstəmov, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Baş idarə rəisinin müavini Tural Məmmədov, Moldova Kibertəhlükəsizlik Agentliyinin direktoru Mihai Lupaşcu və "Huawei Technologies" şirkətinin Yaxın Şərq və Mərkəzi Asiya regionu üzrə baş kibertəhlükəsizlik və məxfilik direktoru Corey Deng çıxış edərək, milli kibertəhlükəsizlik strategiyaları, kritik infrastrukturun qorunması, kibercinayətkarlıqla mübarizə və beynəlxalq təcrübələr haqqında təqdimatlar ediblər.

Forum "Regional təcrübə və əməkdaşlıq" və "Rəqəmsal transformasiyada kiberçağırışlar" sessiyaları ilə davam edib.

***XQ***

*Vəli AXUNDOV – 110*

# Görkəmli dövlət xadimi, milli səhiyyə təşkilatçısı, nüfuzlu tibb alimi

**Görkəmli dövlət xadimi, milli səhiyyə təşkilatçısı, akademik Vəli Axundovun anadan olmasının 110 illiyi ölkəmizdə xalqa ali səviyyədə xidmət nümunəsi kimi qədirbilənliklə qeyd edilir.**

Ümummilli lider Heydər Əliyev ondan əvvəl 10 il Azərbaycana rəhbərlik etmiş Vəli Axundovun dövlətçiliyimiz və xalqımız qarşısında xidmətlərinə həmişə layiqincə qiymət vermişdir. 1996-cı ildə isə Ulu öndər öz sələfinin 80 illik yubileyinin ölkə miqyasında qeyd edilməsi barədə sərəncam imzalamış, təntənəli mərasimdə geniş nitq söyləmişdir.

Vəli Axundovun uzun illər rəhbərlik etdiyi elm ocağına onun adı verilmişdir. Prezidentimiz İlham Əliyev də Vəli Axundovun xatirəsinə həmişə böyük hörmət və ehtiram bəsləyir.

Vəli Yusif oğlu Axundov 1916-cı il may ayının 14-də Bakının Saray kəndində anadan olmuşdur. O, Saray kənd orta məktəbindəki ilk təhsilini 1929-cu ildə Biləcəri stansiyasındakı fabrik-zavod məktəbində davam etdirmişdir. 1931-ci ildə sənət məktəbini bitirən gənc Bakı Sənaye Texnikumuna daxil olmuşdur. Kimyaçı-texnik peşəsinə yiyələnmiş Vəli Axundov 1937-ci ildə ali təhsil almaq üçün Azərbaycan Tibb İnstitutuna daxil olmuşdur. O, təhsil almaqla yanaşı, Azərbaycan Tibb İnstitutunun ictimai elmlər kafedrasının laborantı, "Tibbi kadrlar uğrunda" qəzetin redaktoru və komsomol komitəsinin katibi vəzifələrində çalışmışdır.

Bütün bunlar onu ali təhsilli tibb kadrı olmaqla yanaşı, gələcək ictimai-siyasi fəaliyyətə də hazırlamışdır. 1941-ci ildə institutu bitirərən Vəli Axundov Almaniyanın SSRİ-yə hücumu ilə başlayan müharibədə həkimlik fəaliyyətini ordu hospitallarında davam etdirmişdir. Gənc cərrahı tezliklə 20-ci atıcı diviziyanın tərkibində tibbi-sanitar batalyonun komandiri təyin etmişlər. O, Rusiyada, Belarusiyada, Çexoslovakiyada, Almaniyada gedən döyüşlərdə iştirak etmiş, dəfələrlə təltif olunmuşdur.

1946-cı ildə ordudan tərxis olunduqdan sonra Vəli Axundov Azərbaycan Tibb İnstitutunda tibb tarixi kafedrasına assistent vəzifəsinə qəbul edilmişdir. Həmin il onu Azərbaycan Tibb İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri seçmişlər. O, gənc olmasına baxmayaraq, bu məsul vəzifədə uğurla çalışmışdır. Yüksək təşkilatçılıq qabiliyyətini nəzərə alaraq 1949-cu ildə Vəli Axundovu Azərbaycan SSR səhiyyə nazirinin müavini, 1952-ci ildə isə Bakı Vilayət Səhiyyə Şöbəsinin müdiri təyin etmişlər. 1953-cü ildə qısa müddətdə Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun direktor əvəzi işlədikdən sonra Azərbaycan KP MK-da inzibati, ticarət-maliyyə və plan orqanları şöbəsinin müdir müavini vəzifəsinə irəli çəkilmişdir.

Tükənməz enerji ilə məsul vəzifələrin öhdəsindən bacarıqla gələn Vəli Axundov 1954-cü ildə Azərbaycan SSR səhiyyə naziri təyin edilmiş və 1958-ci ilə kimi bu vəzifədə çalışmışdır. 1958-ci ilin fevral ayında Azərbaycan KP MK katibi seçilmiş, iyul ayında isə Azərbaycan SSR Nazirlər Sovetinin sədri təyin edilmişdir. 1959-cu ildə 43 yaşlı hökumət başçısı respublikanın ali rəhbəri olan Azərbaycan KP MK-nın 1-ci katibi seçilir. Bu vəzifədə 10 il Azərbaycana rəhbərlik etmiş Vəli Axundov 1969-cu ildə Azərbaycan SSR Elmlər Akademiyasının akademiki seçilmiş və 1969-cu ildən 1972-ci ilə kimi akademiyanın vitse-prezidenti olmuşdur.

Vəli Axundov 1972-ci ildən ömrünün sonuna – 1986-cı il avqust ayının 22-nə kimi Q.Musabəyov adına Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun direktoru olmuşdur. O, SSRİ Ali Sovetinin (6-7-ci çağırış), Azərbaycan SSR Ali Sovetinin (4-7-ci çağırış) deputatı olmuşdur.

Vəli Axundov 1955-ci ildə Gəncə şəhərinin sanitar-epidemioloji xarakteristikası mövzusunda namizədlik, 1964-cü ildə isə Bakı şəhərinin neft rayonlarının



sanitar-epidemioloji durumu mövzusunda doktorluq dissertasiyaları müdafiə etmiş, 1966-cı ildə professor elmi adı almışdır. O, 300-dən artıq elmi məqalə, 6 monoqrafiya, 11 elmi-kütləvi kitabçanın müəllifi olmuşdur. Alimin rəhbərliyi altında 4 doktorluq, 5 namizədlik dissertasiyası müdafiə olunmuşdur.

Vəli Axundovun gigiyena sahəsindəki elmi nailiyyətləri yüksək dəyəri ilə seçilmiş, apardığı tədqiqatlar SSRİ-nin bir çox respublikalarında tətbiq olunmuşdur. Doktorluq dissertasiyasındakı praktik təkliflər neft emalı sənayesində xüsusi əhəmiyyət kəsb etmişdir. O, gigiyenik-epidemioloji tədqiqatların aparılması üçün kibernetika laboratoriyası təşkil etmişdir. İnstitutun əməkdaşlarının ingilis dili öyrənmələri üçün xüsusi kurslar təşkil etdirmiş və beynəlxalq konfranslar keçirilmişdir. Alimin xidmətlərindən biri də institutun əlavə binasının tikilməsi olmuşdur.

O zaman Vəli Axundovun təşəbbüsü ilə institutda həftənin 5-ci günləri işçilərə bədii filmlər göstərilirdi. Hər ilin sonunda institutda ölkə və Ümumittifaq miqyaslı konfranslar keçirilirdi. Vəli Axundov SSRİ Tibb Elmləri Akademiyasında gigiyena üzrə problem komissiyasının, Ümumittifaq Elmi Tibbi-Texniki İdarənin, Beynəlxalq Tibbi Assosiyasının, Sovet Milli Komitəsinin üzvü olmuşdur. Alim uzun illər Azərbaycan gigiyenistlərinin və sanitar həkimlərinin elmi praktik cəmiyyətinin sədri kimi fəaliyyət göstərmişdir.

Vəli müəllimin ömür yolu nəinki gənc həkimlərə, bütün gənclərə örnəkdir.

Dünyaya bir dəfə gələn insan öz əqidəsi, əməli, əməyi, həyat tərzi, insanlara münasibəti və əxlaqi dəyərləri ilə özünü təsdiqləyir. Vəli Axundov da xeyirxahlığı, şərəfli əməyi, insanlara olan hörməti, ləyaqəti, səxavəti, kişiliyi ilə fərqlənən, xalqına, vətəninə sevgisi, qohum-əqrəbasına, dostlarına olan məhəbbəti ilə yadda qalan, xalqının, vətəninin yolunda əlindən gələni əsirgəməyərək şəxsiyyətlərdən biri olmuşdur.

Onunla ilk tanışlığım 1976-cı ilin sentyabr ayında olmuşdur. Epidemiologiya kafedrası onun direktor olduğu institutun 1-ci mərtəbəsində yerləşirdi. İnstitutda əmək intizamına ciddi riayət olunurdu. Heç kim boş-boşuna dəhlizdə gəzə bilməzdi. Əməkdaşlar üçün dəhlizin bir kənarında tenis stolu qoyulmuşdu. Fasilədə və işdən sonra kim istəyirdi oynayırdı. Qədirbilən insan olduğu üçün institutda xüsusi guşələrdə görkəmli alimlərin portretləri asılmışdı. İşçilərə elmin yeni nailiyyətləri haqqında daim məlumatlar verilirdi.

Bütün mərtəbələr gül-çiçəklə bəzədilmişdi. İnstitutun yeməkxanası səliqə-səhmanı və yeməklərin keyfiyyəti ilə fərqlənirdi. Binaya daxil olduqda ilk baxışdan buranın rəhbərinin böyük zövq sahibi olduğu hiss edilirdi.

İşimlə əlaqədar olaraq institutun laboratoriyalarından istifadə etmək üçün ondan icazə almalı idim. İşin axırı olduğu üçün katibə səhəri gün gəlməyimi məsləhət gördü. Mən aşağı düşərkən katibə "geriyə qayıdın, Vəli müəllim sizi gözləyir" – dedi. Mən içəri daxil olub epidemiologiya kafedrasının assistenti olduğumu və elmi işimlə əlaqədar laboratoruyada işləmək istədiyimi söylədim. O məni ətraflı dinlədikdən sonra dərhal laboratoriyanın müdirini yanına çağırtdırıb orada işləməyimə icazə verdiyini bildirdi.

Sonra mənimlə yarım saat söhbət etdi və müəllimim, Əməkdar elm xadimi, professor Tağı Tağızadənin gözəl insan, böyük alim, çox böyük təşkilatçı olduğunu söylədi. Bu böyük şəxsiyyətin öz elmi işçisinə siz deyərək müraciət etməsi məni heyrətləndirdi. Sonda nə çətinliyin olsa yanıma gəl dedi. Sonralar mənim onunla yaxınlığım daha da artdı, poeziya vurğunu olmağım xoşuna gəlmişdi. Onu dinlədikcə, insanın qəlbinə bir rahatlıq gələrdi, həzin səsi, güclü məntiqi adamı heyran edərdi.

XX əsrdə Azərbaycanın qeyrətli rəhbərlərindən biri olmuş Vəli Axundov elə bir zirvə idi ki, insanlıq səviyyəsi də daşıdığı vəzifələrə bərabər yüksəklikdə dururdu. O, tarixi şəxsiyyət olduğunu xalqına və Vətəninə çoxillik xidmətləri ilə təsdiqləmişdi.

***İbadulla AĞAYEV,***
***Azərbaycan Tibb Universiteti epidemiologiya və biostatistika kafedrasının müdiri, professor***

# WUF13: şəhərsalma və memarlıq ənənəsi kontekstində

**IV MƏQALƏ**

## Azad Qarabağın yenidən qurulması

Qarabağın Azərbaycanın öz gücü ilə azad edilməsi tarixi olaydır. Bu barədə indi çox yazılır. Əlbəttə, buna şübhə yoxdur. Lakin Qarabağda quruculuq işlərinin xarakteri, mahiyyəti və strateji hədəfləri COP və WUF kimi qlobal xarakterli tədbirlərin Azərbaycanda keçirilməsini şərtləndirən mühüm faktorlardır.

İndi Qarabağda müasir şəhərsalma və memarlıq nümunələrindən olan "ağıllı kənd", "Ağıllı şəhər", rəqəmsal idarəetmənin müxtəlif növləri, dayanıqlı sosial-iqtisadi, təhlükəsiz inkişafın yeni elementləri və digər dəyərlər çox geniş tətbiq edilir.

Qısa müddətdə Qarabağ və Şərqi Zəngəzurda ənənə ilə müasir memarlığın mükəmməl vəhdəti olan beynəlxalq hava limanları salınmışdır. Yeni tikililər şəhərsalmanın vüsəti rəmzi olmaqla yanaşı, Azərbaycanın memarlıq ənənəsi ilə müasir memarlığın ən yaxşı cəhətlərini özündə ehtiva edən dinamik məkana çevrildiyinin nümunəsidir.

Bu anlamda WUF13 kontekstində Qarabağın yenidən qurulması başqa dəyərlərlə yanaşı, Azərbaycanda şəhərsalma və memarlıq mədəniyyətinin dünya miqyasında uğurlu təqdimatıdır. WUF13 prizmasında bu tezisi təsdiq edən digər konkret faktlara baxaq. Burada "Münaqişədən sonra şəhərsalma: Məhv edilmiş kimliyin bərpası və inteqrasiya olunmuş gələcəyin yenidən qurulması" mövzusunda keçirilmiş tədbiri xüsusi vurğulamaq gərəkdir. Çünki həmin tədbirin məzmun və məqsədində Qarabağda yenidənqurmanın fəlsəfəsi ilə praktiki reallaşma tərəfləri arasındakı fəlsəfi, sosial və mədəniyyət bağlantıları yığcam şəkildə ifadəsini tapmışdır. Onun üç aspekti üzərində dayanmaq faydalı olardı.

## Münaqişədən sonra şəhərsalma

Qarabağda münaqişədən sonra şəhərsalma təcrübəsi Azərbaycanın dünya üçün faydalı olan qiymətli siyasi, diplomatik, sosial və mədəni çalarlı təcrübələrindən biridir. Bunun WUF13-də rəsmi olaraq dünyaya təqdimatı isə ayrıca Azərbaycan rəhbərliyinin siyasi-diplomatik və müstəqil dövlət quruculuğu məharətinin göstəricilərindəndir. Çünki Bakı faktiki olaraq əyani şəkildə Qarabağda yenidənqurmanın fəlsəfəsini ortaya qoymuşdur. Burada ilk diqqəti cəlb edən fikir "münaqişədən sonra şəhərsalma" ifadəsində ehtiva olunmuşdur.

Doğrudan da, uzun sürən, infrastrukturu tamamilə dağıdılmış ərazidə müasir kriteriyalara uyğun şəhərsalma həyata keçirmək necə mümkün ola bilər? Azərbaycan bunu bacardı və dünya indi Qarabağda inşa edilən "ağıllı kənd", "ağıllı şəhər" və digər nümunələri təhlil edir, həmin təcrübədən nəticələr çıxarırlar. Şuşa, Xankəndi, Ağdərə, Ağdam, Xocalı və digər rayonlarda aparılan bərpa və yenidənqurma işlərinin urbanizasiya kontekstində özəllikləri diqqət çəkir. Məhz həmin aspektdə bərpa və yenidənqurma işləri, infrastruktur layihələri, əhalinin doğma yurdlarına qayıdışı və regionun inteqrasiya olunmuş inkişafı məsələləri vahid sistemin bir-biri ilə sıx əlaqəsi olan tərkib hissələri təsiri bağışlayır.

Onun əsas əlamətlərindən biri bərpa və yenidənqurmanın sosial, mənəvi, əxlaqi, təhlükəsizliyin təmini aspektlərinin vəhdətdə olmasıdır. Yəni şəhər, qəsəbə və ya kəndin "ağıllı" olması əlamətlərindən biri də ora qayıdan insanların sosial, psixoloji, məşğuliyyət və təhlükəsizliyin təmini məsələlərinin qarşılıqlı əlaqədə həllini ehtiva edir. Sessiyada Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikasının Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubovun və Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimovun çıxışlarında bu məqamı görmək mümkün idi.

Vurğulanan istiqamətdə tədbirdə daha çox işğaldan azad edilmiş ərazilərdə şəhər kimliyinin qorunması, tarixi abidələrin bərpası və dayanıqlı inkişaf məsələlərinin müzakirə edilməsi tamamilə başadüşüləndir.

Ümumilikdə, "şəhər kimliyinin qorunması"nın sosial, demoqrafik və urbanik aspektləri bütün dünya dövlətləri üçün çox aktualdır. Azərbaycan təcrübəsi həmin keyfiyyətin məhz münaqişədən sonra şəhərsalma işlərində praktiki olaraq necə həyata keçirilməsi nümunəsini WUF13 çərçivəsində nümayiş etdirmişdir.

Məsələ onunla bağlıdır ki, Qarabağda şəhərlər tam anlamında yenidən tikilmir – onlar əsrlərlə Azərbaycan ərazisində mövcud olmuş və artıq özünəxas urbanik, demoqrafik, sosial, psixoloji dinamikaya malik passionar birgəyaşam məkanlarıdır. Məsələn, kim deyə bilər ki, Şuşa, Ağdam, Xankəndi, Laçın və ya Kəlbəcər özünəməxsus urbanik ənənəyə malik deyillər? Əksinə, Qarabağın coğrafiyası, infrastrukturu və onun şəhərləşmə tarixinin möhtəşəm dəyərləri haqqında sonsuza qədər danışmaq mümkündür.

Ancaq vəziyyəti mürəkkəbləşdirən erməni vandalizminin təqribən 30 il həmin yerləri məhv etmələridir. Deməli, Azərbaycan ikiqat şəhərsalma və memarlıq mədəniyyəti nümayiş etdirməli idi – birincisi, vəhşilərin dağıtdıqları Azərbaycan şəhərsalma və memarlıq izlərini bərpa etmək lazım idi, ikincisi, onları ən müasir şəhərsalma və memarlıq nümunələri ilə vəhdət halına gətirmək gərəkdi. Bizcə, dünya Azərbaycanın bu nadir sivil təcrübəsindən hələ uzun illər bəhs edəcəkdir!

Bu müddəalardan iki mühüm faktora maraqlı keçid etmək olar.

## Məhv edilmiş kimliyin bərpası

WUF13 kontekstində baxanda burada "kimlik" yalnız fərdi etnopsixoloji və fiziki anlamla məhdudlaşmır. O, Azərbaycan xalqının və dövlətinin əsrlərin sınağından keçərək bu günə gəlib çatan sosial-mədəni, siyasi, iqtisadi və dövləti təkamülünün birbaşa nəticəsidir. Buna görə də kollektiv miqyasda "kimlik" fərdi, toplumsal və dövləti identikliyin sintezini özündə ehtiva edir. İşğal müddətində azərbaycanlıya fiziki təcavüz bu kimliyin məhvinə yönəlmişdir. Eyni dərəcədə həmin işğalçılıq Azərbaycan cəmiyyətinin kollektiv identikliyinin hər bir aspektinin məhvinə yönəlmişdi. Çünki onu təşkil edənlərin başlıca hədəfi, ümumiyyətlə, Cənubi Qafqazda Azərbaycan (türk) dövlətçiliyini məhv edib, yerində qondarma "qədim erməni dövlətçiliyi" mifi yaratsınlar.

İndi Azərbaycan həmin məhv edilmiş kimliyin bərpasını WUF13 səviyyəsində gündəmə gətirib, bütün dünyaya onun əbədi olduğunu sübut edirsə, bu, Azərbaycan Prezidentinin müasir müstəqil dövlətçiliyə verdiyi əvəzsiz töhfələrdən biridir. Bu mənada bərpa edilən hər şəhərimiz, ucaldılan abidəmiz, "ağıllı" məskunlaşma məkanlarımız, mədəni tədbirlərimiz, əhəmiyyətli beynəlxalq tədbirlərimiz (Şuşa, Xankəndi, Ağdam, Laçın tədbirləri) geniş anlamda kimliyin incə rəmzləridir. Azərbaycanlılar kimliklərini intellektləri, Vətənə bağlılıqları, hüquqa sayğıları ilə bərpa edirlər və yeniləşdirirlər.

Bunlara görə onlar inteqrasiya olunmuş gələcəklərinə doğru inamla gedirlər. WUF13-ün hörmətli iştirakçıları bu qətiyyəti, əzmi, sivilliyi və mənəvi hərəkatı gördü, duydu və heyrətləndi. KİV-ə baxsanız bunu əyani görə bilərisiniz!

## İnteqrasiya olunmuş gələcək

Özlüyündə müasir cəmiyyətlər üçün fundamental bir məsələdir. Çünki sürətlə dəyişən və müxtəlif tərəflərdən neqativ təsirlərə məruz qalan toplumların birliyi, həmrəyliyi və passionarlığı çox aktuallaşıb. Toplum həm birliyini təmin etməli, həm də beynəlxalq arenada kifayət qədər fəal olmalıdır ki, inklüzivlik və legitimliyini dövlət və kültür identikliyinin atributları kimi qəbul etdirə bilsin.

Ayrıca, Qarabağ nümunəsində Azərbaycan cəmiyyəti çox ağır zərbələr aldı və çətin sınaqlardan keçdi. İndi bizim üçün Qarabağın, Şərqi Zəngəzurun, bütövlükdə Azərbaycan cəmiyyətinə inteqrasiyası həyati əhəmiyyətli məsələdir. Bunun fonunda baş tutacaq inteqrasiya modelinin Azərbaycanın ruhu, nəfəsi, ənənəsi, dili, mədəniyyətinin mövcud olduğu coğrafiyaya təsiri hüdudları və dərinliyini elmi "ölçmək" gərəkdir.

"İnteqrasiya olunmuş gələcək" ifadəsi bunlardan əlavə məna çalarlarına malikdir.




WUF13 həmin bağlılıqda nələri göstərdi? Üç fakta baxaq və onlar arasında semantik bağlantını aydınlaşdıraq.

Birincisi, "Tarixi abidələrin bərpası: Şuşa şəhərində işğal dövründə məhv edilmiş irsin bərpası çərçivəsində təkcə 2026-cı ildə 15 tarixi abidədə konservasiya işlərinin aparılması nəzərdə tutulur".

İkincisi, "Vandalizm izlərinin aradan qaldırılması: İşğal zamanı Xankəndi qəbiristanlığının məhv edilməsi və dini-mədəni izlərin silinməsi kimi vandalizm aktları vurğulanmış və bu ərazilərdə məhv edilmiş kimliyin bərpası üçün kompleks tədbirlərin vacibliyi qeyd olunmuşdur".

Üçüncüsü, "İnteqrasiya və inkişaf: Qarabağ və Şərqi Zəngəzurda şəhərlərin məhv edilmiş infrastrukturunun sıfırdan, müasir standartlara uyğun şəkildə qurulması və inteqrasiya olunmuş gələcəyin formalaşdırılması prosesi sürətlə davam etdirilir".

Tarixi abidələrin bərpası maddi mədəniyyətin və tarixi yaddaşın maddiləşmiş rəmzinin bərpası deməkdir.

Vandalizm izlərinin aradan qaldırılması isə psixologiyada və ictimai şüurda izi qalmış dini-mədəni "yaraların sarınması" deməkdir.

Bu iki aspekt bir yerdə azərbaycanlı psixologiyası və şüurunda dini, mədəni və maddiləşmiş kültür növlərinin neqativ cəhətlərdən "təmizlənərək" ənənədə ciddi yer almış birliyi də nəzərə alaraq ən müasir konsolidasiya (solidarlıq) nümunəsinə istiqamətlənməsini təmin edir. Həmin solidarlığın əyani və konseptual formulu "inkişafı təmin edən inteqrasiya"dır.

Deməli, WUF13 faktiki olaraq Azərbaycanın intellekt, mənəviyyat, mədəniyyət və sivillik aspektlərində sosial-mədəni və psixoloji yeniləşməklə inkişafı təmin edən inteqrativ xarakterli toplum yaratmaq əzminin beynəlxalq arenada təqdimatı sırasındadır.

Burada əlbəttə, xüsusi yeri və aparıcılığı Azərbaycan dövlət başçısının çox məharətli siyasi-diplomatik fəaliyyəti tutur. Prezident İlham Əliyev milli, regional və qlobal miqyaslarda liderliyinin inklüzivliyi və legitimliyini tam sübut etmiş liderdir!

## Qardaşların qardaşlaşan şəhərləri

WUF13-ün Türk Dövlətləri Təşkilatı (TDT) konteksti də çox önəmlidir. "Urban Expo" sərgisində fəaliyyət göstərən Azərbaycan pavilyonunda Türk Dövlətləri Təşkilatının (TDT) Yüksəksəviyyəli Şəhər Dialoqunun təşkili bu baxımdan fövqəladə əhəmiyyətli olaydır. Rəsmi informasiya: "Tədbirdə dayanıqlı şəhərsalma, regional əməkdaşlıq, iqlimədavamlı urbanizasiya və Türk dünyasında şəhər inkişafı istiqamətində həyata keçirilən təşəbbüslər müzakirə olunub. Sessiya çərçivəsində üzv ölkələr arasında şəhər və ərazi planlaşdırılması sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu da imzalanıb.

Sözügedən dialoq zamanı, həmçinin Azərbaycanın Şuşa və Türkiyənin Trabzon şəhərləri arasında qardaşlaşma haqqında memorandum da imzalanıb. Sənədi Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov və Trabzon Böyükşəhər Bələdiyyəsinin başçısı Ahmet Metin Genç imzalayıblar".

Bu, adi qardaşlaşma hadisəsi deyildir – Türk dünyasının ən müasir çağırışlar fonunda addım-addım vahid sosial-mədəni, iqtisadi, mənəvi, psixoloji, əxlaqi, urbanik, memarlıq sferaları üzrə bütövləşməsi və güclü faktora çevrilməsidir.

Nəyin naminə? İnkişafın, sülhün, əməkdaşlığın, təhlükəsizliyin, mədəniyyətin və ədalətin naminə! Biz, kökdən qardaş olanlar bütün dünyanın real qardaşlaşması üçün birləşirik! WUF13 də bunu təsdiq edən tədbirlərdən oldu!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

# bp Xəzərdə neftli layların sirrini açır



**"Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunda tətbiq olunan yeni texnologiyalar hasilat səmərəliliyini artırır. Bu barədə bp-nin Bakı Ekspo Mərkəzində keçirdiyi xüsusi sessiyada media nümayəndələrinə ətraflı məlumat verildi.**

**Şirkətin qazma texnologiyaları üzrə mütəxəssisi Fuad İbrahimov bildirdi ki, üfüqi qazma və geonaviqasiya texnologiyası ilk dəfə 2024-cü ildə uğurla sınaqdan keçirilib və sonradan AÇG üzrə tətbiqi genişləndirilib.**

Üfüqi qazma quyu lüləsinin lay daxilində saxlanılmasını, geonaviqasiya isə ən məhsuldar intervallara yönləndirilməsini təmin edir. Qeyd olundu ki, iki üsulun birgə tətbiqi zamanı bu texnologiyalar layla təmas sahəsini əhəmiyyətli dərəcədə artırır. Bu yanaşma isə indiyədək AÇG üzrə 5 quyuda uğurla tətbiq olunub.

Yeni quyu şaxtalarının əlçatanlığının məhdud olduğu sahə şəraitində dənizdibi yönləndirici paz texnologiyası mexaniki cəhətdən yararsız vəziyyətə düşmüş və ya əvvəllər tərk edilmiş quyu şaxtalarının bərpasına və yenidən istifadəsinə imkan yaradır. Bu günə qədər AÇG üzrə bərpa edilmiş 27 quyu şaxtasının 17-sində bu texnologiyadan istifadə olunub.

Axın tənzimləməli müstəqil qum ekranları isə quyularda etibarlı qum nəzarətini qorumaqla daha sadə açıq lülə tamamlama alternativi kimi tətbiq olunur. Bu yanaşma, həmçinin axın tənzimləyici qurğuların inteqrasiyası lay və maye qeyri-müəyyənliklərinin idarə olunmasında çeviklik yaradır. Bu sistem uzun intervallar boyunca bərabər depressiyanı təmin edir və ekranları qorumaq üçün axını quyu boyunca tənzimləyir.

Bununla yanaşı, son illər AÇG-də tətbiq olunan çoxlüləli quyu texnologiyası ilə bağlı da iştirakçılara ətraflı məlumat verildi. Yeni texnologiya mürəkkəb geoloji şəraitdə qazma çətinliklərini azaltmaqla yanaşı, məhdud quyu şaxtalarından daha səmərəli istifadə imkanı yaradır. Bir quyu lüləsindən bir neçə lay çıxışı yaratmaqla



drenaj səmərəliliyi artırılır və mövcud infrastrukturdan daha əlverişli istifadə təmin edilir. Artıq AÇG-də çoxlüləli quyu texnologiyası uğurla sınaqdan keçirilib. İlk dəfə tətbiq olunmuş bu texnologiya vasitəsilə Xəzərdə birinci çoxlüləli quyu qazılıb.

Fuad İbrahimov əlavə etdi ki, 2025-ci ilin dekabrında ilk dəfə tətbiq olunan bu üsul 1155 metr göstəricisi ilə regionda ən uzun açıq lülə tamamlama əməliyyatı hesab olunur. Bu da AÇG layihəsi üçün olduqca əlamətdar bir nailiyyət sayıla bilər. Növbəti mərhələdə isə bu texnologiyanın üfüqi qazma, geonaviqasiya və "ağıllı" tamamlama sistemləri ilə inteqrasiya olunmuş şəkildə daha geniş tətbiqi nəzərdə tutulur.

**bp-nin çən parkı üzrə mühəndisi Gülüstan Kərimli isə ötən müddətdə "Azəri-Çıraq-Günəşli" layihəsi ilə bağlı əsas fakt və göstəriciləri diqqətə çatdırdı:**

– AÇG yataqlar blokunda indiyədək, ümumilikdə, 400-dən çox quyu qazılıb. Hazırda həmin quyulardan 200-dən çoxu fəal hasilat mərhələsindədir. Müqavilə sahəsinin məhsuldar laylardan ibarət mürəkkəb sistemə malik olduğunu diqqətə çatdıran şirkət mütəxəssisi bildirdi ki, ilkin hasilat Fasilə layından başlansa da, sonrakı mərhələdə Balaxanı layına keçid edilib.

Ötən müddətdə AÇG yataqlar blokunda 7 stasionar dəniz platforması və 3 sualtı suvurma kollektoru inşa edilib. İlkin hasilata isə 1997-ci ilin noyabrında "Çıraq-1" platformasından başlanılıb. 2024-cü ilin aprelində "Azəri-Mərkəzi-Şərqi" platforması istismara verilib. Xəzər dənizinin Azərbaycan sektorunda ən iri neft və qaz yatağı olan AÇG-dən hasilata başlandığı vaxtdan indiyədək 4,6 milyard barreldən çox neft çıxarılıb.

Daha sonra qeyd edildi ki, müqavilə sahəsində lay təzyiqinin sabit saxlanması və neftvermə əmsalının artırılması məqsədilə su və qazın laya vurulması texnologiyası uğurla tətbiq olunur. Bütövlükdə isə, yataqlardan neftvermə əmsalının maksimuma çatdırılması və hasilatın uzunmüddətli davamlılığını təmin etmək üçün qabaqcıl texnologiyalar və innovativ həllər tətbiq olunur. Bu ildən etibarən AÇG yatağında layların neftvermə əmsalının artırılması məqsədilə icrasına başlanılan "BrightWater" və IWAG pilot layihələrinin məqsədi layda qalan əlavə neft ehtiyatlarının hasilata cəlb edilməsidir.

Gülüstan Kərimli bildirdi ki, AÇG yatağının daha yetkin və mürəkkəb işlənmə mərhələsinə keçməsi ilə əlaqədar əsas diqqət hasilatın təbii azalmasının idarə olunmasına və qalan ehtiyatların daha səmərəli istifadəsinə yönəldilir. Bunun üçün şirkət müxtəlif mənbələrdən – seysmik tədqiqatlar, quyular, hasilat göstəriciləri və geoloji modellər daxil olmaqla toplanan böyük həcmli məlumatlardan istifadə edir. Məlumatların emalı yüksək məhsuldarlıqlı hesablama gücü və bulud texnologiyaları vasitəsilə həyata keçirilir. Bundan əlavə, yerli startapla əməkdaşlıq çərçivəsində müxtəlif mənbələrdən gələn məlumatların inteqrasiyasını təmin edən və onların emalını sürətləndirən rəqəmsal alət hazırlanıb. Bu da yatağın idarə olunması və yeni quyuların planlaşdırılması üzrə daha səmərəli qərarların qəbuluna imkan yaradır.

Media-sessiyada yataqlarda süni intellekt əsaslı texnologiyaların tətbiqi sahəsində həyata keçirilən tədbirlər barədə də jurnalistlərə məlumat verildi. Bildirildi ki, süni intellektin köməyilə seysmik təsvirlərin təkmilləşdirilməsinə asanlıqla nail olunur ki, bu da layların xüsusiyyətləri və qalıq neft ehtiyatları barədə dəqiq məlumat əldə etməyə imkan verir. Hazırda bp və SOCAR yerli startap şirkəti ilə süni intellektin seysmik məlumatların emalında tətbiqi və nəticələrinin birgə layihələrdə istifadəsi istiqamətində əməkdaşlıq edirlər.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Azərbaycanın daha bir ilki

## *Ölkəmiz MDB məkanında birinci olaraq süni intellekt əsaslı şəbəkə alyansına qoşulub*

**"Azerconnect Group" şirkəti MDB regionunda ilk dəfə süni intellekt əsaslı yeni nəsil radio şəbəkələrinin inkişafı üzrə alyansa – AI RAN Alyansına qoşulub. NVIDIA, Nokia, Samsung və digər nəhəng şirkətlərin də üzv olduğu qlobal platforma mobil şəbəkə infrastrukturunun süni intellekt texnologiyaları əsasında təkmilləşdirərək daha ağıllı, çevik və səmərəli şəbəkə arxitekturalarının formalaşdırılmasını həyata keçirir.**

Alyansa qoşulmaqla "Azerconnect Group" süni intellekt əsaslı mobil şəbəkə sahəsində qlobal və qabaqcıl texnologiyalara çıxış imkanlarını daha da genişləndirəcək. NVIDIA-nın Qrafik Prosessor Modulu əsaslı radio emalı və süni intellekt dəstəkli RAN alqoritmləri kimi innovativ həllərin tətbiqi şəbəkə dayanıqlılığının və spektr səmərəliliyinin artırılmasına töhfə verəcək. Bu şəbəkələr müxtəlif süni intellekt tətbiqlərinin rahat istifadəsini də təmin edəcək.

Eyni zamanda, "ağıllı" enerji optimallaşdırma həllərinin tətbiqi şəbəkə əməliyyatlarında daha yüksək səmərəliliyin təmin olunmasına və şirkətin dayanıqlılıq hədəflərinin dəstəklənməsinə xidmət edəcək. "Azerconnect Group"un AI-RAN Alyansına üzvlüyü 6G texnologiyalarına hazırlıq strategiyasında mühüm mərhələnin başlanğıcıdır. Platforma çərçivəsində "Azerconnect Group" əməkdaşları beynəlxalq ekspertlərdən ibarət işçi qruplarının birbaşa əməkdaşlıq edəcək, həmçinin müxtəlif texniki sessiya və təcrübə mübadiləsi platformalarında aktiv iştirak edəcəklər.

Xatırladaq ki, AI-RAN Alyansı telekommunikasiya sənayesində Radio Giriş Şəbəkələrinə (RAN) süni intellekt texnologiyalarının inteqrasiyasını sürətləndirmək məqsədilə yaradılmış qlobal əməkdaşlıq platformasıdır. 2024-cü ildə təsis olunan alyans telekommunikasiya ekosisteminin aparıcı iştirakçılarını bir araya gətirərək innovasiyaların təşviqinə, qabaqcıl təcrübələrin formalaşdırılmasına və RAN infrastrukturlarının məhsuldarlığını, əməliyyat səmərəliliyini və çevikliyini artıran yeni nəsil süni intellekt həllərinin inkişafına töhfə verir.

*XQ*

# Dövlət qurumlarının nümayəndələri Bakı Limanında

**Bakı Dəniz Limanında Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti və "Azərbaycan Dəmir Yolları" QSC-nin nümayəndələrinin iştirakı ilə görüş keçirilib.**



Səfər iştirakçılarına limanda gömrük orqanları və sərhəd xidməti ilə birgə fəaliyyət barədə ətraflı məlumat verilib. Əməliyyatların optimallaşdırılması istiqamətində görülmüş işlər, əldə olunmuş nəticələr və gələcək dövr üçün nəzərdə tutulan tədbirlər müzakirə olunub. ADY və Dövlət Gömrük Komitəsi tərəfindən təqdimatlar edilib, mövcud əməkdaşlığın inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Bakı Limanının fəaliyyət göstəriciləri barədə də məlumat verilib. Qeyd olunub ki, 2026-cı ilin yanvar-may aylarında liman vasitəsilə 3 milyon 237 min ton yük aşırılıb. May ayında isə yük dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,6 faiz artaraq 812 min ton təşkil edib. Cari ilin ilk beş ayında liman vasitəsilə 50 min 50 TEU konteyner aşırılıb ki, bu da əvvəlki ilin eyni dövrünün göstəricisini 8,4 faiz üstələyir.

Dövlət qurumlarının nümayəndələrinə Bakı Limanında həyata keçirilən modernləşdirmə işləri barədə də məlumat verilib. Bildirilib ki, sözügedən tədbirlər çərçivəsində ötən ay 7-ci körpü liman tərixində ilk dəfə istismara cəlb edilib, yükqaldırma gücü 125 ton olan yeni nəsil kran istifadəyə verilib.

Tərəflər logistika və nəqliyyat proseslərinin daha da təkmilləşdirilməsi, əməliyyat səmərəliliyinin artırılması və qurumlararası əməkdaşlığın genişləndirilməsi istiqamətində birgə işin davam etdirilməsinin vacibliyini vurğulayıblar. Qeyd olunub ki, əməliyyatların daha da təkmilləşdirilməsi məqsədilə Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti və digər aidiyyəti qurumlarla koordinasiyalı fəaliyyət davam etdirilir.

Birgə tədbirlər nəticəsində yük və nəqliyyat vasitələrinin rəsmiləşdirilməsi və yoxlanılması proseslərinin optimallaşdırılması, xidmət müddətlərinin azaldılması istiqamətində mühüm nəticələr əldə olunub. Rəqəmsal həllərin və süni intellekt əsaslı alətlərin tətbiqi ilə yükaşırma əməliyyatlarının avtomatlaşdırılması və idarəetmə proseslərinin daha da səmərələşdirilməsi istiqamətində də işlər davam etdirilir.

Dövlət qurumlarının təmsilçiləri liman ərazisinə baxış keçirib, infrastrukturla tanış olublar. Həmçinin Bakı Limanında Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi və Dövlət Miqrasiya Xidməti ilə tərəfdaşlıq çərçivəsində ötən il istifadəyə verilmiş Vahid Keçid Mərkəzinin fəaliyyəti ilə tanışlıq olub, mərkəz əməkdaşları ilə söhbət aparılıb, sənədləşmə prosesinin daha rahat və maneəsiz təşkili üçün əlavə tapşırıqlar verilib.

*XQ*

# "Sənaye klasterlərinə keçid"ə təcrübi baxış

**Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM), İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA), Koordinasiya Mərkəzi və Dünya İqtisadi Forumu (DİF) Sumqayıt Sənaye Parkının rezidentləri üçün "Sənaye klasterlərinə keçid" təşəbbüsünə dair işgüzar görüş təşkil edib.**

Tədbir DİF-in "Sənaye klasterlərinə keçid" təşəbbüsü çərçivəsində yaradılmış "NextGen" Sənaye Klasterinin məqsədlərinin müzakirəsi, klaster iştirakçılarının təşəbbüs barədə məlumatlandırılması, eləcə də sənaye müəssisələri arasında dekarbonizasiya, innovasiya və dayanıqlı inkişaf üzrə əməkdaşlığın gücləndirilməsi məqsədi daşıyıb.

Qeyd edək ki, Azərbaycan cari ilin yanvar ayında Davos Forumu çərçivəsində DİF-in "Sənaye klasterlərinə keçid" təşəbbüsünə qoşulub. Bu istiqamətdə 4SİM-in koordinasiyası ilə İZİA, "SOCAR Polymer" və "SOCAR Karbamid" müəssisələrinin əməkdaşlığı əsasında Sumqayıt Sənaye Parkında "NextGen" sənaye klasteri formalaşdırılıb.

DİF-in "Sənaye klasterlərinə keçid" təşəbbüsünün rəhbəri Yurgen Sandstrom və DİF-in ekspertləri qeyd edilən təşəbbüsün üstünlükləri, qlobal təcrübə və klaster idarəetmə modeli barədə təqdimatlar keçirilib. Görüşdə "NextGen" sənaye klasterinin əsas performans göstəriciləri təqdim olunub, klasterin idarəetmə modeli,



gələcək inkişaf istiqamətləri və tərəfdaşlıq imkanları müzakirə edilib. Vörkşopda SOCAR-la yanaşı, Sumqayıt Sənaye Parkının 10-dan çox rezident müəssisəsinin nümayəndələri də iştirak ediblər. DİF nümayəndə heyəti Sumqayıt Sənaye Parkının infrastruktur və istehsal imkanları, eləcə də "SOCAR Karbamid" və "SOCAR Polymer" müəssisələrinin fəaliyyəti ilə tanış olub.

DİF-in "Sənaye klasterlərinə keçid" təşəbbüsü eyni bölgədə yerləşən və dəyər zənciri üzrə əlaqəli müəssisələrin karbonsuzlaşma, rəqəmsal texnologiyaların tətbiqi və dayanıqlı istehsal modeli üzrə koordinasiyalı fəaliyyətini nəzərdə tutur. Təşəbbüsə qoşulmuş 39 klaster qlobal miqyasda 870 milyon ton $CO_2$ ekvivalentinin azaldılmasına, 808 milyard ABŞ dolları həcmində ÜDM töhfəsinə və 6,6 milyon iş yerinin dəstəklənməsinə imkan yaradır ki, bu da təşəbbüsün strateji əhəmiyyətini göstərir.

Sumqayıt Sənaye Parkında yaradılmış "NextGen" sənaye klasteri Azərbaycanın sənaye transformasiyası, yaşıl iqtisadiyyata keçid və beynəlxalq tərəfdaşlıqların genişləndirilməsi baxımından mühüm addım kimi qiymətləndirilir. Cənubi Qafqazın ən böyük sənaye parkı olan Sumqayıt Sənaye Parkı, təxminən, 640 hektar ərazini əhatə edir və kimya, polimer, metallurgiya, maşınqayırma və tikinti materialları sahələrində fəaliyyət göstərən rezident müəssisələri bir araya gətirir.

"SOCAR polymer" və "SOCAR karbamid" parkın əsas rezidentləri sırasında yer alır. Bu günədək parka 5,7 milyard manata yaxın investisiya yatırılıb və parkda 6 mindən artıq iş yeri yaradılıb.

*N.ABDALOV*
*XQ*

# Ağdam Sənaye Parkında tullantıların təkrar emalı

**Ağdam Sənaye Parkında daha bir şirkətə rezidentlik statusu verilib. Bu, tikinti materialları və sənaye istehsalı sahəsində fəaliyyət göstərən, müxtəlif növ plastik boruların istehsalı və satışı ilə məşğul olan "Ceer Plastik" MMC-dir.**

İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına əsasən, yeni rezident sənaye parkında plastik tullantıların təkrar emalı, qofra və yüksək təzyiqə davamlı polietilen boru istehsalı layihəsi həyata keçirəcək. İnvestisiya dəyəri 5 milyon manat olan layihə çərçivəsində şirkət tərəfindən parkın ərazisində plastik tullantıların təkrar emalı, qofra və yüksək təzyiqə davamlı polietilen boru istehsalı layihəsinin həyata keçirilməsi nəzərdə tutulur.

İndiyədək Ağdam Sənaye Parkında 31 sahibkarlıq subyektinə rezidentlik, 5 subyektə isə qeyri-rezidentlik statusu verilib. Sənaye parkında həyata keçirilən layihələr üzrə sahibkarlar tərəfindən bugünədək 172 milyon manatdan çox investisiya qoyulub, 1000-dən artıq iş yeri yaradılıb. Rezidentlərin sayına görə ölkə üzrə 2-ci yerdə qərarlaşan Ağdam Sənaye Parkında istehsal olunan məhsullar yerli tələbata yönəldilməklə yanaşı, ixrac olunur.

Qeyd edək ki, Ağdam Sənaye Parkı Azərbaycan Respublikası Prezidentinin 28 may 2021-ci il tarixli fərmanı ilə yaradılıb. Parkın yaradılmasında məqsəd işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişaf etdirilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkil edilməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır.



*XQ*

# COP29-dan WUF13-ə gələn “yaşıl” yol

## Ölkəmizin çağdaş şəhərləşməyə ekoloji töhfələri

**XXI əsr yeni geosiyasi, iqtisadi və ekoloji reallıqların formalaşdırdığı mürəkkəb transformasiya dövrünü yaşayır. İqlim dəyişiklikləri, enerji təhlükəsizliyi, urbanizasiya proseslərinin sürətlənməsi, miqrasiya axınları və sosial bərabərsizliklər dövlətlər qarşısında yeni çağırışlar yaradır. Bu şəraitdə dünya şəhərləri insanların yaşadığı məkanlar olmaqla bərabər, həm də iqtisadi inkişafın lokomotivi, innovasiyaların mərkəzi, iqlim siyasətinin əsas iştirakçısı və qlobal idarəetmə sisteminin əhəmiyyətli hissəsi kimi çıxış edir.**

Birləşmiş Millətlər Təşkilatının hesablamalarına görə, hazırda dünya əhalisinin, təxminən, 56 faizi şəhərlərdə yaşayır və 2050-ci ilə qədər bu göstəricinin 70 faizə yaxınlaşacağı gözlənilir. Belə halda isə gələcəyin iqtisadiyyatı, sosial rifahı və ekoloji təhlükəsizliyi kimi məsələlər, ilk növbədə, şəhərlərin necə idarə ediləcəyindən asılı olacağı ilə proqnozlaşdırılır. Məhz buna görə də, yeni şəhər gündəliyi (urban) inkişaf məsələləri getdikcə qlobal siyasətin prioritet istiqamətlərindən birinə çevrilir.

### Beynəlxalq etimad kapitalı

Azərbaycan son illərdə beynəlxalq urban gündəliyinin formalaşmasında mühüm rol oynayır. Paytaxt Bakı artıq təkcə Cənubi Qafqazın siyasi və iqtisadi mərkəzi olmaqla yanaşı, həm də qlobal urbanizasiya, dayanıqlı inkişaf və iqlim siyasəti sahəsində beynəlxalq dialoqun aparıcı platformalarından biri kimi diqqət çəkir. Heç də təsadüfi sayılmayan bu yüksəlişin əsasında isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji dövlət siyasəti, uzunmüddətli inkişaf baxışı və beynəlxalq əməkdaşlığa uyğun idarəetmə modeli dayanır.

Azərbaycanın ardıcıl şəkildə qlobal əhəmiyyətli tədbirlərə ev sahibliyi etməsi də ölkəyə beynəlxalq səviyyədə göstərilən yüksək etimadın göstəricisidir. İstər enerji təhlükəsizliyi, istər nəqliyyat-kommunikasiya layihələri, istərsə də humanitar və ekoloji məsələlər üzrə keçirilən beynəlxalq forumlar respublikanın dünya miqyasında nüfuzunun getdikcə artdığını nümayiş etdirir. Bu baxımdan COP29 və Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) xüsusi əhəmiyyət daşıyır.

COP29-un Bakıda keçirilməsi Azərbaycanın enerji ixrac edən ölkə olmaqla yanaşı, həm də qlobal iqlim gündəliyinin fəal iştirakçısı kimi qəbul edildiyini göstərdi. Dünyanın müxtəlif regionlarından minlərlə nümayəndənin iştirak etdiyi bu mötəbər toplantı ölkəmizin beynəlxalq münasibətlər sistemində artan rolunu bir daha təsdiqlədi.

Lakin COP29-un əhəmiyyəti yalnız iqlim diplomatiyası ilə məhdudlaşmadı. Bu genişmiqyaslı tədbir urban inkişaf və iqlim təhlükəsizliyi məsələlərinin vahid strateji çərçivədə müzakirə olunmasına əlverişli imkan yaratdı. Bu, müasir dövrdə dünya şəhərlərinin, eləcə də paytaxt Bakının həm iqlim dəyişikliklərinin təsirlərini daha çox hiss etməsi, həm də bu məsələdən qaynaqlanan problemlərin həllində əsas rol oynaması ilə bağlı idi. Məhz COP29-dan sonra WUF13-ün respublikamızda keçirilməsi Azərbaycanın qlobal urban gündəliyində artan rolunun məntiqi davamı kimi diqqət çəkdi.

### Yaşıl dünya naminə həmrəylik fəlsəfəsi

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2024-cü ildə irəli sürülən və COP29 missiyasının ruhunu əks etdirən “Yaşıl dünya naminə həmrəy olaq” konsepsiyası həmin vaxtdan etibarən Azərbaycanın beynəlxalq siyasətində mühüm yer tutur. İlk baxışda ekoloji məsələlərlə əlaqədar görünən bu təşəbbüsün mahiyyəti, əslində, daha genişdir. Başqa sözlə, bu konsepsiya enerji təhlükəsizliyi, dayanıqlı iqtisadi inkişaf, şəhərsalma, “yaşıl” texnologiyalar, sosial inklüzivlik və ekoloji məsuliyyət kimi anlayışları vahid strateji platformada birləşdirir. Eyni zamanda, burada söhbət təkcə ətraf mühitin qorunmasından deyil, həm də gələcəyin şəhərlərinin necə qurulacağından gedir.



Ekspertlərin fikrincə, müasir urbanizasiya artıq beton və asfalt üzərində qurulan inkişaf modeli deyil. Bu yeni yanaşma şəhərlərin insan mərkəzli, ekoloji cəhətdən dayanıqlı və texnoloji baxımdan innovativ olmasını qarşıya mühüm vəzifə kimi qoyur. WUF13 çərçivəsində müzakirə olunan məsələlər də məhz bu istiqamətləri əhatə edir. Buna görə də Azərbaycan hökuməti dayanıqlı şəhərlər, “yaşıl” enerji, sosial inteqrasiya, rəqəmsal həllər və iqlimə uyğun urban planlaşdırması kimi mövzulara daim önəm verir. Belə bir məntiqi yanaşmanın nəticəsidir ki, respublikamızda son illər həyata keçirilən ekoloji siyasət qlobal urban inkişaf tendensiyaları ilə tam uyğunluq təşkil edir.

Yeri gəlmişkən, Azərbaycanın bu istiqamətdə əldə etdiyi uğurların ən parlaq nümunələrindən biri Bakının keçdiyi transformasiya yoludur. Paytaxtın uzun illər ərzində neft sənayesinin mərkəzi kimi inkişaf etməsi də bunun bariz ifadəsidir. Başqa sözlə, XIX əsrin ortalarından başlayaraq Bakının dünyanın ən iri neft hasilatı məkanlarından birinə çevrilməsi vurğulanan fikrin məntiqi nəticəsidir. Amma bu proses iqtisadi yüksəlişə səbəb olsa da, ekoloji baxımdan uzun illər ərzində ciddi problemlər yaradıb. Prezident İlham Əliyevin WUF13-ün açılış mərasimində qeyd etdiyi kimi, Bakı 1846-cı ildə dünyada ilk dəfə sənaye üsulu ilə neft hasil edilən şəhər olub və sonrakı, təxminən, 180 il ərzində ətraf mühitin mühafizəsinə lazımi diqqət yetirilməyib. Bu isə paytaxtın bir sıra ərazilərinin ciddi şəkildə çirklənməsi ilə nəticələnib.

Bu ərazilər arasında xüsusilə Qara şəhər, Bibiheybət və Böyükşor zonaları daha çox fərqlənirdi. Son 20 ildə həyata keçirilən genişmiqyaslı yenidənqurma və ekoloji bərpa layihələri nəticəsində bu acınacaqlı mənzərə tamamilə aradan qaldırıldı. Qara şəhərin Ağ şəhərə çevrilməsi isə təkcə memarlıq layihəsi deyil, urban transformasiyanın beynəlxalq səviyyədə nümunə göstərilən modeli kimi yüksək dəyərləndirildi. Bir vaxtlar sənaye tullantıları ilə çirklənmiş ərazi hazırda müasir yaşayış komplekslərinin, ictimai məkanların, biznes mərkəzlərinin və “yaşıl” zonaların cəmləşdiyi nümunəvi şəhər hissəsinə çevrilib.

Urban inkişaf təkcə yeni binaların tikilməsi deyil, həm də keçmiş sənaye mirasının müasir şəhər həyatına inteqrasiyası prosesidir. Qeyd edək ki, dünyanın bir çox ölkəsi hazırda fiziki cəhətdən artıq ömrünü başa vuran köhnə sənaye zonalarının reabilitasiyası ilə məşğul olur. Azərbaycan təcrübəsi isə göstərir ki, siyasi iradə və düzgün planlaşdırma sayəsində sözügedən proses uğurla həyata keçirilə bilər.

### “Yaşıl” şəhərlər modeli

Bakıda son 20 ildə həyata keçirilən abadlıq və yaşıllaşdırma layihələri də urban inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu müddətdə paytaxtda 100-dən artıq park və ictimai məkan yaradılıb, onlarla mövcud park əsaslı şəkildə yenidən qurulub. Bu layihələr şəhər sakinlərinin həyat keyfiyyətinin yüksəldilməsinə xidmət etməklə yanaşı, iqlim dəyişikliklərinə uyğunlaşma baxımından da mühüm rol oynayır. “Yaşıl” zonalar havanın keyfiyyətini yaxşılaşdırır, temperaturu aşağı salır və ekoloji balansın qorunmasına kömək edir.

Müasir şəhərsalma nəzəriyyəsində “15 dəqiqəlik şəhər” konsepsiyasına bu gün beynəlxalq aləmdə xüsusi diqqət yetirilir. Bunun nəticəsində əhali gündəlik ehtiyaclarını yaşadıqları ərazidən uzaqlaşmadan qarşılaya bilir. Bakıda son illərdə yaradılan parklar, ictimai məkanlar, piyada zonaları və rekreasiya sahələri də məhz bu yanaşmaya uyğun inkişaf etdirilir.

Hazırda dünya şəhərlərinin qarşılaşdığı əsas problemlərdən biri avtomobillərin həddindən artıq çoxluğu və bunun yaratdığı ekoloji yükdür. Karbon emissiyalarının əhəmiyyətli hissəsi məhz nəqliyyat sektorunun payına düşür. Azərbaycan bu sahədə də mühüm önəm daşıyan uğurlu addımlar atır.

Paytaxtda metro şəbəkəsinin genişləndirilməsi, müasir avtobus parkının formalaşdırılması, elektrik avtobuslarının istismara verilməsi və mikromobillik həllərinin tətbiqi şəhər nəqliyyatının dayanıqlı inkişafına xidmət edir. Velosiped zolaqlarının yaradılması, piyada infrastrukturunun təkmilləşdirilməsi və ictimai nəqliyyatın əlçatanlığının artırılması da Bakının gələcək inkişaf strategiyasının mühüm istiqamətlərindən biridir. Bu layihələr təkcə ekoloji məqsədlərə xidmət etmir, həm də şəhər sakinlərinin gündəlik həyat keyfiyyətini yüksəldir, vaxt itkisini azaldır və sosial inklüzivliyi gücləndirir.

Azərbaycanın urban inkişaf sahəsində həyata keçirdiyi siyasətin ən mühüm istiqamətlərindən biri də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən qurulmasıdır. İşğaldan azad olunmuş ərazilərdə gerçəkləşdirilən layihələr təkcə bərpa məqsədi daşımır, eyni zamanda, bu ərazilərdə gələcəyin şəhərləri yaradılır. “Ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının tətbiqi, “yaşıl enerji” mənbələrinin istifadəsi, rəqəmsal idarəetmə sistemləri və ekoloji standartlara uyğun tikinti layihələri respublikamızın yeni urban inkişaf modelini formalaşdırır. Bu ərazilər, əslində, dünya urbanizasiya təcrübəsində yeni bir laboratoriya rolunu oynayır. Burada tətbiq edilən həllər gələcəkdə digər regionlar üçün də parlaq nümunəyə çevrilir.

Yeri gəlmişkən, burada bir məsələni də xatırlatmaq istərdik. Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilməsi təsadüfi seçim deyildi. Bu genişmiqyaslı toplantı Azərbaycanın urban inkişaf sahəsində əldə etdiyi uğurların beynəlxalq səviyyədə tanınmasının göstəricisi idi. Forum çərçivəsində dünyanın müxtəlif ölkələrindən minlərlə nümayəndə Bakının keçdiyi inkişaf yolunu, reallaşdırılan layihələri və şəhərsalma sahəsində əldə olunan nəticələri yaxından müşahidə etmək imkanı qazandı.

Ən mühüm məqam isə o oldu ki, Azərbaycan bu toplantı ilə artıq qlobal urban gündəliyinin passiv izləyicisi kimi çıxış etmədiyini sübuta yetirdi. Ölkəmiz bu gündəliyin formalaşdırılmasının fəal iştirakçısı olaraq yeni ideyalar irəli sürən və praktik həllər təqdim edən dövlətlər sırasında yer aldı. COP29 və WUF13 arasında yaranan strateji əlaqə də bunu aydın şəkildə nümayiş etdirdi. İqlim siyasəti ilə şəhərsalma strategiyasının inteqrasiyası gələcəyin əsas inkişaf modeli olaraq xüsusi diqqət çəkdi və Azərbaycan bu modelin təşəbbüskarlarından biri kimi nüfuzunu daha da gücləndirdi.

Beləliklə, bu gün Bakı Azərbaycanın paytaxtı olmaqla bərabər, həm də enerji diplomatiyasının, nəqliyyat əməkdaşlığının, humanitar dialoqun, iqlim siyasətinin və urban inkişaf strategiyalarının qovuşduğu beynəlxalq mərkəzə çevrilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf siyasəti nəticəsində Azərbaycan regional liderlik mövqeyini qlobal təşəbbüslərlə birləşdirmək istiqamətində uğurlu layihələr reallaşdırır. Məhz buna görə də COP29-dan WUF13-ə uzanan yol təkcə iki beynəlxalq toplantı arasındakı zaman intervalı deyil. Bu, respublikamızın beynəlxalq nüfuzunun yüksəlişini, dayanıqlı inkişaf sahəsində formalaşdırdığı yeni yanaşmanı və qlobal urbanın gələcəyin qurulmasına verdiyi töhfəni ifadə edən strateji inkişaf xəttidir.

Bütün bunlar göstərir ki, Azərbaycan artıq yalnız enerji resursları ilə deyil, həm də innovativ şəhərsalma siyasəti, “yaşıl” inkişaf konsepsiyası və dayanıqlı urban idarəetmə modeli ilə beynəlxalq miqyasda nümunə göstərilən ölkələrdən birinə çevrilməkdədir. COP29-dan WUF13-ə uzanan bu yol isə ölkəmizin qlobal inkişaf proseslərində artan rolunun və gələcəyə hesablanmış dövlət strategiyasının parlaq təzahürüdür.

*Vaqif BAYRAMOV*
*XQ*

### *Ekspert rəyi*



**Akif NƏSİRLİ,**
**Liberal İqtisadçılar Mərkəzinin sədri, iqtisadçı-ekspert**

Dayanıqlı urban idarəetmə modeli ölkəmizin inkişaf strategiyasının mühüm tərkib hissəsinə çevrilib. Müasir şəhərlərin qarşılaşdığı əsas problemlər sırasında əhalinin sürətli artımı, nəqliyyat sıxlığı, ekoloji çətinliklər və resurslardan səmərəsiz istifadə xüsusi yer tutur. Azərbaycan şəhərlərində həyata keçirilən yenilənmə layihələri bu problemlərin həllinə yönəlib. Rəqəmsal xidmətlərin genişləndirilməsi, ictimai nəqliyyatın modernləşdirilməsi, “yaşıl” zonaların artırılması və enerji səmərəli binaların tikintisi dayanıqlı şəhər inkişafının əsas elementləri kimi çıxış edir.

Bakı şəhərinin son illərdə keçdiyi inkişaf yolu da bu baxımdan diqqət çəkir. Paytaxtda həyata keçirilən abadlıq və infrastruktur layihələri, ictimai məkanların yenilənməsi, park və yaşıllıq ərazilərinin genişləndirilməsi şəhər mühitinin keyfiyyətinin yüksəldilməsini şərtləndirir. Eyni zamanda, rəqəmsal idarəetmə texnologiyalarının tətbiqi şəhər xidmətlərinin daha operativ və səmərəli təşkilinə imkan yaradır.

Qlobal iqlim gündəliyində fəal iştirak da Azərbaycanın beynəlxalq imicinin formalaşmasında mühüm rol oynayır. Ölkənin ekoloji təşəbbüslərə verdiyi dəstək, bərpaolunan enerji layihələrinə yatırdığı investisiyalar, dayanıqlı inkişaf məqsədlərinə sadiqliyi beynəlxalq təşkilatlar və tərəfdaş dövlətlər tərəfindən müsbət qiymətləndirilir. Bu siyasət Azərbaycanın yalnız enerji istehsalçısı deyil, həm də ekoloji məsuliyyət daşıyan və gələcəyə hesablanmış inkişaf modeli təqdim edən dövlət kimi mövqeyini gücləndirir.

Bütün bunlar göstərir ki, Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyur. Əgər əvvəlki dövrlərdə ölkənin beynəlxalq əhəmiyyəti əsasən neft və qaz ehtiyatları ilə əlaqələndirilirdisə, bu gün artıq “yaşıl” enerji, innovativ texnologiyalar, “ağıllı” şəhər konsepsiyaları və dayanıqlı idarəetmə prinsipləri də həmin imicin ayrılmaz hissəsinə çevrilməkdədir. Bu proses yalnız iqtisadi modernləşməni deyil, həm də ölkənin qlobal çağırışlara uyğunlaşmaq qabiliyyətini və gələcək nəsillər üçün daha dayanıqlı inkişaf modelinin qurulması istiqamətində iradəsini nümayiş etdirir.

# Azərbaycan memarlığının qlobal təqdimatı

**Ötən ay Bakıda keçirilmiş VUF13 forumunun müzakirələrində qədim memarlıq ənənələrinin müasir şəhərsalma çağırışları ilə çulğalaşması mövzusu diqqət mərkəzində oldu. AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun şəhərsalma şöbəsinin müdiri, Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü, memarlıq üzrə fəlsəfə doktoru, dosent Samirə Mirəhməd Abdullayeva ilə söhbətimiz də bu barədədir.**

***– Bir həftə idi ki, Azərbaycanın paytaxtı planetin aparıcı şəhər platformasına çevrilmişdi. BMT Məskunlaşma Proqramının Şəhərsalma Forumu Bakıda öz işini uğurla başa çatdırdı. Beynəlxalq müzakirələrin fəal iştirakçısı kimi  təəssüratınız necədir?***

– Möhtəşəm qlobal toplantı idi. 182 ölkədən 40 mindən çox nümayəndə XX əsrin ən aktual məsələsini – şəhərlərimizi hər kəs üçün necə yaşanan və əlçatan etmək məsələsinin müzakirəsi üçün bir araya gəlmişdi. Bu genişmiqyaslı qlobal konqresin Azərbaycanda elan edilən “Şəhərsalma və Memarlıq İli” ilə üst-üstə düşməsi də simvolik idi.  Şərq ənənələrinin Avropa modernizmi ilə birlikdə yaşadığı ölkəmiz yalnız qonaqları qəbul etmədi, həm də yeni trendləri diktə etdi. Qürurvericidir.

BMT-nin məskunlaşma proqramına görə, dünyada 1 milyarddan çox insan qeyri-rəsmi məhəllələrdə,  sanitariya və elektrik enerjisi olmayan gecəqondularda yaşayır. 2030-cu ilə qədər bu rəqəmin 3 milyarda çatması riski var. Rayon və kəndlərdən meqapolislərə demoqrafik axın nəticəsində mənzil və kirayə qiymətləri rekordları qırır, yerli sakinlər, sözün əsl mənasında, sıxışdırılır.

Eyni zamanda, iqlim dəyişikliyinin artan problemi müasir şəhərlərə dərin təsir göstərir. Bu baxımdan “isti tava effekti” xüsusilə aktualdır. Asfalt və betonun bolluğu səbəbindən meqapolislərin mərkəzlərində temperatur şəhərətrafı ərazilərə nisbətən 5–7 dərəcə yüksəkdir. Ötən əsrdə layihələndirilmiş şəhər drenaj sistemləri və elektrik şəbəkələri fırtınalara və anormal istilik dalğalarına tab gətirə bilmir. Şəhər ərazilərində müxtəlif daşqınlar və çökmələr baş verir. Beton və poladdan istifadə etməklə köhnə üsulla tikinti işi aparmaq ekoloji fəlakəti sürətləndirmək deməkdir. Sərt eko-standartların tətbiqi mənzillərin daha da baha olması deməkdir. Bu səbəbdən də Bakıda keçirilən WUF13 tədbirində liderlər və mütəxəssislər “qızıl balans” – enerjiyə qənaət edən, nəmi uda bilən və insanları istidən qoruyan “süngər” şəhərlər üçün yeni formatlar axtarırdılar.

***– Azərbaycanın təcrübəsi bir örnəkdir. Ölkəmizin dünyada qədim qalalardan “Ağ şəhər”ə doğru irəliləyişi ehtiva edən “kimlik kodu” ilə xarakterizə olunması haqqında nə deyərdiniz?***

– Qlobal memarlar nəzəriyyəsi müzakirə edilərkən Azərbaycan praktik bir perspektiv – “Canlı irs” anlayışı təklif etdi. Burada tarixi mərkəzlər cansız muzeylərə çevriləcək qədər qorunmur, əksinə, meqapolislərin müasir ritminə üzvi şəkildə inteqrasiya edilir.

Azərbaycan qədim yaşayış məskənləri və şəhərlərinə malik bir ölkə hesab olunur, tarix boyu zəngin maddi-mədəni və şəhərsalma irsinin inkişaf etdiyi erkən sivilizasiya mərkəzlərindən biridir.

İçərişəhər şəhərsalmada radial-halqa inkişafının nadir  nümunəsidir. Burada dar, dolama küçələr bir səbəbdən bu şəkildə tikilmişdir – onlar Xəzərin güclü küləklərini yumşaldır və isti günlərdə kölgə yaradır.

Gəncə və Bərdə qalalara və şəhərətrafı sənətkarlıq ərazilərinə bölünmüş qədim meqapolislər olub. Mürəkkəb yeraltı su təchizatı sistemi – kəhrizlər müasir, qənaətli hidroloji idarəetmənin prototipidir.

Şəki dağlıq mənzərə terraslı inkişafı diktə edir. Burada evlər sel suları nəzərə alınmaqla tikilib və şəbəkə pəncərəli məşhur saraylar ekoloji cəhətdən təmiz və enerjiyə qənaət edən dizaynın ideal nümunəsi olaraq qalır.

Naxçıvan diyarının incisi sayılan Ordubad isə orta əsr şəhərsalmasının şah əsəri kimi tanınır. Bu şəhər radial (halqa inkişaflı) yaşayış məhəllələrinə bölünməsi ilə unikallıq kəsb edir: məhəllələrin hər biri öz məscidi, meydanı, su mənbəyi və yaşı əsrlərə bərabər çinar ağacları ilə fərqlənir. Unikal qapalı yeraltı kanallar (kəhrizlər) təkcə evləri deyil, həm də məşhur bağları soyudur və quraqlıq şəraitində ideal mikroiqlim yaradır.

***– Ölkəmizdə yenilənmələrin minillik memarlığın qorunması ənənəsi ilə aparılması, yəni tarixi məkanlarla həssas davranma prinsiplərinə riayət olunması da Bakı Forumunda yüksək dəyərləndirildi.***

– Elədir. Bu baxımdan postsovet məkanında ən böyük ərazi bərpa layihəsinin reallaşdırıldığı “Ağ şəhər” genişmiqyaslı dirçəliş mərhələsindədir. Keçmiş neft emalı zavodunun ərazisi olan “Qara şəhər”in geniş sənaye zonası vahid memarlıq kodu olan ultra-müasir, ekoloji cəhətdən təmiz və piyadalar üçün əlverişli bir rayona çevrilib. 1650 hektar ərazini əhatə edən meqalayihə Azərbaycanın WUF13 sessiyası iştirakçılarına gələcəyin dayanıqlı şəhərinin canlı modeli kimi təqdim etdiyi əsas praktik nümunəyə çevrilib.

Onu da deyim ki, WUF13-də Azərbaycanın beynəlxalq ictimaiyyətə təqdim etdiyi əsas sensasiya Qarabağın və Şərqi Zəngəzurun genişmiqyaslı dirçəlişi və “ağıllı kənd”lərimiz oldu. İşğaldan azad edilmiş ərazilərdə, tam karbon neytrallığı konsepsiyasına əsaslanaraq şəhər və kəndlərin, sözün əsl mənasında, sıfırdan tikilməsi hər kəsə heyrətamiz təsir bağışladı.

Bölgədəki Tərtər və Həkəri çaylarında kiçik su elektrik stansiyaları tikilir.  Cəbrayılda “Üfüq” və “Şəms” adlı böyük günəş elektrik stansiyaları işə salınır. Kənd təsərrüfatı avtomatlaşdırılıb – “ağıllı tarla” suvarma sistemlərindən tutmuş heyvandarlıq fermalarındakı sensorlara qədər.

***– Regionların dirçəldilməsini qədim İpək yolundan yaşıl mərkəzlərə doğru yürüş adlandırmaq olarmı?***

– Əslində, belədir. Qarabağ təcrübəsi Azərbaycan ərazisində genişmiqyaslı modernləşmənin trigeri - hərəkətverici qüvvəsi timsalındadır. Regional inkişaf üzrə dövlət proqramı “inkişaf etmiş paytaxt” və əyalətlər arasındakı sərhədləri silib. Bu gün ölkənin hər yerinə investisiyalar axır. Məsələn, Lənkəran bölgəsində ayrıca yığım və təkrar emal üzərində dayanan inteqrasiya olunmuş bərk tullantıların idarə edilməsi üzrə pilot layihəyə başlanılır. Bölgədə ekoturizm artıq yeni rəqəmsal infrastrukturla dəstəklənir. Quba-Xaçmaz bölgəsi əsas aqroloqiya mərkəzinə çevrilir. Burada çağdaş əkinçilik texnologiyaları tətbiq olunur və beynəlxalq nəqliyyat dəhlizləri ilə əlaqəli müasir topdansatış paylama mərkəzləri yaradılır. Naxçıvan bölgəsi Qarabağla birlikdə “yaşıl enerji” zonası elan edilib.

Şimal-Cənub Dəhlizinin və Bakı–Tbilisi–Qars dəmir yolunun modernləşdirilməsi Azərbaycanın tranzit şəhərlərini yeni iqtisadi mərkəzlərə çevirir. Dünya səviyyəli yolların (məsələn,  Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd) tikintisi ucqar kəndləri vahid, dinamik bir şəbəkəyə birləşdirir.

***– Dünya Bakı sessiyasının yekunlarından necə bəhrələnəcək?***



– Bakıda keçirilən WUF13 sadəcə gözəl hesabatlar üçün platforma deyil, həm də praktik seminar səciyyəsi daşıdı. Beynəlxalq ictimaiyyət üç əsas nəticəni gözləyir: “Bakı Fəaliyyətə Çağırış” əlverişli və yaşıl mənzil tikintisi üçün yeni, ciddi beynəlxalq standartlar müəyyən edəcək qlobal sənəddir. “Bakı Şəhər Mükafatı” Azərbaycan tərəfindən BMT-Habitat  ilə birgə təsis edilən və hər il dünyanın hər yerindən gənc memarların ən yaxşı ağıllı layihələrini maliyyələşdirəcək yeni beynəlxalq mükafatdır.

“Qlobal Cənubun səsi” – forumu Asiya, Afrika və Latın Amerikasında inkişaf etməkdə olan ölkələrin Qərb şəhər modelləri ilə məhdudlaşmadan ehtiyaclarını birbaşa ifadə edə biləcəyi bir platformaya çevrildi.

Azərbaycan WUF13-ə ev sahibliyi etməklə gələcəyin uğurlu şəhər və ya kəndlərinin simasız beton qutu olmadığını  nümayiş etdirdi. Bunlar qabaqcıl texnologiyaların insanların tarixi köklərinə möhkəm bağlı qalmaqla təbiətlə harmoniyada yaşamalarına kömək etdiyi məkanlardır.

*Müsahibəni hazırladı:*
*Ə.DOSTƏLİ*
*XQ*

# Qasım xanlığı–Rusiya daxilində 229 il davam etmiş türk dövlətçiliyi

**XV-XVII əsrlərdə mövcud olan Qasım xanlığının mədəniyyəti və memarlığı tatar ənənələri ilə rus memarlığının nadir sintezini təşkil edir. Mədəni mənzərəni Rusiya torpaqları daxilində tatar dövləti quran Qasım xan formalaşdırıb. Əsas memarlıq abidələri Xan məscidi, minarə və şərq üslubunda kərpiclə inşa olunan iki daş tikili–Şah Əli xan və Əvqan Məhəmməd Sultanın məqbərəsidir.**

1555-ci ildə tikilən Şah Əli xan məqbərəsi dövrün tatar memarlığının xarakterik xüsusiyyətlərini qoruyan düzbucaqlı binadır. XVII əsrdə inşa olunan Əvqan Məhəmməd Sultan məqbərəsi türk-müsəlman ənənəsi ilə Rusiya təsiri arasında keçid formalarını nümayiş etdirən günbəzli tikilidir.

Tatar zadəganlarının rus əhalisi ilə birgə yaşaması mədəni mübadiləyə səbəb olub ki, bu da Qasım xanlığının memarlığında özünü bariz şəkildə nümayiş etdirir. Bununla belə, Qasım xanlığı bu zonada tatar mədəniyyətinin mərkəzi idi və memarlıq baxımından qonşu Rusiya şəhərlərindəki abidələrdən kəskin surətdə fərqlənirdi. Xanlığın mədəniyyəti Moskvadan siyasi asılılıq altında fəaliyyət göstərən yerli, lakin fərqli bir tatar mədəniyyətinin nümunəsidir.

Tatar alimi Н.Х.Халит (“Татарские дворцовые комплексы XV-XVI вв”, Казань, 2009) əsərində Qasım xanlığının şəhərsalma memarlığı və incəsənəti ilə bağlı yazır ki, xanlığın memarlığı və şəhərsalma mədəniyyəti Qızıl Orda memarlığının nadir bir versiyasıdır. Alimin fikrincə, bu üslub "monumental bədii obraz, aktiv, hətta aqressiv siluet, ifadəli kompozisiya, zərif, lakonik formanı qoruyan yüksək keyfiyyətli tikinti texnikaları" ilə xarakterizə olunur. Bu xüsusiyyətlər bu günə qədər gəlib çatan Qasım Xan məscidinin minarəsinin dizaynında öz əksini tapıb. Xanlığa tatar zadəganlarının mərkəzləri–Xan-Kerman, Kadom, Temnikov, Şatsk və s. şəhərlər daxil idi.

Qasım və ya Xan-Kerman şəhərinin relyefi bu ərazinin inkişafında əsas rol oynayıb. Belə ki, şəhər Oka çayının mənsəbində yerləşdiyindən paytaxtın mənzərəsini daha da gözəlləşdirirdi. Kremli divarlarla əhatə olunan şəhərin içərisində Xan Sarayı, Xan Məscidi və Şah Əli məqbərəsi ən görkəmli yerlərdə tikilib. Xan Sarayı–Tatar Xanının Qazan və ya Baxçasaray iqamətgahlarına bənzər üçmərtəbəli daş bina yenidən qurulub.

## Qasım xanlığının ərazisi qədim dövrlərdə



Qasım xanlığının ərazisi

Əvvəlcə bu ərazilərdə meşçera, murom, mordvin və Volqa Fin-Uqor xalqları yaşayıb. Bu torpaqlar ilk əvvəl Kiyev Rus dövləti və Volqa Bulqarlarının təsiri altında idi, yerli tayfalar rus knyazlarının vassalı kimi fəaliyyət göstərirdilər. Daha sonra ərazi Vladimir-Suzdal Knyazlığının bir hissəsinə çevrilir. 1152-ci ildə Böyük Hersoq Yuri Dolqoruki Qorodets-Meşçera Knyazlığını qurur. Monqol işğallarından sonra ərazi Qızıl Ordanın bir hissəsinə çevrilir və bu ərazilərə türklər köçürülür, onların əksəriyyəti Volqa bulqarlarının təsiri altında İslamı qəbul edir. Yarımmüstəqil Mişar Knyazlığını Məhəmməd Şirinbəy qurub. 1393-cü ildən bu ərazi Moskva Böyük Hersoqluğunun bir hissəsinə çevrilir.

## Qasım xanlığının yaranması və inkişafı

Qızıl Ordanın keçmiş hökmdarı Ulu Məhəmməd 1436-cı ildə taxtdan salındıqdan sonra 1437-ci ildə Qazan xanlığını qurur və bir neçə dəfə hökmdar olur. 1445-ci ildə Moskva knyazı II Vasiliyə qarşı Suzdal döyüşündə qalib gəldikdən sonra II Vasilini əsir götürür. Ulu Məhəmməd Oka çayının şimal sahilində, Ryazan şəhəri yaxınlığındakı torpaqların–Qasım, Yilatom, Şatsk və Temnik əyalətlərini əhatə edən bölgənin və digər torpaqların tatarlara qaytarılmasını tələb edir, bunun müqabilində Vasilini


Qasım xanlığının bayrağı

azad etməyə söz verir, razılıq əldə olunduqdan sonra II Vasili azad olunur.

Lakin Ulu Məhəmməd xanın ölümü onun oğlanları arasında hakimiyyət uğrunda mübarizəyə səbəb olur.

Fürsətdən istifadə edən Moskvanın Böyük Şahzadəsi Qasım xanı dəstəkləyir. Rusiyanın köməkçi qüvvələrinin dəstəyi ilə Qasım xan qardaşı İbrahimə qarşı hücuma keçir, lakin uduzur və geri çəkilir. Bu hadisədən sonra Qasım Moskva Knyazlığına sığınmaq məcburiyyətində qalır, 1452-ci ildə isə razılaşdırıldığı kimi Moskva bölgəni ona verir və Qasım xanlığı qurulur. Moskva Knyazlığı ilə Qazan xanlığı arasında bufer zona olan Qasım xanlığından Qazan xanlığını işğal etmək üçün bir vasitə kimi istifadə ediblər.

Bir versiyaya görə Vasili Ulu Məhəmmədin iddiasını həyata keçirir, hətta onun oğlu Qasımın Meşçera torpaqlarının hökmdarı kimi tacqoyma mərasiminə qatılır. Digər versiyaya görə, Qasım Rusiya xidmətinə girir və Moskva ilə Qazan xanlığı arasında bufer dövlət yaratmaq üçün bu torpaqları alır. Xanlıq yarandığı zaman Moskva Böyük Hersoqluğunun təsir dairəsində idi.

Beləliklə, yeni yaradılan xanlıq və paytaxt Qasım (digər adı Xan-Kerman) xanın şərəfinə adlandırılır. Xanlığın dili qədim tatar dili, XVI əsrə qədər əsas din İslam, qismən də xristianlıq olub. Dövlətin İslama sadiqliyi fundamental olaraq vacib idi, çünki xanlıq Çingizilərin anklavı kimi saxlanılırdı.

Təbii ki, tam hakimiyyət xanın əlində olub, bundan başqa vəzir, bəy və mirzələrdən ibarət Məşvərətçi Şura da fəaliyyət göstərib və müəyyən taleyüklü məsələlərdə xan onlarla məsləhətləşib. Bundan əlavə, imtiyazlı təbəqəyə hörmətli və sayılan insanlar–atalıqlar, imildaşlar–hökmdarın övladları, qazılar–hakimlər və kazaklar–hərbçilər daxil idi. Nüfuzlu təbəqələrdən biri də ruhanilər–dərvişlər, mollalar, hafizlər–Quran alimləri və danişməndlər-müəllimlərdən ibarət idi. Bütün ruhanilərə seyidlər rəhbərlik edib. Nüfuzlu seyidlərdən biri xüsusi hərbi hissə olan Seyid alayına komandanlıq edib. Ən aşağı rütbəni saray xidmətçiləri tutub.

## Xanlığın etnik tərkibi və xristianlaşdırılması

Xanlığın silahlı qüvvələri daimi ordudan (kazaklardan) və xanlığın hərbi yürüşlər üçün topladığı digər hərbçilərdən ibarət idi. Xanlıq bütün hərbi əməliyyatları Rusiya dövlətinin qüvvələri ilə birgə həyata keçirirdi. Məsələn, Seyid Bulat xan (Simeon) Livoniya müharibəsində rus ordusuna komandanlıq edib.

Xanlıq 1506-cı ildən sonra qismən Rusiya çarlığına tabe etdirilib.

1570-ci illərdən başlayaraq rusların təsiri ilə xanlıqda şahzadələrin xristianlaşdırılması başlayıb. Belə ki, 1573-cü ildə Qasım xanı Seyid Bulat xaç suyuna çəkilərək Simeon (Simeon Bekbulatoviç) olur. Seyid Bulat 1567-1573-cü illərdə Qasım xanı, Böyük Ordaya hökmranlıq edən Əhməd xanın nəticəsi Bek Bulatın oğlu idi. Atası ilə birlikdə IV İvan Qroznını xidmətinə gedərək 1570-ci illərin Livoniya yürüşlərində iştirak edib.

Təxminən 1653-cü ildə şahzadə, 1626–1679-cu illərdə Qasım hökmdarı, xristianlığı qəbul etdikdən sonra atası Arslan xanın yerinə taxta çıxan Seyid Burxan (Vasili Arslanoviç) adını alır. Bundan sonra müsəlmanların xristianlaşdırılması sürətlə davam edir. XVI-XVII əsrlərdə başlayan xristianlaşma siyasətinin güclənməsi Qasım xanlığının süqutunun əsas səbəblərindən biri olur.

Bu ərazidə yaşayan mordvinlər, eləcə də meşçera və murom kimi digər Volqa Fin-Uqor tayfaları tatarlar tərəfindən assimilyasiya olunaraq mişar tatarlarına çevrilirlər. Sonradan bu ərazilərdə rusların məskunlaşdırılmasına başlanır. Qazan tatarlarının bir hissəsi Qasım torpaqlarına köç edir. Tatarların əksəriyyəti xan sarayında orduda xidmət ediblər.


Qasım şəhəri-xan Sarayı

Xanlıqdakı zadəgan ailələrinə Mangıtlər, Arginlər, Cəlairlər və Qıpçaqlar daxil idi. Moskva Qazan, Krım və Sibir xanlıqlarını özünə qismən və ya tam tabe etdikdən sonra xanlar tatar xanlıqlarının hakim ailələrindən seçilib.

Kənd təsərrüfatı, arıçılıq, xəz tədarükü və balıqçılıq Qasım xanlığının iqtisadiyya-


Qasım xanı Şah Əli Xan

tında mühüm rol oynayıb. Xanlıqda şərab, dəri məmulatları və mum istehsal edilir, duz və qızıl çıxarılırdı. Sənətkarlıq və əl işləri güclü inkişaf etmişdi, xan sənətkarları və memarları sinfi mövcud idi. Bu sənətkarların istehsal etdikləri qab-qacaq yüksək qiymətləndirilib.

## Qazan xanlığına hücumlar

Qasım xanları 1467–1469, 1487, 1552-ci illərdə Moskvanın Qazana etdiyi bütün basqınlarda iştirak ediblər. Qasım xan Qazan xanlığının taxt-tacına iddialı idi, odur ki, III İvanın dəstəyindən istifadə edərək 1467-1469-cu illər Qazan xanlığına hücum etsə də, məğlub olur. 1469-1486-cı illərdə hakimiyyətdə olan Daniyal III İvanın rəhbərliyi altında müxtəlif hərbi yürüşlərdə iştirak edir.

1486-cı ildən Ulu Məhəmmədin nəsilləri Gəray sülaləsinin nümayəndələri ilə əvəz olunur. Rusiyanın müttəfiqi Nur Dövlət Qasım taxt-tacına sülalə iddiası irə-


Qasım şəhəri-məscid

li sürür ki, bu da Rusiya hökumətinə Krım xanlığının siyasətinə təzyiq göstərməyə imkan verir. Qazanın fəthindən sonra xanların özünü idarəetməsi ləğv edilir və xanlıq Rusiya voyevodalarının nəzarəti altına keçir. Bununla belə, xanlar hakimiyyətlərini davam etdirirlər.

1574-cü ildə Moskvanın Böyük Knyazı IV İvan taxt-tacından imtina edərək Qasım xanlarından biri olan Seyid Bulatı (Simeon Bekbulatoviç) taxta çıxarır və ona "Bütün Rusiyanın Knyazı" titulunu verir. Lakin 1575-ci ildə Simeon knyazlığı IV İvana qaytarır.

O, rusların təsiri altında olduğundan heç vaxt müstəqil qərarlar qəbul etməmişdi. Seyid Burxanın hakimiyyəti dövründə (1627–1679) Rusiya xristianlaşdırma siyasətinə başlayır. Boyarlarla eyni statusa malik olan bəylər zadəganlarla bərabər tatar xidmətçiləri ilə əvəz olunurlar. Bu siyasət 1656-cı ildə tatar üsyanına gətirib çıxarır. 1681-ci ildə Xanbikə Fatimə Soltanın ölümündən sonra xanlıq ləğv edilir.

Beş sülalədən ibarət Qasım xanlığını Qazan, Krım, Qızıl Orda, Qazax və Sibir sülalələri idarə edib.

**Qazan xanədanından olan Qasım xanları:**

**Qasım Xan,** Ulu Məhəmmədin oğlu. Ulu Məhəmmədin 1445-ci ildə Suzdal döyüşündə qələbəsindən sonra Moskva çarı II Vasilini əsir götürərək fidyə ilə azad edib, sonra qardaşı Yaqubla birlikdə sülh müqaviləsinin bağlanmasına nəzarət etmək üçün Moskva Knyazlığına gedib. O, Rusiya ilə bağladığı sazişə əsasən 1442-ci ildə Zveniqorodun, 1452-ci ildə isə Qasım xanlığının ərazilərini alaraq öz mülkünə çevirib. Təxminən, 1450-ci ildə o, Vasilinin düşməni Dmitri Şemyakla döyüşüb. 1467-ci ildə o, Qazan taxtına iddia edib, lakin həm özü, həm də rus müttəfiqləri məğlub olublar. 1445-1468-ci illərdə hakimiyyətdə olub.

**Daniyal xan, Qasım xanın oğlu.** O, 1471 və 1477-ci illərdə Novqorodda döyüşüb. Xristian olmadığı üçün əsir götürməsinə icazə verilməyib. 1472-ci ildə Əhməd Xan bin Kuçukun hücumunu dəf edib. Rus knyazlarından xərac alıb. 1468-1486-cı illərdə hakimiyyətdə olub. Daniyalın ölümündən sonra Krım xanlıqları sülalələrindən olan varislər taxta çıxarılıb. Lakin onlardan heç biri Rusiyanın nəzarətindən çıxa bilməyib.

**Krım xanədanına məxsus olan xanlar:**

**Nur Dövlət xan.** Daniyalın oğlu olmadığı üçün Qasım xanlığı üç dəfə–1466–1467, 1467–1469, 1475–1476-cı illərdə Krım xanı, Hacı I Gərayın oğlu və varisi Nur Dövlətə verilib. Qardaşı Məngli I Gərayla taxt uğrunda mübarizə aparıb, sonuncu hakimiyyəti dövründə Krım taxtından qovulduqdan sonra Moskva knyazının dəstəyilə Qasım xanı təyin edilib. 1503-cü ildə uzun sürən xəstəlikdən sonra vəfat edib. 1486-1491-ci illərdə Qasım xanı olub.

**Satılmış xan**. Nur Dəvlətin oğlu, 1491-ci ildən sonra Rusiya, Qazan, Krım və Böyük Orda xanlıqları ilə döyüşüb. 1502-ci ildə Böyük Orda dövlətinin mövcudluğuna son qoyub, Qazan xanlığı ilə döyüşüb, Ryazandan xərac alıb. 1491-1506-cı illərdə hakimiyyətdə olub.

**Canbay xan.** Nur Dövlət xanın ikinci oğlu, Qazan və Litvada döyüşüb. 1506-1512-ci illərdə xan olub.

**Qızıl Orda xanədanından olan xanlar:**

**Şeyx Allahyar.** Rusiyada hakimiyyəti itirən Əhməd xan bin Kuçukun qardaşı Bəxtiyar Sultanın oğlu idi. 1502-ci ildə Qızıl Ordanın süqutundan sonra Rusiyaya qaçır, Litvada döyüşür. 1512-1516-cı illərdə hakimiyyətdə olub.

**Şah Əli xan.** Şeyx Allahyarın oğlu, 11 yaşında Qazan xanı olub.

Qasım xanlığının dövrü 1516-1519-cu illəri əhatə edir.

**Can Əli xan.** Şeyx Allahyarın oğlu, 1528-ci ildə Litva ilə döyüşüb, 1519-1532-ci illərdə Qasım xanı olub.

**Şah Əli xan.** Şeyx Allahyarın oğlu, ikinci dəfə hakimiyyətə gəlib. İkinci hakimiyyəti dövrü 1532-1567-ci illəri əhatə edir.

**Seyid Bulat xan** (Simeon Bekbulatoviç) Böyük Ordaya hökmranlıq edən Əhməd xanın nəticəsi Bek Bulatın oğlu idi. Anası İvan Qroznı ilə evlənən Kabardin şahzadəsi Mariya Temryukovnanın bacısı idi. Seyid Bulat xan və atası 1558-ci ildən əslində Rusiyaya xidmət ediblər. Şah Əli xanın ölümündən sonra xan olur, sonra hakimiyyətdən öz xoşu ilə imtina edir. 1575-ci ildə İvan Qroznı onu qısa müddətə Rusiyanın çarı edir. Növbəti il İvan taxta qayıdır və onu Tverin Böyük Şahzadəsi elan edir. Sonra Boris Qodunov tərəfindən mülkündən məhrum edilir, gözləri tutulur və 1616-cı ildə vəfat edir. 1567-1573-cü illərdə xan olub.

**Mustafa Əli xan** Həştərxanlı Ak Qubekin nəvəsi idi, 1573-1600-cı illərdə hakimiyyətdə olub.

**Qazax xanədanına məxsus bir Qasım xanı olub:**

**Uraz Məhəmməd,** Qazax xanı Şiqayın nəvəsi. 1587-ci ildə Kuçumun rəhbərliyi altında xidmət edərkən ruslar tərəfindən əsir götürülüb və onlara xidmət etməyə başlayıb. İsveçlilər və krımlılarla döyüşüb, 1600-1610-cu illərdə xan olub.

**Sibir xanədanına məxsus xanlar:**

**Arslan xan,** Kuçumun nəvəsi, 1610-1627-ci illərdə hakimiyyətdə olub.

**Seyid Burxan** (Vasili Arslanoviç). Arslan xanın və Xanbikə Fatimə Soltanın oğlu, atası tərəfdən hakimiyyətə gətirilərkən azyaşlı olduğundan ata və anasının qəyyumluğunda olub.

1679-cu ildə sonuncu xan Seyid Burhanın ölümündən sonra xanlıq Rusiya tərəfindən qismən işğal edilib. 1627–1679-cu illərdə xan olub.

Xanbikə Fatimə Soltan, Arslan xanın xanımı, Seyid Burhanın anası, Seyid Burhanın vəfatından sonra xanlıq iki il Xanbikə Fatimə Soltan tərəfindən idarə olunsa da, səlahiyyətsiz bir quruma çevrildiyindən 1681-ci ildə xanlıq tam olaraq süqut edib. Xanbikə Fatimə Soltan 1679-1681-ci illərdə xan olub.

Bundan sonra Qasım xanlığının döyüşçüləri hərbçi kimi fəaliyyətlərinə son qoyaraq tacirlərə və sənətkarlara çevrilirlər. Xanlıqda yaşayan tatarlar və digər xalqların bir hissəsi digər bölgələrə köç edir, təbii ki, orada qalanlar da olur.

229 il yaşayan Qasım xanlığı 1681-ci ildə tam süqut edir, xanlıq dövründə tikilən bir çox tikili, o cümlədən məscidlər ruslar tərəfindən dağıdılır və yandırılır.

Beləcə, Rusiyanın 229 il yaşayan müstəqil Qasım xanlığı süqut edir.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan müxbiri*

**Daşkənd**

# Leyla Əliyeva və Arzu Əliyeva 11 nömrəli internat tipli ümumtəhsil məktəbində





**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə 11 nömrəli inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbində olublar.**



Qonaqlar uşaqlarla görüşüb, onlara hədiyyələr təqdim ediblər.

Ümumtəhsil məktəbində onlar "Qurma" adlı art-studiya ilə tanış olublar. Burada xüsusi qayğıya ehtiyacı olan uşaqların hazırladıqları xalçalar, rəsm əsərləri və tikiş nümunələri nümayiş etdirilir.

Məktəbdə, həmçinin əyləncəli proqram təşkil olunub. Uşaqlar öz əl işlərini qonaqlara hədiyyə ediblər.

*XQ*

# "Kim dedi ki, səadətə inanma" mahnı və klipinin təqdimatı





**Bakı Kitab Mərkəzində Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın "Kim dedi ki, səadətə inanma" şeirinə yazılan yeni mahnının təqdimat mərasimi olub.**

Xalq artisti Eyyub Yaqubovun ifa etdiyi mahnının bəstəkarı Gülsüm Eldarovadır.

Təqdimat mərasimi bədii-musiqili proqramla müşayiət olunub.

Tədbir çərçivəsində qiraətçilər Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın şeirlərini səsləndirib, musiqi hissəsində isə Eyyub Yaqubovla yanaşı, "Naz qrupu"nun ifaçıları da çıxış ediblər.

Sonra yeni mahnıya çəkilmiş klip ilk dəfə ictimaiyyətə təqdim olunub.

*XQ*

# Suqovuşan Tərtərdə torpağın nəbzini döyündürür



**Əkinçilikdə bol məhsulun sirri təkcə torpağın bərəkətində deyil, həm də vaxtında və düzgün aparılan aqrotexniki qulluqda, ən başda isə suvarma suyundadır. Torpağın suya, fermerin isə bol məhsula olan ümidini gerçəkləşdirən qurumlardan biri də Tərtər Su Meliorasiya Sistemləri İdarəsidir.**

**İdarənin rəisi Murad Zeynalov** bildirdi ki, bu gün rayonda 29 min 133 hektar əkin sahəsi məhz rəhbərlik etdiyi qurumun fəaliyyəti sayəsində canlanır.

Regionun su təminatından danışarkən idarə rəisi qeyd etdi ki, Suqovuşan su anbarının işğaldan azad edilməsi bölgənin taleyində köklü bir dönüş nöqtəsi oldu. Bu tarixi hadisədən sonra Tərtər düzünə sanki yeni nəfəs gəldi. İndi yerli fermerlər də dövrlə ayaqlaşır. Suyun hər damlasına qənaət etmək və keyfiyyətli məhsul götürmək üçün müasir damcılama və çiləmə sistemlərinə üstünlük verilir.

Tərtərin münbit torpaqlarını 4 böyük mənbə qidalandırır. Hər damla suyun arxasında isə böyük bir infrastruktur dayanır. Tərtərçay – 14 min 996 hektarın canı bu çayla bağlıdır. İncəçay və Qarabağ kanalı isə müvafiq olaraq 400 və 237 hektar sahəni su ilə təmin edir. Görülən işlər təkcə mövcud resurslarla kifayətlənmir. Hazırda tarlalara 3 böyük nasos stansiyası xidmət edir, yaxın günlərdə isə Borsunlu nasos stansiyasının istismara verilməsi ilə suyun həcmi bir qədər də artacaq.

İdarənin balansındakı 607 subartezian quyusu gecə-gündüz işləyir. Quyulardan 37-si birbaşa əhalinin içməli su ehtiyacına, 570-i isə suvarma və məişət işlərinə yönəldilib. Sudan itkisiz istifadə etmək üçün "Qaynaq" və "Qapanlı" kanallarının bir kilometrlik hissəsi beton üzlüklərlə əvəzlənib. Eyni zamanda, 385 kilometrlik suvarma arxı lildən təmizlənib, hidrotexniki qurğular yenilənib.

Ümumiyyətlə, Tərtər Su Meliorasiya Sistemləri İdarəsinin fəaliyyəti təkcə tarlalarla məhdudlaşmır. Qurum həm də rayon sakinlərinin fasiləsiz içməli su təminatçısıdır. Bu gün idarə 7 min 394 abonentə xidmət göstərir. Bundan başqa, rayonda 36 şəhid bulağı və 343 ictimai bulaq da bu şəbəkədən su alır.

Müasir şəhərin əsas göstəricilərindən biri də onun kanalizasiya və su təmizləyici sistemləridir. Tərtərçayın sağ sahilində yerləşən, sutkalıq gücü 7 min 500 kubmetr olan müasir tullantı sutəmizləyici qurğusu və 82 kilometrlik mərkəzi kanalizasiya şəbəkəsi ekoloji təmizliyin keşiyində durur. Borularda yaranan hər hansı problem isə qəza xidmətinin çevik müdaxiləsi ilə dərhal aradan qaldırılır.

Qeyd edək ki, Tərtərdə quruculuq işləri sürətlə davam edir. Şəhərin içməli su şəbəkəsi olmayan yerlərinə yeni xətlər çəkilir. Məsələn, Vüqar Həsənov küçəsində sakinlər artıq 2 kilometrlik yeni su xəttinin rahatlığından yararlanırlar. Seyidimli və Mamırlı kəndlərində də yeni xətlər çəkilib.

Planlar isə daha böyükdür. Qarşıdakı dövrdə Evoğlu və Poladlı kəndlərində yaşayış evlərinə yeni su xətlərinin çəkilməsi, Cəmillidə yeni bulaqların quraşdırılması və yararsız subartezian quyularının əsaslı təmiri nəzərdə tutulur. Çünki su həyatdır, Tərtərdə isə bu həyat hər gün daha da gözəlləşir və yenilənir.

Yeri gəlmişkən, 5 iyun - Su təsərrüfatı və meliorasiya işçilərinin peşə bayramı günüdür. Müstəqil Dövlətlər Birliyi ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda 1996-cı il iyunun 5-də ulu öndər Heydər Əliyev tərəfindən "Meliorasiya və irriqasiya haqqında" qanun imzalanıb. Prezident İlham Əliyevin 2007-ci il mayın 24-də imzaladığı sərəncamla 5 iyun - "Meliorator günü" peşə bayramı təsis edilib.

*Vəli VƏLİYEV*
*XQ*

**"Azərbaycanın zəngin təbii-coğrafi bölgələrindən olan Qarabağ təkcə ölkəmiz üçün deyil, bütün Cənubi Qafqaz regionu üçün strateji əhəmiyyət daşıyan unikal ekosistemlərə malikdir. Dağlıq və aran zonalarının kəsişməsində yerləşən bu ərazi müxtəlif iqlim tiplərinin, torpaq örtüyünün və biomüxtəlifliyin harmonik vəhdəti ilə seçilir. Təbiətin bu cür unikal sintezi burada nadir və yüksək müalicəvi xüsusiyyətlərə malik bitki növlərinin formalaşmasına şərait yaratmışdır. Qarabağ uzun əsrlər təbii mənşəli dərman preparatlarının hazırlanması üçün əsas xammal bazalarından biri kimi tanınmışdır. Lakin Ermənistanın 30 ilə yaxın davam edən işğalı nəticəsində bu sərvətlər ciddi dağıntılara və ekoloji fəlakətlərə məruz qalmışdır".**

**Bu fikirləri bizimlə söhbətində Ermənistanın işğalı dövründə Qarabağın təbii sərvətlərinə dəyən zərərlərdən söz açan Azərbaycan Tibb Universitetinin Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müəllimi, Dünya Tibbi Hüquq Assosasiyasının üzvü Aida Bəndəliyeva dedi. O,  regionun meşə ehtiyatlarına vurulan zərbələrdən danışdı:**

# Qarabağın hər çiçəyi bir dərmandır

*Bu təbii əczaçılıq qaynağı da işğaldan ağır zərbə alıb*

– Rəsmi məlumatlara görə, işğal dövründə Qarabağ və ətraf rayonlarda 260 min hektardan çox meşə sahəsi zərər görmüş, təxminən, 60 min hektarı tamamilə məhv edilmişdir. Xüsusilə Kəlbəcər, Laçın və Zəngilan rayonlarında qiymətli ağac növləri – palıd, şabalıd, qoz və ayıfındığı kütləvi şəkildə qırılaraq qanunsuz istismar edilmişdir. Ekoloji təşkilatların hesabatlarına əsasən, hər il yüz minlərlə kubmetr oduncaq Ermənistana daşınmışdır ki, bu da regionun meşə ehtiyatlarına ciddi zərbə vurmuşdur.

İşğal illərində qəsdən törədilmiş yanğınlar da ciddi ekoloji fəsadlara səbəb olmuşdur. Təkcə 2006-cı ildə baş vermiş genişmiqyaslı yanğınlar nəticəsində 100 min hektardan artıq ərazi zərər çəkmiş, biomüxtəlifliyin azalmasına, torpaq eroziyasının sürətlənməsinə və iqlim balansının pozulmasına səbəb olmuşdur. Mütəxəssislərin hesablamalarına görə, regionda torpaq eroziyasının səviyyəsi bəzi ərazilərdə 2–3 dəfə artmışdır.

**Aida xanım Qarabağın flora və faunasının müxtəlifliyinin, orada bitən nadir bitkilərin işğaldan əvvəl də elmi cəhətdən xüsusi əhəmiyyət kəsb etdiyini dedi:**

– Qarabağın flora və faunası, onun rəngarəngliyi sovet dövründə də elmi cəhətdən xüsusi əhəmiyyət kəsb edirdi. Bölgədə 1500-dən çox ali bitki növü, o cümlədən 600-dən artıq dərman bitkisi mövcud olmuşdur. Bu bitkilərin təxminən 5 faizi endemik, 30-dan çoxu isə Azərbaycanın "Qırmızı kitabı"na daxil edilmiş nadir növlər idi. Bitkilərin 66 növü müasir tibbdə istifadə edilə biləcək farmakoloji xüsusiyyətlərə malikdir. Araşdırmalar göstərir ki, bölgədə yayılmış dərman bitkilərinin 163 növü sidikqovucu, 157 növü antibakterial, 81 növü büzüşdürücü, 38 növü yarasağaldıcı, 19 növü isə antiviral təsirə malikdir. Bu göstəricilər Qarabağın zəngin təbii əczaçılıq xammal bazasına malik olduğunu göstərir.

Qarabağın florasında xüsusi yer tutan və tibbi baxımdan əhəmiyyətli olan bitkilər – dazıotu (Hypericum), çobanyastığı (Matricaria), andız (Inula) və digər növlər yalnız xalq təbabətində deyil, müasir əczaçılıqda da perspektivli xammal hesab olunur. Bu bitkilərin tərkibində olan flavonoidlər, alkaloidlər, efir yağları və digər bioloji maddələr ürək-damar, mədə-bağırsaq, dəri, qaraciyər və sinir sistemi xəstəliklərinin müalicəsində geniş istifadə edilə bilər. Lakin işğal dövründə aparılan qeyri-qanuni fəaliyyət və ekosistemlərin dağıdılması nəticəsində bu növlərin bir qismi məhv olmuş, bir qismi isə yox olmaq təhlükəsi ilə üz-üzə qalmışdır.

**Müsahibim Qarabağın qədim dövrlərdən etibarən tibb və dərman bitkiləri ilə məşhur olduğunu tarixi mənbələrin də təsdiqlədiyini vurğuladı:**

– Eramızdan əvvəl IV əsrdə bu ərazidən toplanan bitkilər qədim Yunanıstan və Misirə ixrac edilirdi. Alban tarixçisi Musa Kalankatlı "Alban tarixi" əsərində Qarabağda fəaliyyət göstərən əczaxanalarda yerli bitkilər əsasında müxtəlif dərman preparatlarının hazırlanması haqqında ətraflı məlumat verir. Bu fakt regionun qədim əczaçılıq mərkəzlərindən biri olduğunu göstərir.

XIX əsrdə Şuşada fəaliyyət göstərən ilk tibbi müəssisələr də bu ənənənin davamı olmuşdur. Gövhər ağa Cavanşirin təşəbbüsü ilə yaradılmış müalicə ocaqlarında yerli bitkilərdən hazırlanmış dərman vasitələri geniş tətbiq olunurdu. Bu isə Qarabağın yalnız xammal bazası deyil, eyni zamanda, əczaçılıq biliklərinin inkişaf etdiyi mərkəz olduğunu göstərir. Bu faktlar regionun həm təbii, həm də elmi və mədəni baxımdan zəngin irsə malik olduğunu sübut edir.

Lakin Ermənistanın torpaqlarımızı uzunmüddətli işğalı dövründə meşələrin qırılması, nadir bitkilərin məhv edilməsi və ekosistemlərin dağıdılması nəticəsində bəzi dərman bitkisi növləri ya yox olmuş, ya da kəskin şəkildə azalmışdır. Statistik məlumatlara görə, işğal dövründə regionun meşə örtüyünün 25 faizdən çoxu zərər görmüş, bu isə dərman bitkilərinin təbii yayılma arealının daralmasına səbəb olmuşdur.

Bundan əlavə, istismar nəticəsində bəzi qiymətli bitkilərin regiondan çıxarılması onların təbii bərpasını çətinləşdirmişdir. Ekoloqların fikrincə, bəzi nadir dərman bitkilərinin populyasiyasının bərpası üçün ən azı 15–20 il vaxt tələb olunur.



Qarabağ həm də zəngin su ehtiyatları ilə seçilir. Tərtər, Bazarçay və Həkəri kimi çaylar, həmçinin Kəlbəcər rayonundakı məşhur İstisu mineral bulaqları regionun iqtisadi və sosial inkişafında mühüm rol oynamışdır. Bu su mənbələri, eyni zamanda, müalicəvi əhəmiyyətə malik olub, sanatoriya və balneoloji müalicə sahəsində geniş istifadə edilmişdir. Lakin işğal dövründə su ehtiyatlarının istismarı və çirkləndirilməsi nəticəsində bu mənbələr ciddi zərər görmüşdür. Bəzi qiymətləndirmələrə görə, regionun su ehtiyatlarının keyfiyyət göstəriciləri bəzi ərazilərdə normadan 30-40 faiz aşağı düşmüşdür.

**Həmsöhbətim hazırda Azərbaycan hökuməti və beynəlxalq təşkilatların Qarabağda həyata keçirdiyi bərpa proqramlarından və bölgənin əczaçılıq baxımından strateji əhəmiyyətə malik region olmasından söz açdı:**

– Bərpa proqramları çərçivəsində artıq minlərlə hektar ərazidə meşəsalma işlərinə başlanılıb nadir bitki və heyvan növlərinin qorunması istiqamətində layihələr icra olunur. 2023–2025-ci illər ərzində azad edilmiş ərazilərdə 10 milyondan çox ağacın əkilməsi planlaşdırılıb.

Bununla yanaşı, regionda "yaşıl enerji zonası" konsepsiyası çərçivəsində ekoloji tarazlığın bərpası və davamlı inkişafın təmin edilməsi istiqamətində mühüm addımlar atılır. Bu yanaşma həm təbii sərvətlərin qorunmasına, həm də gələcək nəsillər üçün sağlam ekosistemin formalaşdırılmasına xidmət edir.

Hazırda bölgədə aparılan elmi tədqiqatlar Qarabağın əczaçılıq potensialının yenidən qiymətləndirilməsinə imkan yaradır. Azərbaycan alimlərinin bu ərazilərə mütəmadi ekspedisiyaları nəticəsində bir sıra nadir və əvvəllər qeydə alınmamış bitki növləri yenidən aşkar edilir. Eyni zamanda, biotexnologiya və əczaçılıq sahəsində aparılan müasir tədqiqatlar bu bitkilərdən yeni nəsil dərman preparatlarının hazırlanması imkanlarını genişləndirir.

Qarabağ bölgəsi yalnız təbii sərvətləri ilə deyil, həm də əczaçılıq baxımından strateji əhəmiyyətə malikdir. Ərazinin zəngin bitki ehtiyatları gələcəkdə yerli dərman istehsalının genişləndirilməsi, idxaldan asılılığın azaldılması və yeni müalicə vasitələrinin yaradılması üçün mühüm baza rolunu oynaya bilər. Bu baxımdan, dövlət səviyyəsində həyata keçirilən bərpa proqramlarında dərman bitkilərinin qorunması və artırılması xüsusi yer tutur. Meşəsalma layihələri ilə yanaşı, dərman bitkilərinin sənaye miqyasında becərilməsi və emalı istiqamətində tədbirlər həm ekoloji tarazlığın bərpasına, həm də ölkənin əczaçılıq sənayesinin inkişafına töhfə verəcək.

Bu gün əsas məqsəd Qarabağın məhv edilmiş təbii və əczaçılıq potensialını bərpa etmək, onu müasir elmin nailiyyətləri ilə birləşdirərək davamlı inkişaf modelinə çevirməkdir. Qarabağın yenidən dirçəldilməsi təkcə tibbi deyil, həm də ekoloji və iqtisadi baxımdan Azərbaycanın gələcək inkişafında mühüm rol oynayacaq. Məhz buna görə də işğal nəticəsində bölgəyə dəyən itkilərin dəqiq qiymətləndirilməsi və bərpası istiqamətində aparılan elmi tədqiqatlar regionun gələcək inkişaf strategiyasının əsasını təşkil edir.

Qarabağın bərpası yalnız milli məsələ deyil, eyni zamanda, qlobal ekoloji təhlükəsizlik baxımından da mühüm əhəmiyyət kəsb edir. Bu gün qarşıda duran əsas vəzifə işğaldan azad edilmiş torpaqlarda təbii tarazlığın bərpası, biomüxtəlifliyin qorunması və ekoloji davamlılığın təmin edilməsidir. Qarabağın yenidən dirçəldilməsi Azərbaycan dövlətinin prioritet istiqamətlərindən biri olmaqla yanaşı, həm də xalqımızın tarixi ədalətin bərpasına verdiyi töhfədir.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

*5 İyun Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günüdür*

# Təbiət həyat qaynağı və insanlığın ümumi evidir

*Dünyanın gələcəyi bu gerçəyin hamılıqla qəbul edilməsindən keçir*

**Hər il iyunun 5-də Yer kürəsində geniş qeyd olunan Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü insanların diqqətini ekoloji problemlərə yönəltmək, ətraf mühitin qorunmasının vacibliyini bir daha xatırlatmaq məqsədi daşıyır. Bu qlobal aksiyanın keçirilməsi təbiətin mühafizəsi sahəsində həmrəyliyin gücləndirilməsi, ekoloji məsuliyyət hissinin artırılması və dayanıqlı inkişaf prinsiplərinin təşviqinə xidmət edir. Hər il bu hərəkat dünyanın 150-dən çox ölkədə müxtəlif tədbirlər, ağacəkmə aksiyaları, maarifləndirici kampaniyalar və ekoloji layihələrlə müşayiət edilir.**



Müasir dövrdə bəşəriyyət ciddi ekoloji çağırışlarla üz-üzədir. İqlim dəyişiklikləri, biomüxtəlifliyin azalması, su ehtiyatlarının tükənməsi, torpağın eroziyası, meşələrin məhv edilməsi və ətraf mühitin çirklənməsi qlobal təhlükələr sırasındadır. Ekstremal hava şəraiti, quraqlıqlar, daşqınlar və meşə yanğınları ekoloji problemlərin artıq yalnız təbiət hadisəsi deyil, həm də iqtisadi və sosial təhlükəsizlik məsələsi olduğunu göstərir.

Qlobal istiləşmə, havanın, suyun çirklənməsi, meşələrin azalması, torpaqların deqradasiyası və tullantıların artması bəşəriyyət qarşısında duran ən ciddi problemlərdir. Bu problemlər təkcə təbiətə deyil, insanların sağlamlığına, iqtisadi inkişafa və gələcək nəsillərin rifahına da mənfi təsir göstərir. Bu kontekstdə təbiətin qorunması, enerjiyə qənaət, su ehtiyatlarından səmərəli istifadə, tullantıları çeşidləmək, ağacəkmə aksiyalarında iştirak etmək və plastik istifadəsini azaltmaq ətraf mühitin qorunmasına verilən real töhfələrdir.

Azərbaycan ətraf mühitin mühafizəsini dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Ölkədə yaşıllıqların artırılması, meşələrin bərpası, alternativ enerji mənbələrinin inkişafı və ekoloji tarazlığın qorunması istiqamətində mühüm layihələr həyata keçirilir. Xüsusilə işğaldan azad olunmuş ərazilərin "yaşıl enerji" zonası kimi inkişaf etdirilməsi ekoloji dayanıqlılığın təmin olunmasına xidmət edir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi BMT-nin Ətraf Mühit Proqramı ilə tərəfdaşlıq çərçivəsində 5 iyun Ümumdünya Ətraf Mühit Gününə həsr olunan "Təbiətdən ilham alaraq iqlim naminə. Gələcəyimiz naminə" şüarı altında silsilə tədbirlər keçirir.

Nazirlikdən verilən məlumata görə, builki Ümumdünya Ətraf Mühit Günü hər kəsi iqlim fəaliyyəti istiqamətində birgə hərəkət etməyə çağırır. İnsanların, şəhərlərin, şirkətlərin və hökumətlərin ətraf mühitlə bağlı verdiyi hər qərarın bir siqnal olduğu vurğulanır. Kampaniya çərçivəsində yerli və xarici iştirakçılar iqlim dəyişmələrinin təsirləri və ya həll yolları ilə bağlı müşahidələrini "İndi iqlim naminə" həştəqləri ilə paylaşaraq kampaniyaya qoşula bilərlər. Tədbirlər Ümumdünya Ətraf Mühit Gününün rəsmi platformasında yerləşdirilərək beynəlxalq auditoriyaya təqdim ediləcək.

Mütəxəssislər qeyd edirlər ki, ətraf mühitin qorunması həm də gələcək nəsillər qarşısında mənəvi məsuliyyətdir. Təbii sərvətlərdən düşünülmüş şəkildə istifadə etmək, ekoloji tarazlığı qorumaq və sağlam ətraf mühit yaratmaq gələcəyin rifahının əsas şərtlərindəndir. Bu gün qəbul edilən qərarlar sabahın ekoloji təhlükəsizliyini müəyyənləşdirir.

**Mövzu ilə bağlı coğrafiya üzrə fəlsəfə doktoru, ekoloji ekspert, Rövşən Abbasov XQ-yə bildirdi ki, hava, su, torpaq və biomüxtəliflik həyatın əsas dayaqlarıdır:**

– Lakin son onilliklərdə sürətlənən sənayeləşmə, urbanizasiya, təbii resurslardan qeyri-səmərəli istifadə və ətraf mühitə artan təzyiq bu dayaqları ciddi təhlükə altına salıb. Buna görə də Ümumdünya Ətraf Mühit Günü, sadəcə, təqvimdə qeyd olunan bir tarix deyil, insanları təbiət qarşısında məsuliyyətlərini yenidən dərk etməyə çağıran qlobal təşəbbüsdür. Ən ciddi ekoloji problemlərindən biri iqlim dəyişiklikləridir. Son illərdə müşahidə olunan qeyri-sabit hava şəraiti, güclü yağıntılar, sel və daşqınlar, uzunmüddətli quraqlıq dövrləri, yüksək temperatur rekordları iqlim dəyişikliklərinin göstəricisidir.

İqlim dəyişiklikləri ölkənin təbii ekosisteminə mənfi təsir göstərir. Bəzi bitki və heyvan növlərinin yaşayış mühiti daralır, biomüxtəliflik azalır, su-bataqlıq əraziləri və digər həssas ekosistemlər deqradasiyaya məruz qalır. Xəzər dənizinin səviyyəsindəki dəyişikliklər, çayların sululuğunun azalması və su ehtiyatlarının tədricən məhdudlaşması gələcək üçün ciddi ekoloji və iqtisadi riskləri artırır.

**Müsahibimiz daha sonra qeyd etdi ki, şəhərlərdə ən böyük problemlərdən biri havanın çirklənməsidir:**

– Xüsusilə Bakı və Abşeron yarımadasında nəqliyyat vasitələrinin çoxluğu, sənaye müəssisələrinin fəaliyyəti və enerji istehlakının artması atmosferə böyük həcmdə çirkləndirici maddələrin atılmasına səbəb olur. Digər mühüm problem tullantıların həcminin artmasıdır. Əhali sayının və istehlakın artması məişət tullantılarının miqdarını da artırır. Tullantıların düzgün çeşidlənməməsi və təkrar emal səviyyəsinin kifayət qədər olmaması ətraf mühitə əlavə yük yaradır.

Kənd ərazilərində isə əsas ekoloji problemlər torpaq eroziyası və su çatışmazlığı ilə bağlıdır. Güclü yağışlar, meşə örtüyünün azalması və torpaqdan düzgün istifadə edilməməsi məhsuldar torpaq qatının yuyulmasına səbəb olur. Nəticədə kənd təsərrüfatı üçün yararlı torpaq sahələrinin keyfiyyəti aşağı düşür. Su ehtiyatlarının azalması da kənd təsərrüfatının qarşısında duran ən böyük çağırışlardan biridir.

Rövşən Abbasov deyilənlərə onu da əlavə etdi ki, mövcud problemlərə baxmayaraq, ölkəmizdə ətraf mühitin qorunması istiqamətində mühüm işlər görülür. Azərbaycanın COP29-a ev sahibliyi ölkənin qlobal iqlim dəyişiklikləri ilə mübarizədə fəal iştirak etdiyini göstərən mühüm hadisədir. Bu, həm ölkənin beynəlxalq ekoloji əməkdaşlıqdakı rolunu gücləndirir, həm də "yaşıl inkişaf" strategiyasının uğurla həyata keçirilməsinə təkan verir.

Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü bir daha xatırladır ki, təbiət insan həyatının ayrılmaz hissəsidir. Təbiəti qorumaq, əslində, gələcəyi qorumaq deməkdir. Sağlam ətraf mühit, təmiz hava, saf su və zəngin təbii ehtiyatlar gələcək nəsillərə ötürməli olduğumuz ən qiymətli mirasdır. Buna görə də ekoloji məsuliyyət hər birimizin gündəlik həyat tərzinə çevrilməlidir.

***Mustafa KAMAL***
***XQ***

## AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN (UNEC-in)

### Zaqatala filialı

*2026/2027-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla*

**təkrar ali təhsil almaq üçün sənəd qəbulunu elan edir**

- **6004002 Biznesin idarə edilməsi**
- **6004003 Dövlət və bələdiyyə idarəetməsi**
- **6004004 İqtisadiyyat**
- **6004005 Maliyyə**
- **6004006 Marketinq**
- **6004007 Menecment**
- **6004008 Mühasibat**
- **6008008 Turizm işinin təşkili**
- **6006016 İnformasiya texnologiyaları**

Təkrar ali təhsilə sənəd qəbulu ancaq elektron qaydada **https://portal.edu.az/** və **http://www.kabinet.unec.edu.az** internet linkləri vasitəsilə həyata keçirilir. Göstərilən ixtisaslara qəbul olmaq istəyənlər tələb edilən sənədləri ilk növbədə https://portal.edu.az/ və bundan sonra isə **http://www.kabinet.unec.edu.az** portalları vasitəsilə elektron qaydada təqdim edir və müvafiq tələblərə cavab verdikləri halda təkrar ali təhsil almaq hüququnu qazanırlar.

Sənədlərin qəbulu 2026-cı il iyunun 3-dən avqustun 31-dək aparılacaqdır.

***Təkrar ali təhsil almaq istəyənlər aşağıdakı sənədləri elektron formada təqdim etməlidirlər:***

- Rektorun adına ərizə;
- Ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiqlənmiş surəti (diploma əlavə ilə birlikdə);
- 3x4 sm ölçüdə fotoşəkil;
- Şəxsiyyət vəsiqəsinin surəti.

**QEYD:** 1993-cü ildən sonra xarici ölkələrdə ali təhsil almış şəxslər yalnız diplomları mövcud qaydada Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən tanındıqdan sonra universitetdə təkrar ali təhsil ala bilərlər.

**Ünvan: Zaqatala, Əhməd Rəcəbli küçəsi 4, otaq 202.**

**Telefon: +994 24 22 5 30 56.**

**Mobil - (050) 788-70-03 ("WhatsApp" ünvanı) (070) 808-49-08 ( "WhatsApp" ünvanı)**

## "Bakı Polad Burazlar" ASC səhmdarlarının nəzərinə!

"Bakı Polad Burazlar" ASC səhmdarlarının nəzərinə çatdırılır ki, cəmiyyətin səhmdarlarının illik ümumi yığıncağı 30 iyun 2026-cı il saat 11.00-da keçiriləcəkdir.

**Yığıncağın gündəliyinə aşağıdakı məsələlər daxildir:**

**1.** Cəmiyyətin 2025-ci il üzrə illik maliyyə-təsərrüfat hesabatının təsdiq edilməsi.

**2.** Digər cari məsələlər.

Yığıncaq cəmiyyətin yerləşdiyi ünvanda: Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi 8 nömrəli ünvanda keçiriləcəkdir.

Səhmdarlar yığıncağın gündəliyinə aid materiallarla hər gün (şənbə və bazar günləri istisna olmaqla) saat 10.00-dan 16.00-dək cəmiyyətin baş ofisində tanış ola bilərlər.

Yığıncaqda iştirak etmək üçün səhmdarların qeydiyyatı yığıncaq günü saat 10.00-da başlanır. Yığıncaqda iştirak üçün şəxsiyyəti təsdiqləyən sənədin (nümayəndələr üçün isə müvafiq qaydada təsdiq olunmuş etibarnamənin) təqdim edilməsi mütləqdir.

***"Bakı Polad Burazlar" ASC-nin rəhbərliyi.***

## "KORGÖZ-TİKİNTİ-MATERİAL" ATSC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı (aktiv və öhdəliklərin qısamüddətli və uzunmüddətli siniflərə bölünməsi haqqında)

**Maliyyə vəziyyəti haqqında hesabat**

manatla

| | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|
| | **2025-ci il** | **2024-cü il** |
| **AKTİVLƏR** | | |
| Torpaq, tikili və avadanlıqlar | 265197 | 301913 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **265197** | **301913** |
| **Qısamüddətli aktivlər** | | |
| Ehtiyatlar | 2347 | 2347 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 47 | 58 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **2394** | **2405** |
| **CƏMİ AKTİVLƏR** | **267591** | **304318** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **Kapital** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 568660 | 568660 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | (1857720) | (1790268) |
| **CƏMİ KAPİTAL** | **(1289060)** | **(1221608)** |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | (11105) | 5140 |
| Qısamüddətli kreditor borcları | 7542 | 6468 |
| Sair qısamüddətli öhdəliklər | 1560214 | 1514318 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **1556651** | **1525926** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **1556651** | **1525926** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **267591** | **304318** |

**Məcmu mənfəət və zərər haqqında hesabat (xərclərin xarakteri üzrə)**

| | Qeyd | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 14 | 233796 | 197632 |
| İstifadə edilmiş material ehtiyatları, görülmüş işlər və göstərilmiş xidmətlər | 15 | (119022) | (118009) |
| İşçi heyəti üzrə xərclər | 15 | (79363) | (75134) |
| Amortizasiya xərcləri | 15 | (36716) | (43122) |
| Digər əməliyyat xərcləri | 15 | (55873) | (56716) |
| Əməliyyat mənfəəti (zərəri) | 16 | (57178) | (95349) |
| Vergiqoymadan əvvəl mənfəət (zərər) | 16 | **(57178)** | **(95349)** |
| Mənfəət vergisi | 16 | | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 17 | **(57178)** | **(95349)** |

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

| | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Malların satışından və xidmətlərin göstərilməsindən daxilolmalar | 233796 | 197632 |
| Əməliyyat fəaliyyətindən cəmi daxilolmalar | **233796** | **197632** |
| Mallar və xidmətlərə görə xaricolmalar | (137179) | (77008) |
| İşçilərin mükafatlandırılması ilə əlaqədar ödənişlər | (57741) | (62344) |
| Mənfəət vergisi ödənişi üzrə xaricolmalar | | 5349 |
| Digər vergilərə görə xaricolmalar | (81289) | (133387) |
| Digər ödənişlərə görə xaricolmalar | (11246) | (109330) |
| Əməliyyat fəaliyyətindən cəmi xaricolmalar | **(287455)** | **(286720)** |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(53659)** | **(89088)** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| | Qeyd | Ödənilmiş nizamnamə kapitalı | Emissiya gəliri | Geri alınmış kapital (səhmlər) | Kapital ehtiyatları | | | | | | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yenidən qiymətləndirilmə üzrə ehtiyat | Məzənnə fərqləri üzrə ehtiyat | Qanunvericilik üzrə ehtiyat | Nizamnamə üzrə ehtiyat | Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | |
| 01.01.2024 | **17** | **568660** | | | | | | | | (1679662) | (1111002) |
| Hesabat dövründə xalis mənfəət (zərər) | **17** | | | | | | | | (15257) | (95349) | (110606) |
| Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi | **17** | | | | | | | | (15257) | (95349) | (110606) |
| Hesabat dövrünün sonuna qalıq (2024) | **17** | **568660** | | | | | | | **(15257)** | **(1775011)** | **(1221608)** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | **17** | | | | | | | | (10274) | (57178) | (67452) |
| Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi | **17** | | | | | | | | **(10274)** | (57178) | (67452) |
| Hesabat dövrünün sonuna qalıq | **17** | **568660** | | | | | | | **(25531)** | **(1832189)** | **(1289060)** |

### "KORGÖZ-TİKİNTİ-MATERİAL" AÇIQ TİPLİ SƏHMDAR CƏMİYYƏTİNİN

**Səhmdarlarına, direktoruna:**

**Rəy**

Biz, Azərbaycan Respublikası Auditorlar Palatasının AT/237 qeydiyyat nömrəli icazəsinə əsasən auditor fəaliyyəti göstərən "HL COMPANY" Məhdud Məsuliyyətli Cəmiyyətin işçi qrupu, "KORGÖZ-TİKİNTİ-MATERİAL" Açıq Tipli Səhmdar Cəmiyyətinin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatlardan, maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatlardan, kapitalda dəyişikliklər haqqında hesabatlarından və göstərilən tarixdə başa çatan illər üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizcə, əlavə edilmiş maliyyə hesabatları «KORGÖZ-TİKİNTİ-MATERİAL" Açıq Tipli Səhmdar Cəmiyyətinin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini, kapitalda dəyişiklikləri və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Biz, auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz, maliyyə hesabatlarının auditinə aid etik normalarla Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq «KORGÖZ-TİKİNTİ-MATERİAL" Açıq Tipli Səhmdar Cəmiyyətindən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmış və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**"HL Company" MMC-nin direktoru - Auditor**
**H.Həsənov**

**22 may 2026-cı il**
**Bakı, Azərbaycan**

## Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

*qeyd olunan kafedralar üzrə vakant professor-müəllim vəzifələrini tutmaq üçün*

# MÜSABİQƏ ELAN EDİR

Fəlsəfə və sosial elmlər kafedrası.
Ümumi pedaqogika kafedrası.
Xarici dillərin tədrisi kafedrası.
Xarici dillər mərkəzi (ingilis, rus və fransız dilləri üzrə).
Riyaziyyat və onun tədrisi texnologiyası kafedrası.
Kompüter elmləri kafedrası.
Cəbr və həndəsə kafedrası.
Pedaqoji psixologiya kafedrası.
Xüsusi təhsil kafedrası.
Ümumi fizika kafedrası.
Musiqi və onun tədrisi texnologiyası kafedrası.
Təsviri incəsənət və onun tədrisi texnologiyası kafedrası.
Fiziki tərbiyə və çağrışaqədər hazırlığın tədrisi texnologiyası kafedrası.
Mülki müdafiə və tibbi biliklər kafedrası.
Təhsil menecmenti kafedrası.

Müsabiqədə elmi-pedaqoji və ya istehsalat təcrübəsinə, müvafiq elmi ad və dərəcələrə malik olan şəxslər iştirak edə bilərlər. Müraciət edən namizədlərdən aşağıdakılar tələb olunur:

***- kompüterdən (office proqramları – word, excel, power point, microsoft teams və s.) istifadə bacarığı;***

***- tədrisin onlayn formada təşkili üzrə bacarıqlar;***

***- Azərbaycan, rus və ingilis dillərində tədris bacarığı;***

***- yüksək peşə-ixtisas və mənəvi keyfiyyətlər.***

**Sənədlər bu elan qəzetdə və www.adpu.edu.az saytında dərc olunan gündən başlayaraq 30 gün müddətində saat 9.00-dan 17.00-a qədər ADPU-nun insan resursları və kargüzarlıq şöbəsində qəbul edilir.**

**Əlaqə telefonu: (012) 498-08-16.**

**Ünvan: AZ-1000 Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 68.**

**E-poçt: insan.resurslari@adpu.edu.az**

**www.adpu.edu.az**

***REKTORLUQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 97 (31066) 5 iyun 2026-cı il, cümə

# İDMAN

## Minifutbolçularımız 2-ci dəfə Avropa çempionu olub



**Slovakiyanın paytaxtı Bratislavada keçirilən minifutbol üzrə Avropa çempionatının finalında Azərbaycan milli komandası Ukrayna yığması ilə üz-üzə gəlib.**

Gərgin keçən qarşılaşma Azərbaycan millisinin xeyrinə başa çatıb – 2:0. Komandamızın qollarını Mirmehdi Rzayev və İsa Atayev ukraynalıların qapısından keçirib.

Beləliklə, Azərbaycan millisi 2-ci dəfə Avropa çempionu titulunu qazanıb.

## “Üzgüçülük hamı üçün”də final



**Dünən Bakı Su İdmanı Sarayında Gənclər və İdman Nazirliyi və Azərbaycan Üzgüçülük Federasiyasının təşkilatçılığı ilə “Üzgüçülük hamı üçün” layihəsinin final mərhələsinin açılış mərasimi keçirilib.**

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Üzgüçülük Federasiyasının prezidenti Zaur Əliyev çıxış ediblər.

Açılış mərasimindən sonra yarışlara rəsmi start verilib. Final mərhələsində Azərbaycan və Türkiyədən olan idmançılar mübarizə aparır. Azərbaycan komandası Bakı, Sumqayıt, Gəncə, Lənkəran və Mingəçevir şəhərləri, eləcə də Goranboy, Balakən və İsmayıllı rayonlarını təmsil edən iştirakçılarla yarışlarda təmsil olunur.

Dünən keçirilən yarışlarda idmançılar 10–11, 12–13, 14–15, 46–50, 51–55, 56–60 və 61 yaşdan yuxarı kateqoriyalar üzrə medallar uğrunda mübarizə aparıblar.

Qeyd edək ki, yarışa sabah yekun vurulacaq.

## Fransada antidopinq konfransı



**Avropa Şurası və Ümumdünya Antidopinq Agentliyinin (WADA) birgə təşkilatçılığı ilə Fransanın paytaxtı Paris şəhərindəki “Stade Jean Bouin”də “Avropada dopinq maddələrinin əlçatanlığının məhdudlaşdırılması: Ortaq məsuliyyət” mövzusunda beynəlxalq konfrans keçirilib.**

Tədbirdə ölkəmizi Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) İcraçı direktoru Təhminə Tağı-zadənin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Konfransın əsas məqsədi dopinq maddələrinin idmanda və idmandan kənar mühitdə, xüsusilə rekreativ idman, fitnes mərkəzləri və onlayn platformalar vasitəsilə yayılmasının qarşısının alınması üzrə mövcud çağırışları və mümkün həll yollarını müzakirə etmək olub.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Məktəb, elm, ədəbiyyat*

# Sumqayıtda alim və yazarlarla görüş

**Sumqayıt şəhəri Hacı Zeynalabdin qəsəbəsindəki 6 nömrəli orta məktəbdə Azərbaycan Milli Elmlər Akademiyası, Mədəniyyət Nazirliyi və Abşeron-Xızı Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə maarifləndici görüş keçirilib.**



Məktəblərdə mütaliənin təşviqi, uşaqların yazıçı və alimlərlə birbaşa ünsiyyətinin qurulması, şagirdlərə oxu mədəniyyətinin aşılanması məqsədilə təşkil edilən toplantıda qonaqlar əvvəlcə məktəblilərin rəsm əsərlərindən ibarət sərgi ilə tanışlıq olublar, öz kitablarını məktəb kitabxanasına hədiyyə ediblər.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli görüşdə Azərbaycan maarifçilik tarixindən, maarifçi ziyalıların xalqımızın elm və tərəqqiyə qovuşmasında müstəsna xidmətlərindən söz açıb. Akademik ümummilli lider Heydər Əliyevin elm və təhsilin inkişafına göstərdiyi diqqətdən, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu siyasətin uğurla davam etdirilməsindən konkret faktlar əsasında bəhs edib.

AMEA Ədəbiyyat İnstitutunun şöbə müdiri, Milli Məclisin deputatı Elnarə Akimova isə rəhbəri olduğu “Məktəb, elm və ədəbiyyat” layihəsi barədə məlumat verib. Milli Məclisin deputatı Mehriban Vəliyeva, Mədəniyyət Nazirliyinin şöbə müdiri Vasif Qurbanzadə, yazarlardan Rafiq Yusifoğlu, Reyhan Yusifqızı, Sevinc Elsevər, Əziz Sultan, İbrahim İlyaslı və Elvin Əlizadə mütaliənin məktəblilərin yüksək elmi-mədəni dünyagörüşü qazanmaqda mötəbər mənbə olduğundan danışıblar.

Məktəbin direktoru Qönçə Səftərova görüşün şagirdlərin davamlı mütaliəyə təşviqində təsirli hadisə olduğunu söyləyib.

*Ə.ƏLİYEV*
*XQ*

*Təbii qida – sağlam həyat*

**Şəkər zaman-zaman insan həyatının ayrılmaz hissəsinə çevrilib. Azərbaycanda da bayram süfrələrindən toy məclislərinə, gündəlik çay süfrələrindən ad günlərinə qədər hər yerdə onun izinə rast gəlirik. Çayla verilən qənd, şirniyyatlarla zəngin qidalar şəkərin mətbəx mədəniyyətimizdəki yerini göstərir. Lakin bu gün adi görünən şəkər tarix boyunca dünya iqtisadiyyatına, siyasətinə və insanların həyatına güclü təsir edən məhsullardan biri olub.**

# “Şirin bəla”nın acı tarixçəsi

## *Şəkər dünyada niyə bu qədər geniş yayılıb?*

Əsrlər boyu insanlar içdikləri mayeni bal, xurma, üzüm və bəhməzlə şirinləşdiriblər. Şəkər isə bir sıra xüsusiyyətlərinə görə sürətlə yayılıb. Onu yeməklərə əlavə etmək, müxtəlif məhsullar hazırlamaq və uzun müddət saxlamaq mümkün olub. İlk dəfə Yeni Qvineyada şəkər qamışından alınan bu məhsul daha sonra Hindistana yayılıb. Hindlilər şəkər qamışı şirəsini qaynadaraq ilk dəfə kristallaşmış şəkəri əldə ediblər və ona sanskrit dilində “şarkara” adını veriblər.



Uzun müddət qızıldan daha qiymətli hesab edilən şəkər yalnız varlı təbəqənin istifadə edə bildiyi məhsul olub. Sonrakı dövrlərdə şəkər qamışı Şərq ölkələrində geniş yayılıb. Ticarət yolları vasitəsilə Asiyadan Yaxın Şərqə gətirilən şəkərdən qida, həm də dərman kimi istifadə olunub.

XV əsrin sonlarında Avropa şəkərlə tanış olandan sonra ona tələbat artıb və istehsal sənayeləşdirilib. Braziliya və Karib hövzəsində yaradılan böyük şəkər qamışı plantasiyalarında milyonlarla afrikalı qul kimi işlədilib. Tarixçilər bildirirlər ki, Amerikaya aparılan 12,5 milyon qulun böyük hissəsi şəkər plantasiyalarında çalışdırılıb.

Şəkər istehsalı son dərəcə ağır və təhlükəli idi. Qullar gün ərzində 16 saata qədər işləyir, dəyirmanlarda ağır xəsarətlər alır, isti qazanların yanında ciddi yanıqlara məruz qalırdılar. Milyonlarla qara dərili insanın əzablı zəhmətinin məhsulu olan şəkər Avropanın süfrələrində ağ kristal kimi peyda olub.

Zaman keçdikcə şəkər ucuzlaşıb və digər təbəqələrin də istifadə etdiyi məhsula çevrilib. Çay, qəhvə və kakao kimi içkilərin yayılması da şəkər istehlakını sürətlə artırıb. Sənaye inqilabı dövründə şəkərli çay və mürəbbəli çörək fəhlələrin əsas enerji mənbələrindən biri olub. XIX əsrdə Napoleon müharibələri nəticəsində Avropaya şəkər qamışı idxalı çətinləşib. Bu zaman alman kimyaçı Andreas Marqqraf şəkər çuğundurundan da şəkər əldə edib. Nəticədə Avropa daha ucuz olan öz şəkərini istehsal edib.

XX əsrdə şəkər sənayesi yeni mərhələyə qədəm qoyub. Hazır qidalar, qazlı içkilər, səhər yeməyi və şirniyyatlardan istifadə kütləviləşib. Şəkər istehlakı sürətlə artarkən piylənmə, diabet və ürək-damar xəstəlikləri də qlobal problemə çevrilib. Bu gün dünya əhalisinin böyük hissəsi normadan artıq şəkər istehlak edir. Azərbaycanda da adambaşına illik şəkər istehlakı 22 kiloqramdır. Bu isə tövsiyə olunan həddən 2 dəfədən də çoxdur. Diabet və artıq çəki göstəriciləri isə ildən-ilə artır.

Şəkərin insan sağlamlığına mənfi təsirləri bu gün diqqət mərkəzindədir. Mövzunun tibbi tərəflərinə aydınlıq gətirmək üçün həkim-genetik İsmayıl Allahverdiyevlə müsahib olduq:

Ümumdünya Səhiyyə Təşkilatının yeni təlimatında gündəlik sərbəst şəkər qəbulunun ümumi qidada 10 faizdən aşağı səviyyədə olması tövsiyə edilir. Bu göstəricinin daha da azaldılaraq 5 faizdən aşağı və ya gündə 25 qrama çatdırılması sağlamlıq üçün daha faydalıdır. Sərbəst şəkər dedikdə istehsalçı, aşpaz və ya istehlakçının qidalara və içkilərə əlavə etdikləri monosaxaridlər (qlükoza, fruktoza kimi) və disaxaridlər (saxaroza və ya süfrə şəkəri kimi), eləcə də, balın və meyvə şirələrinin tərkibində təbii şəkildə mövcud olan şəkərlər nəzərdə tutulur.

ÜST-nin Sağlamlıq və İnkişaf üçün Qidalanma Departamentinin direktoru Françesko Branka isə bildirib ki, sərbəst şəkərin ümumi qidanın 10 faizindən az qəbul edilməsi artıq çəki, piylənmə və diş çürüməsi riskini azaltdır. Meyvə və tərəvəzlərin, eləcə də südün tərkibində olan təbii şəkərin istehlakının mənfi təsirlərinə dair heç bir qeydə alınmış sübut yoxdur. Bu gün istehlak edilən şəkərlərin böyük hissəsi, adətən, emal olunmuş qidaların tərkibində “gizlənmiş” haldadır. Məsələn, 1 xörək qaşığı ketçupun tərkibində 4 qram sərbəst şəkər var. Bir şüşə şirinləşdirilmiş qazlı içkinin tərkibində isə bu göstərici 40 qrama çatır.

ÜST-nin 2023-cü ildə yaydığı məlumata görə,şəkər əvəzedicilərindən istifadənin piylənmənin qarşısının alınmasında heç bir faydası yoxdur. Üstəlik, şəkər əvəzedicilərinin uzunmüddətli istifadəsi böyüklərdə diabet, ürək-damar xəstəlikləri və ölüm təhlükəsini artırır. Şəkərli diabeti olan şəxslər belə əvəzedicilərdən istifadə ilə bağlı dietoloqla məsləhətləşməlidir. Çünki şəkər əvəzediciləri diabetli şəxslərin artıq karbohidrat qəbulunu qismən əvəz edir. Nəticə etibarilə şəkər əvəzedicilərini ÜST ideal sağlam alternativ hesab etmir. Hələlik ən yaxşı əvəzedici təbii meyvə və tərəvəzlər və onların şirələridir. Lakin şirələrin gündə 150 qramdan artıq içilməsi tövsiyə edilmir.



*Südabə MƏTANƏTLİ,*
*BDU-nun tələbəsi*

HAVA

# Aranda yağmursuz, dağlarda qısamüddətli yağış, dolu…

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə bəzi yerlərdə duman olacaq. Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Gecə 15-18°, gündüz 24-29° olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunu, nisbi rütubət isə gecə 60-65 %, gündüz 45-50 % təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var.



Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək.

Gecə 15-19°, gündüz 27-32°, dağlarda gecə 7-12°, gündüz 15-19°, bəzi yerlərdə 21-25° olacaq.

*Q.ƏLİYEV*
*XQ*

*✓ 1999-cu ildə Azərbaycan Dövlət İqtisad İnstitutu tərəfindən Göyçayskaya Nəzirə Yaşar qızının adına verilmiş ali təhsil haqqında 031781 nömrəli fərqlənmə diplomu və 2001-ci ildə Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş MN seriyalı, 004770 nömrəli magistr diplomu itdiyi üçün etibarsız sayılır.*

*✓ “Azəriqaz” İstehsalat Birliyi (İB) tərəfindən Xaçmaz şəhəri, Üzeyir Hacıbəyov küçəsi 111 nömrəli ünvanda yaşayan Hacıyev Əli Məhəmməd Mövsüm oğlunun adına verilmiş 20 sentyabr 2005-ci il tarixli Almaniya markalı, “Elster G4”-00511801 nömrəli sayğac itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat və kibernetika fakültəsinin kollektivi informatika kafedrasının müdiri Mübariz Xəlilova qardaşı

**RƏFAİL XƏLİLOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3186
SİFARİŞ 698
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00